www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 may 2017-ci il Cümə № 100 (6714) Qiyməti 60 qəpik

**Xəbər**

**Bu gün İslamidanın açılış mərasimidir - yollar bağlı olacaq**

yazısı səh.2-də

**Gündəm**

## Bişkek protokolundan keçən 23 il, həmsədrlərin ikili oyunu, düşmənin kəsilməyən təxribatları



Ermənistanın sülh danışıqlarından imtina etdiyi bir mərhələdə Qərbin separatçılarla bağlı fərqli mövqe sərgiləməsi işğalçını daha da həvəsləndirir...

yazısı səh.11-də

## Ermənilərin Şuşanı "paytaxt" etmək niyyətinə Bakıdan sərt reaksiyalar

yazısı səh.7-də

## "Milli Təhlükəsizlik Konsepsiyamızda düzəlişlər edilməlidir" -ekspert

yazısı səh.5-də

## Fərhad Əliyev müxalifətə keçsəydi...

yazısı səh.6-da

## "Leş ət" mafiyasına qarşı agentlik yaradılır

yazısı səh.3-də

## ABŞ layihəsi olan USAİD-in bağlanmasından Azərbaycan nə itirəcək?

yazısı səh.9-da

## Ölkənin iqtisadi durumu: böhran çözülür, yoxsa dərinləşir...

yazısı səh.3-də

## Oliqarx oğlunun "Porsche" ilə vurub öldürdüyü qadının uşaqlarına kompensasiya ödəniləcəkmi...

yazısı səh.12-də

## Mossadı Azərbaycana bağlayan nədir...

yazısı səh.5-də

## Bakı sakini qonşusunun "Wi-Fi"nə qoşulduğu üçün bıçaqlandı

yazısı səh.14-də

## Cənubdan "dindaş və qardaş" zərbəsi

# İRANDAN ANTİ-AZƏRBAYCAN PLANI - İLGİNC SSENARİ DE-ŞİFRƏ OLUNDU

O taylı-bu taylı Azərbaycan əleyhinə hazırlanan sənəd Türkiyəni də qarışdırmağı özündə ehtiva edir, güneyli fəalları gözdən salmağa yönəlik xüsusi KİV və saytların yaradılması nəzərdə tutulur; iki qardaş ölkədə etnik qarşıdurma yaratmaq istəklərinin də yer aldığı məkrli planın pərdəarxasında daha nələr var?...




yazısı səh.8-də

## Nazirin "odlu çıxışından" restoranına necə od "düşdü"...

Yavər Camalovun ölkəmizin silah ixracatçısına çevrildiyini bəyan etməsindən 2 saat sonra Bakıdakı obyektində yangın olması təsadüfdür, yoxsa?

yazısı səh.6-da



*İlham Şaban:*

**"Hökumətin bütün proqramı, gələcək fəaliyyəti əlavə qazancların axtarılması üzərində qurulmalıdır"**

yazısı səh.4-də



*Elçin Mirzəbəyli:*

**"Atəşkəs məğlubiyyət deyildi, məcburiyyət idi"**

yazısı səh.7-də



**Cahangir Hacıyevin səhhəti pisləşdi - danışa bilmir...**

yazısı səh.2-də



# Pirallahıda yeni körpünün açılışı oldu

## "Bu, həmin ərazidə turizmin inkişafı baxımdan da uğurlu layihədir"

**Mayın 11-də Pirallahı qəsəbəsindəki Səməd Vurğun küçəsinin yenidənqurmadan sonra açılışı olub. Açılış mərasimində iştirak edən prezident İlham Əliyev və vitse-prezident Mehriban Əliyeva Pirallahı körpüsü və yanaşma yollarında görülən işləri əks etdirən stendlə də tanış olublar.**

AzərTAc-ın məlumatına görə, "Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov dövlət başçısına məlumat verib ki, dəniz dalğaları Pirallahı qəsəbəsini sahillə birləşdirən avtomobil yolunu yuyub sıradan çıxarırdı. Bunun qarşısını almaq üçün prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Pirallahı adasını sahillə birləşdirən yeni müasir körpü inşa edilib. Layihənin icrası nəticəsində gəmilərin körpünün altından sərbəst hərəkəti təmin olunub. Yeni körpü Qala-Pirallahı avtomobil yolunun 23-cü kilometrində yerləşir. Körpünün uzunluğu 422, eni 14, hərəkət zolağının eni isə 12 metrdir.

Yenidən qurulan avtomobil yolu Pirallahı körpüsü və Pirallahı-Qala avtomobil yolundan istifadə etməklə, qəsəbə sakinlərinin Heydər Əliyev prospekti vasitəsilə Bakı şəhərinin mərkəzinə, eləcə də Heydər Əliyev Beynəlxalq Aeroportuna, Şüvəlan, Mərdəkan, Buzovna, Bilgəh və digər qəsəbələrə rahat çıxışına imkan verir.

**İqtisadçı ekspert Fikrət Yusifov "Yeni Müsavat"a bildirib ki, bu yolun çəkilməsi eyni zamanda turizmin də inkişafı üçün faydalıdır:**

"Həmin istiqamətdə gediş-gəlişdə çox ciddi çətinliklər olurdu. İndi isə bu çətinliklər də aradan qaldırılmış oldu. Ümumiyyətlə, regionlarımızın sosial-iqtisadi inkişafı bəlli proqramlar çərçivəsində aparıldığı kimi yolların da çəkilişi, abadlaşdırılması, nəqliyyat vasitələrinin hərəkətinin asanlaşdırılması nəzərdə tutulub. İnsanların hərəkətlərinin asanlaşması, müəyyən müəssisələrin fəaliyyətini normal tənzimləmək baxımından da bu yolun çəkilməsi xüsusi əhəmiyyət kəsb edir. Layihə həmin bölgənin sosial-iqtisadi inkişafı üçün böyük işdir. Ümumiyyətlə, bölgələrimizin hər birində infrastruktur layihələrin icrası, paralel olaraq həmin ərazidə iqtisadi-inkişaf üçün də zəminin hazırlanması deməkdir. Yol, elektrik enerjisi, su, qaz təchizatı olmadan hər hansı bir bölgədə biznes qurmaq da çətindir. Saydığımız infrastruktur layihələrinin içərisində ən önəmli yerlərdən biri də məhz yola məxsusdur. Yaxşı yol olarsa, həmin ərazi hərtərəfli mənimsənilə bilir. Digər tərəfdən də orada yaşayan insanların rahatlığını təmin etmək də əsas şərtdir. Vaxt itkisinə qənaət etmək baxımından da layihəni uğurlu sayıram. Pirallahı Xəzər dənizinin birbaşa içərisinə çıxan bölgədir. Ona görə də turizm zonası kimi də çox baxımlı yerdir. Bu yaxınlarda ora səfər etmişdim və bu kimi potensialları gördüm. Müşahidə etdim ki, orada xeyli sayda yaşıllaşdırma, abadlıq işləri də görülüb. Yolun da yenilənməsinə böyük ehtiyac vardı ki, bu da baş verdi".

❑ Əli RAİS

## Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Novruz Həsənliyə anası Xədicə xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Bu gün İslamiadanın açılış mərasimidir - yollar bağlı olacaq

**Mayın 12-də IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimidir. Bununla əlaqədar "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi (NMM) fəaliyyət göstərməyəcək.**

BAKU 2017
4th Islamic Solidarity Games

Bakı Nəqliyyat Agentliyindən (BNA) APA-ya verilən məlumata görə, həmin gün səhər saat 06:00-dan Bakıətrafı kənd və qəsəbələrdən "Koroğlu" NMM-ə gələn marşrut xətti üzrə avtobusların hərəkət trayektoriyası müəyyən olunmuş istiqamətlər - metronun "Qara Qarayev", "Neftçilər" və "Həzi Aslanov" stansiyalarına doğru dəyişdiriləcək.

Belə ki, 54, 62, 107, 131, 172, 173 nömrəli marşrut xətti üzrə hərəkət edən avtobuslar Bakıxanov d/st-dan keçməklə "Neftçilər" metro stansiyasına, 139, 148, 163, 166, 184, 198, 204, 216, 214, 217 nömrəli marşrut xətti üzrə hərəkət edən avtobuslar Bakıxanov d/st-dan keçməklə "Qara Qarayev" metro stansiyasına, 101, 136, 150, 160, 171, 187 nömrəli marşrut xətti üzrə hərəkət edən avtobuslar isə Hava Limanı-Zığ beton yolundan keçməklə "Həzi Aslanov" metro stansiyasına yönləndiriləcək.

Dəyişikliyə əsasən, mayın 12-də 1 və 13 nömrəli marşrut xətti üzrə hərəkət edən avtobuslar saat 16:00-dan etibarən müvəqqəti olaraq fəaliyyətini dayandıracaq.

2 nömrəli marşrut xətti üzrə hərəkət edən avtobuslar saat 16:00-dan etibarən Avtovağzal Kompleksindən son dayanacağı S.Vurğun bağı olmaqla fəaliyyət göstərəcək.

4 nömrəli marşrut xətti üzrə fəaliyyət göstərən avtobuslar İ.Hidayətzadə küçəsindən «28 May» metro stansiyasına qədər hərəkət edəcək.

5 nömrəli marşrut xətti ilə hərəkətdə olan avtobuslar saat 16:00-dan etibarən «N.Nərimanov» - «28 May» metro stansiyasına qədər fəaliyyət göstərəcək.

21 nömrəli marşrut xətti saat 16:00-dan etibarən "Əhmədli" metro stansiyasından son dayanacağı "Xətai" metro stansiyasına qədər fəaliyyət göstərəcək.

32 nömrəli marşrut xətti E.Süleymanov küçəsindən "Xətai" metro stansiyasına qədər fəaliyyət göstərəcək.

46 nömrəli marşrut xətti başlanğıc dayanacağı İ.İsmayılov küçəsi (Günəşli) olmaqla, son dayanacağı "Xətai" metro stansiyasına qədər fəaliyyət göstərəcək.

88 nömrəli marşrut xətti başlanğıc dayanacağı 7-ci MKR olmaqla Hökumət evi - Z.Əliyeva - R.Behbudov küçələri istiqamətində fəaliyyət göstərəcək.

125 nömrəli marşrut xətti saat 16:00-dan etibarən Lökbatan NMM-dən Azneft dairəsinə qədər fəaliyyət göstərəcək.

H1 nömrəli marşrut xətti 28 May küçəsi - R.Behbudov - S.Rəhimov - Xətai pr. - Babək pr. - N.Rəfiyev - A.Cəlilov - Nobel pr. - Zığ beton yolu - Heydər Əliyev Hava Limanı, əks istiqamətdə isə Heydər Əliyev Hava Limanı - Zığ beton yolu - Nobel pr. - A.Cəlilov - K.Səfərəliyeva - 28 May küç. - "28 May" metro stansiyasına qədər fəaliyyət göstərəcək.

# Cahangir Hacıyevin səhhəti pisləşdi - danışa bilmir...

**Sabiq bankir Cahangir Hacıyev və onunla birlikdə həbs edilən şəxslərin barələrindəki hökmdən verdikləri apelyasiya şikayəti üzrə məhkəmə prosesi davam etdirilib.**

Hakim Əflatun Qasımovun sədrliyi ilə keçirilən prosesdə Beynəlxalq Bankın həbsdə olan keçmiş rəhbəri Cahangir Hacıyevin səhhətində problemlər yaranıb.

Sabiq bankir məhkəmədə bildirib ki, səhhəti prosesdə iştirak etməyə, danışmağa imkan vermir.

Cahangir Hacıyevin vəkili Fəxrəddin Mehdiyev Bakı Apelyasiya Məhkəməsinə məktub göndərərək, prosesin təxirə salınmasını istəyib.

F.Mehdiyev deyib ki, Cahangir Hacıyevin digər vəkili Aqil Layıcov mayın 10-da Kürdəxanıdakı 1 saylı Bakı İstintaq Təcridxanasına getsə də, hüquqlarını müdafiə etdiyi şəxslə görüşə bilməyib.

Vəkilə deyilib ki, Cahangir Hacıyevin səhhətində problem var, görüşə gələ bilmir. F.Mehdiyev bu üzdən məhkəmənin təxirə salınması üçün müraciət edib.

Amma məhkəmə prosesi keçirilib.




Prosesin davamında təqsirləndirilən şəxslərdən Beynəlxalq Bankın Nərimanov filialının rəhbəri olmuş, hazırda isə AFB Bankın İdarə Heyətinin üzvü olan Məmməd Cahangirovun vəkili çıxış edərək, ona bəraət verilməsini istəyib.

Beynəlxalq Bank və onun tabeliyindəki qurumların mühafizəsini həyata keçirən "İntersecurity" şirkətinin rəhbəri, 7 il azadlıqdan məhrum edilmiş İbrahim Hüseynovun vəkili də məhkəmədən hüquqlarını müdafiə etdiyi şəxsə bəraət verilməsini istəyib.

Vəkil deyib ki, İbrahim Hüseynovun Cahangir Hacıyev və digərləri ilə birlikdə mütəşəkkil dəstə yaratması haqda ittihamlar əsassızdır.

Cahangir Hacıyevin vəkilləri məhkəmənin təxirə salınması üçün məhkəməyə növbəti dəfə müraciət ediblər.

C.Hacıyev deyib ki, mayın 11-də ağlıq durumuna görə məhkəməyə gələ bilmirdi. Amma istintaq təcridxanasının rəis müavini onun məhkəməyə getməsini istəyib və bundan sonra o, məhkəməyə gətirilib.

Daha sonra hakim Cahangir Hacıyevin istəyini nəzərə alıb və məhkəmə mayın 18-nə qədər təxirə salınıb.

# Fəzail Ağamalı haradadır?

**AVP sözçüsü:** "Məsələni böyütməyə ehtiyac yoxdur"

**Akif Təfəkküloğlu:** "Əlaqə saxlaya bilmirik"

**Ana Vətən Partiyasının (AVP) sədri, deputat Fəzail Ağamalıdan uzun müddətdir xəbər yoxdur. Novruz bayramından sonra demək olar deputat mətbuata da çıxmır. Günlər öncə onun səhhətində problemlərin yaranması ilə bağlı xaricə aparıldığı deyilsə də, hələ ki bu xəbərlər öz təsdiqini tapmayıb. Partiya sədrinin Milli Məclisin iclaslarına qatılmadığı da deyilir.**

**AVP-nın mətbuat xidmətinin rəhbəri Tünzalə İsmayılova** "Yeni Müsavat"a açıqlamasında deputatın hazırda xaricdə olduğunu təsdiqlədi: "Fəzail müəllim hazırda xarici ölkələrin birində istirahət edir. Bəzi KİV-lərdə yazılan məlumat doğru deyil, Fəzail müəllimin səhhətində heç bir problem yoxdur. Hər bir Azərbaycan vətəndaşının istirahət etmək hüququ olduğu kimi, müəllim də bu hüququndan istifadə edir, məncə, bunu böyütməyə ehtiyac yoxdur. Və parlamentin iclaslarına qatılmamağına gəlincə isə bu, normal bir şeydir ki, parlamentin üzvü ezamiyyətlərdə olması ilə əlaqədar iclasda olmaya bilər. İstirahətdə də olub-olmaya və ya şəxsi işləri ilə əlaqədar iclaslara qatılmaya bilər, burda da bir problem görmürəm. Yaxın günlərdə Fəzail müəllim istirahətdən qayıdacaq".

**Deputat Fərəc Quliyev həmkarının sağlam olduğunu söylədi:** "Parlamentin iclaslarına qatıldığı zaman Fəzail bəy daim maraqlı çıxışlar edir. Onunla bağlı ciddi bir problemin olduğunu düşünmürəm. İstirahətdə, yaxud ölkədən kənarda ezamiyyətdə ola bilər. İndi məlumatım oldu ki, uzun müddətdir mətbuatdan gedib. Bununla maraqlanacam, şəxsi münasibətlərimiz buna imkan da verir. İndiki halda dəqiq məlumatım yoxdur. Novruz bayramından sonra parlamentin iclaslarına qatıldığı vaxtlar olub. Səhhəti ilə bağlı onu deyə bilərəm ki, Fəzail müəllim bağda işləyən çox sağlam kənd adamıdır, fiziki cəhətdən də çox yaxşıdır. Bundan sonra da ona bu cür sağlamlıq arzulayıram".

**Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təfəkküloğlu deputatın durumundan xəbərsiz olduqlarını qeyd etdi:** "Fəzail müəllim parlamentin son iclasında olmayıb. Əlaqəmiz yoxdur deyə, məlumatımız da yoxdur. Əlaqə qura da bilmirik".

Qeyd edək ki, deputatın özü ilə də əlaqə saxlamaq mümkün deyil, telefonları bağlıdır.

❑ Cavanşir ABBASLI

**Artıq ilin ilk 4 ayı geridə qaldı. Cari ilin ikinci rübünü də yarılamışıq. Son 4 ayda ölkənin makroiqtisadi göstəricilərində müəyyən qədər artım qeyd olunsa da, bu, arxayınlıq üçün əsas vermir. Çünki maliyyə sektorunda böhran davam edir. Bütün bunların qarşılığında hökumət bütün gücünü manatın 1.70 ətrafında sabitliyini qorumağa və qeyri-neft sektorundan gələn gəlirlərin artırılmasına yönəldib. Bəs görəsən, 2017-ci ilin geridə qoyduğumuz dövrünün iqtisadi göstəriciləri hansı istiqamətdə proqnozlaşdırmağa əsas verir? Böhran dərinləşəcək, yoxsa çözüləcək?**

# Ölkənin iqtisadi durumu: böhran çözülür, yoxsa dərinləşir?

## Pərviz Heydərov: "Neftin qiyməti 40 dollardan aşağı düşərsə, vəziyyət yenə köhnə qaydaya qayıdacaq"

**"Yeni Müsavat"ın bu suallarını cavablandıran iqtisadçı ekspert Pərviz Heydərov bildirdi ki, ölkədə yeni iqtisadi modelə transformasiya uzunmüddətli bir prosesdir:** "Bunun öz nəticəsini qısa müddət ərzində göstərəcəyini gözləmək düzgün deyil. Əlbəttə, söhbət ümumi nəticədən gedir. Ümumi nəticə isə məhz ondan ibarətdir ki, makroiqtisadi göstəricilərdə möhkəm dayanıqlıq əldə olunsun. Yəni xarici maliyyə və xammal bazarlarındakı hər hansı dəyişikliklər iqtisadiyyatımıza az təsir göstərsin. Təəssüf ki, hələ bundan uzaqdayıq. Ancaq məhz həmin hədəfə doğru addımlamaqdayıq. Sözsüz ki, müəyyən nəticələr də var. Belə ki, iqtisadiyyatda 2 ildir ardıcıl davam edən geriləmə prosesi dayanıb və artıq stabilləşmə müşahidə edilməkdədir. İki il deyəndə söhbət 2015-ci və 2016-cı illərdən gedir. Xatırladım ki, 2015-ci ildə birincisi 34%, ikincisi isə 47% olmaqla, iki dəfə devalvasiya baş verdi. Mərkəzi Bankın (AMB) rəsmi valyuta ehtiyatlarının həcmi 5 milyard ABŞ dollarına düşdü. Halbuki 1 il öncə, yəni 2014-cü ilin payızında bu məbləğ 15 milyard dollardan çox idi. Keçən il isə üstəlik, 1 milyard dollar da xərcləndi. Və AMB-nin ehtiyatı 4 milyarda qədər endi. 2016-cı ilin əvvəli də çox pis başlamışdı. Neftin dünya bazar qiymətlərinin 30 ABŞ dollarından aşağı düşməsi hökuməti əməlli-başlı təşvişə salmışdı. Belə ki, fevralda qeyd olunan ilin dövlət büdcəsinə yenidən baxıldı, neftin proqnoz qiyməti 25 dollara salındı".

**İqtisadçı böhranın bank sektoruna vurduğu zərbədən danışdı:** "Ölkədə 43 bankdan 11-i bağlandı. İnflyasiya səviyyəsi isə 2015-ci il ərzində 4% qeydə alınmışdısa, 2016-cı ildə 12,4% təşkil etdi. Ümumi daxili məhsul (ÜDM) istehsalı həcmi 2015-ci ilin yekununa güc-bəla ilə 1,1% təşkil edə bilmişdisə, keçən il 3%-dən də çox aşağı düşdü. İnvestisiyaların həcmi də həm daxili, həm də xarici mənbələr hesabına azaldı. 2014-cü ildən etibarən start götürən bu proses (1,7%), 2015-də 11,1%, keçən il isə 26%-dən yuxarı təşkil etdi. Və beləliklə də, ölkədə makroiqtisadi sabitlik qorunub saxlandısa da, kövrək hala düşdü. Ancaq hökumətin bütün bunlara rəğmən, keçən ilin əvvəlindən etibarən həyata keçirməyə başladığı bir sıra tədbirlər - iqtisadiyyatı idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bərabər, bütün istiqamətlər üzrə qənaətə keçməklə mövcud büdcə-vergi siyasətini dəyişdirməsi, ölkədə pul-kredit siyasətini daha da sərtləşdirməsi və sair nəticəsində, o cümlədən xarici iqtisadi faktorların da təsirlərinin ilin 2-ci yarısından yumşalmağa başlaması, xüsusən də neftin qiymətinin hasilatçı ölkələr tərəfindən istehsalın azaldılacağı haqda söhbət ortaya çıxan gündən sabitləşməsi 2017-ci ildə ölkədə iqtisadi artımın bərpa olunacağını qabaqcadan da proqnoz etməyə imkan verirdi".



**Ekspert 2017-ci ilin iqtisadi baxımdan uğurlu başladığını vurğuladı:** "Elə ilin elə ilk ayından bu özünü doğrultdu. Belə ki, 2017-ci ilin yanvar ayında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 5233,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 0,8 % çox ÜDM istehsalı qeydə alındı. 2017-ci ilin I rübündə ölkədə 15229,7 milyon manat və ya əhalinin hər nəfərinə 1570,0 manat dəyərində ümumi daxili məhsul istehsal edildi. Bu dövrdə iqtisadiyyatın qeyri-neft bölməsində istehsal olunmuş əlavə dəyər, əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,4 % artmış, neft-qaz bölməsində isə 6,8 % azalmışdı. Manatın dollara qarşı dəyərinə gəldikdə isə yanvarda 8,23% civarında ucuzlaşmağına baxmayaraq, valyuta bazarında "alov" tədricən yatmağa doğru meyllənməyə başladı. Yeri gəlmişkən, AMB-nin rəsmi valyuta ehtiyatlarının həcmi 2017-ci il fevralın 1-nə ilin əvvəli, yəni yanvarın 1-nə olan rəqəmlə müqayisədə 352,8 milyon dollar və ya 8,88% artdı ki, bunun da çox müsbət bir işartı olduğu və manatın ucuzlaşması prosesinin də nəhayət ki, dayanacağı aydın göründü".

**P.Heydərovun sözlərinə görə, AMB-nin valyuta ehtiyatları artmaqda davam edir:** "İlin əvvəlinə nisbətən AMB-nin valyuta ehtiyatlarının həcmi 644,9 milyon dollar və yaxud 16,2 %, son 1 ildə isə 498,7 milyon dollar və yaxud 12,1 % artmışdır. Bu baxımdan, güman etməyə əsas var ki, cari ilin I yarısının sonuna AMB-nin ehtiyatlarının həcmi 5 milyard dollarlıq səviyyəni ötüb keçəcək. Lakin bütün bunlara rəğmən, bir daha qeyd edirəm ki, makroiqtisadi göstəricilərdə möhkəm dayanıqlıq əldə olunması üçün hələ xeyli "yol getmək" lazımdır. Bunun üçün valyuta gəlirlərimizin neftdənkənar ixrac potensialımızdan asılı olması tələb olunur. Nə qədər ki, buna nail ola bilməmişik, neftin qiyməti 40 dollardan aşağı düşərsə, vəziyyət yenə köhnə qaydaya qayıdacaqdır"

❑ **Nərgiz LİFTİYEVA**

# "Leş ət" mafiyasına qarşı agentlik yaradılır

## İşbazlar 2018-ci ildən bazarda at-eşşək əti sata bilməyəcəklər; hökumət murdar ət satanları zərərsizləşdirməyin yolunu müəyyənləşdirib

**Bakı şəhərində antisanitar şəraitdə saxlanılan, yararlıq müddəti bitmiş kolbasa məmulatlarının müayinəsi başa çatıb. Respublika Baytarlıq Laboratoriyasında aparılan bakterioloji müayinələrin nəticəsinə əsasən götürülən nümunələrdə bakterioloji çirklənmə (BÇQB, salmonella aboreus, salmonella typhimurium) aşkar edilib. Adı əcaib-qəraib bu viruslar insan sağlamlığı üçün zərərlidir. Bakterioloji və biokimyəvi müayinələrin nəticəsinə əsasən yoxlanılan nümunələrin insan qidası üçün baytarlıq-sanitariya cəhətdən yararsız olması müəyyən edilib. Yayılan rəsmi xəbərdə "kolbasa məmulatları barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcəkdir" deyə qeyd olunur. Bəs həmin kolbasa məmulatlarını qarajında saxlayan, satan şəxsin barəsində kim tədbir görəcək?**



Xəbər verdiyimiz kimi, 5 may 2017-ci il tarixində alınmış məlumat əsasında Bakı Şəhər Baytarlıq İdarəsinin və Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarının iştirakı ilə qida təhlükəsizliyinin qorunması, insan həyat və sağlamlığına təhlükə törədən, mənşəyi məlum olmayan heyvandarlıq məhsullarının satışının qarşısını almaq məqsədilə Bakı şəhəri, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, H.Ağamalıyev küçəsi 1 ünvanında yerləşən Həsənov Fuad Alik oğluna məxsus kolbasa məhsullarının satışı anbarına baxış keçirilib. İlkin araşdırma zamanı qarajda "Payim" firmasının istehsal etdiyi yararlıq müddəti bitmiş, kiflənmiş və insan qidası üçün təhlükəli olan "Doktorskaya", bişmiş, yarım hisə verilmiş "Krakovskaya" və yarım hisə verilmiş "Xlbmaya" kolbasa məmulatlarının olması müəyyən edilib.

Respublika Baytarlıq Laboratoriyasının müvafiq ekspertizasının nəticəsinə görə, aşkarlanan kolbasalar insan səhhətinə ağır zərər yetirən, bakterioloji çirklənməyə məruz qalan viruslarla zəngindir.

Bundan əvvəl Xaçmaz rayonu Padar kəndi yaxınlığındakı meşə ərazisinə baxış keçirilib.

Baxış zamanı meşə ərazisində qeyri-qanuni, antisanitar şəraitdə, gizli şəkildə kəsilmiş, sümükdən ayrılmış, mənşəyinə və sağlamlığına dair heç bir sənədi olmayan 100 kq çəkisində sümükdən ayrılmış at əti və 1 ədəd kəsilmiş atın başı aşkar olunub. İlkin araşdırma nəticəsində həmin heyvanın Padar kənd sakini Məmmədov İsmayıl Müzəffər oğlu tərəfindən kəsilməsi, ətin sümükdən ayrılması və həmin at ətinin Bakı şəhərində satılması məqsədilə hazırlandığı müəyyən edilib. Respublika Baytarlıq Laboratoriyasında aparılan bakterioloji müayinələrin nəticəsinə əsasən həmin nümunələrin aqoniya vəziyyətində və ya öldükdən sonra - yəni leş atın əti olması müəyyən edilib.

Ət məhv edilib. İ.Məmmədov isə qarajında kiflənmiş, murdar kolbasa saxlayan Fuad Həsənov kimi cərimələnib sərbəst buraxılıb. Onların yenidən leş ət alverinə qayıdacaqları şübhə doğurmamalıdır. Çünki cərimə leş ət alverindən gələn gəlirin qarşısında çox cüzidir. 500 manat qazanan leş ət alverçisi 100-200 manatlıq cəriməni ödəyib yenidən düşür yaşadığı kəndin və ətrafdakı kəndlərin canına. Leş, əldən düşmüş at, eşşək axtarışına başlayır. Çünki belə ətlərə tələbat var. Xüsusilə kolbasa və sosiska istehsalçıları belə ətlərin böyük partiyalarda alıcılarıdır.

**"Azad İstehlakçılar Birliyi"nin (AİB) sədri Eyyub Hüseynov müvafiq dövlət orqanlarını bazarda belə ətlərin satıcıları ilə yanaşı, alıcılarının da müəyyən olnmasına çağırıb.**

**O deyib ki, dövlət qurumlarının əlində tələbkarları - yəni bazarı stimullaşdıranları müəyyən etmək çətin iş deyil.**

**Sitat:** "Ən azı müəyyən edə bilərlər ki, tələbkar kimdir. 6-7 ton at-eşşək, murdar, ölmüş heyvanın ətini satandan soruşa bilərlər ki, ay bala, bu qədər at-eşşəyin ətini hara, kimə aparırsan? Bunu niyə soruşmurlar? Soruşurlarsa, niyə tələbkarların cəzalandırılması haqda 1 dənə olsun belə məlumat yoxdur? Olsaydı, yəqin ki, bir gün Azərbaycanda "leş mafiyası" fəaliyyətini bu qədər şəbəkələşdirib genişləndirə bilməzdi. Atın-eşşəyin cəmdəyi azı 100 kiloqram olur. Bazarda ətin kiloqramı 10-12 manatdır. "Leş mafiyası" ətin kiloqramını 5 manatdan satır. Hər 100 kiloqram ət üçün 500 manat qazanc var. Belə ətin satışına görə cərimə dəfələrlə azdır. 50-100 manat cərimə ödəyib, yenidən qayıdırlar öz işlərinə. Tələbkarlar böyük biznes sahibləridir. Təsəvvür edin ki, Kənd Təsərrüfatı Nazirliyinin rəsmisi bugünlərdə çıxıb dedi ki, it, at, eşşək, ulaq əti də yeməlidir. Ancaq bunun üçün ətin adı deyilməlidir. Bu açıqlama ilə qətiyyən razı deyiləm. Belə açıqlama verən nazirliyin qarşısında it əti mağazası açmaq lazımdır. Bu adam erməninin əlinə bayraq verir ki, desinlər ki, azərbaycanlılar it əti yeyirlər. Bu, biabırçılıqdır. Azərbaycanda at-eşşək ferması yaradıb guya ətini xaricə göndərən adamlar da ifşa olunmalıdır. Bu məsələ birdəfəlik Azərbaycan gündəmindən çıxmalıdır. Azərbaycan vətəndaşlarının bədəninə at-eşşək, it ətinin harmonları yaddır. Bu ətlər insan bədəninə düşəndən sonra azad radikallar yaradır, bağırsaqlarda yuva salıb vətəndaşların sağlamlıqlarına xətər yetirəcək".

Qeyd edək ki, 2017-ci ilin fevralında prezident Qida Təhlükəsizliyi Agentliyinin yaradılması üçün fərman imzalayıb. 2018-ci ildə fəaliyyətə başlayacaq agentlik, adından da göründüyü kimi, qida təhlükəsizliyimizi təmin etməldir. Yəni dükan-bazara viruslu kolbasa-sosiska məmulatlarının daxil olmasının qarşısını almalı, leş ət satanları, at-eşşək ətini quzu əti adı ilə istehlakçılara sırıyanları zərərsizləşdirməlidir. 2018-ci ilə qədər isə vətəndaşların dana əti əvəzinə at-eşşək əti alıb yeməyəcəyinə təminat yoxdur. Bu səbəbdən kolbasa və sosiska məmulatlarından bacardıqca uzaq durun, dönərxanalara və yeməklərin keyfiyyətinə şübhə etdiyiniz ictimai iaşə obyektlərinə, restoranlara getməyin.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Xoşbəxt ölkənin nağılı

Aysel Əlizadə

**"Yaşaya bilmirik, əzab çəkirik vətəndə. Özümüzü elə bataqlığa salmışıq ki, çıxa da bilmirik. O zaman nə edirik? Qoyub qaçırıq. Bütün Azərbaycan Azərbaycanı qoyub qaçmağa hazırdı. Bilmirəm, bəlkə bir gün mən də qaçacam".**

Hər axşam bir nağıl danışıram qızıma.

Bildiyim nağıllar çoxdan tükənib.

Uzun zamandı özümdən uydururam: Yer üzündə çox xoşbəxt bir ölkə olur.

Bir nəfər düşür həmin ölkəyə. Hamının gülümsədiyini, rahatlığını, bir-biri ilə mehribanlığını görüb, heyrətə gəlir. Heç kimin problemi yoxdu. Bu ölkənin adamları uça da bilirlər. İstədikləri vaxt qollarını yelləyib göyə qalxırlar. Soruşur: Belə xoşbəxt ölkəni necə qurmusuz, sirr nədədi?

Adamlar deyirlər: Sirr -filan yoxdu. Bircə səbəb var. Biz var- gücümüzlə ölkəmizin xoşbəxt olmasını istəmişik. Bizim babalarımız, onların babaları, babaların babaları həmişə çalışıblar ki, bu ölkədə yaşayanlar xoşbəxt olsunlar. Biz bir-birimizlə dalaşmırıq. Bir-birimizi aldatmırıq, ən əsası, bir-birimizə kömək edirik. Öz gücümüzə o qədər inanırıq ki, uça bilirik. O ölkə bədbəxtdi ki, ordakı insanlar inamsızdılar və bir-birini incidirlər.

Qızım yuxuya getdi və mən danışdıqlarım haqda düşündüm...

Ölkəm, xoşbəxt ola bilməməyimiz, bir-birimizin həyatını cəhənnəmə döndərməyimiz, bir-birimizə əl ölçməyimiz, dedi-qodu, əlimizdən gələn köməyi belə etməməyimiz...

Əslində böyük mənada heç kim bizi pis vərdişlərə, cəhətlərə zorla sürükləməyib. Öz seçimimizdi. Yaltaqlıq da, yavşaqlıq da, davakarlıq da, sevgisizlik də özümüzlə bağlıdı. Biz nə ediriksə, bilərəkdən edirik. Biz aldatmağın pis olduğunu bilə-bilə aldadırıq. Yaltaqlığın pis olduğunu bilə-bilə yaltaqlanırıq. Özümüz dəyişməyincə, ölkəmiz də dəyişməyəcək. Bu ölkənin memarı bizik. Özümüzdən artığını yarada bilmərik.

Biz hələ də məişət intriqalarında batıb qalmışıq. Qaynana, baldız, quda çatışmalarından ayılıb "xoşbəxt ölkə" idealına köklənə bilmirik. Biz heç xoşbəxt ailə qura bilmirik, nə ölkəsi?..

İki gənc evlənirsə, toyacan artıq ailələrin intriqası başlayır.

Nə söhbətlər edirlər! Şadlıq evində yer davası, fikir ayrılıqları, nişan, cehiz söz-söhbətləri; insan həyatında heç bir rolu olmayan lazımsız xırdalıqlarla özlərini necə yorur insanlar. Qudalar bəri başdan bir-birinə xarakter göstərir. Elə bil övlad evləndirmirlər, güləşə hazırlaşırlar. Ya da duelə çıxacaqlar. Kim kimi yıxar, kim ilk atəşlə o birini öldürər yarışmasındadılar sanki. Toyqabağı həm oğlan, həm qız əsəbi olur. Ailə təsirinə düşürlər. Artıq hər kəs o birinin ailəsinə qarşı gizli qalxanla girir nikaha. Təcrübəsizdilərsə, bədbəxt olurlar. Qayınana bütün uğursuzluğunun heyfini gəlindən çıxır, qayınata qudayla gizli rəqabətə girir, qızın anası hər işə qarışır, atası arvadın fitnəsinə uyur.

Bütün bunlarla uğraşan bir ölkə təsəvvür edin. Bu ölkədə xoşbəxt olmaq mümkünmü? Biz bu xırda intriqaları özümüzlə işə, qonşuya, yola, bazara, mədəniyyətə, elmə, siyasətə daşıyırıq. İçimizdəki nifrin üzümüzə vurur. Ətrafa yayılır. Hər kəs öz qaranlığına yoluxdurur yanındakıları. Beləcə bir-birimizi ümidsiz, depressiv edirik. Biz yalnız umuruq. Özümüzdən nəsə pay verməklə istəmirik. Adicə təbəssümü belə çox görürük insanlara.

Sonuncu dəfə kimə gülümsəmisiz?

Sonuncu dəfə kimə kömək etmisiz?

Kimdən üzr istəmisiz? Kimə yol vermisiz? Kimi qeybət etdiyi vaxt dayandırmısız?

Sonuncu dəfə kimə haqqı olan xoş sözü demisiz?

Evimizin yanında bir kişi hər axşam əlində gül yol kənarında dayanır.

Heç kim maşınını saxlayıb ondan gül almır. Çox nadir. Bilmirəm o güllərin taleyi necə olur.

Bəzən yarım saat izləmişəm. Üzülmüşəm - bu gün evinə pul apara bilməyəcək; bəlkə uşaqları acdı...

Üzülmüşəm - o saatda işdən evə gedən kişilər qadınına, anasına, qızına, sevgilisinə, rəfiqəsinə gül alıb aparmır...

Kobuduq. Ruhumuz kobuddu. Bu kobudluqla bir-birimizin həyatını zəhərləyirik. Rüşvətxorluğu da, qanunsuzluğu da, ədalətsizliyi də edən bir azərbaycanlıdı. Hər kəs günahı özündə axtarsın. Yaşaya bilmirik, əzab çəkirik vətəndə. Özümüzü elə bataqlığa salmışıq ki, çıxa da bilmirik. O zaman nə edirik? Qoyub qaçırıq. Bütün Azərbaycan Azərbaycanı qoyub qaçmağa hazırdı. Bilmirəm, bəlkə bir gün mən də qaçacam. Bəlkə dözə bilməyib gedəcəm uzaqlara... Çünki təkəm. Sən də təksən. Biz xoşbəxt ölkəni yalnız bir yerdə qura bilərik.

O nağılda necə idi? Xoşbəxtliyin sirri-filanı yoxdu. Bircə səbəb var. Var-gücümüzlə xoşbəxt ölkə qurmaq istəmişik. Vəssalam.



# Neft bahalaşmasa, Azərbaycan iqtisadi böhrandan necə çıxacaq?

## İlham Şaban: "Hökumətin bütün proqramı, gələcək fəaliyyəti əlavə qazancların axtarılması üzərində qurulmalıdır"

**Dünya birjalarında neft bahalaşıb. Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,24 dollar və ya 0,51% artaraq 47,57 dollar təşkil edib. ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri isə 0,24 dollar və ya 0,48% artaraq 50,46 dollar olub.**

Ekspertlər hesab edir ki, Neftin bahalaşmasına ABŞ-da "qara qızıl" ehtiyatlarının azalması səbəb olub. Belə ki, ötən həftə ABŞ-da neft ehtiyatları 5,247 milyon barel azalaraq 522,525 milyon barel təşkil edib.

Lakin bu qiymət artımının davamlı olacağı haqqında proqnozlar o qədər də ürəkaçan deyil. Növbəti həftə vəziyyətin tam əksinə dəyişə bilməsi ehtimalı da var. Bəs görəsən, iqtisadiyyatı neftdən asılı olan Azərbaycan üçün bu nə deməkdir? Neft bahalaşmasa, ölkəmiz iqtisadi böhrandan çıxa biləcəkmi? Ötən illə müqayisədə neft gəlirlərimizdə artım varmı?

**Bütün bu sualları "Yeni Müsavat"a açıqlamasında Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban cavablandırdı.**

**Onun sözlərinə görə, neft 50 dollar ətrafında var-gəl edir:** "4 ayın nəticələrinə görə, dünya bazarında neftin qiyməti 53 dollardan bir qədər artıqdır. Bu da onunla əlaqədardır ki, hələ verilmir. Ona görə də neft gah 50 dollardan aşağı düşür, gah da müxtəlif səbəblərdən artıma gedir. Hamı mayın 25-də keçiriləcək OPEK-in toplantısını gözləyir. Vyanada keçiriləcək toplantıda hasilatın azaldılması, bazardan nə qədər neftin yığışdırılması ilə bağlı hansı qərarın qəbul ediləcəyi ilə bağlı konkret açıqlama yoxdur. Bu isə bazar iştirakçıları üçün bir şübhəli vəziyyət yaradır. Ona görə də hazırda bazara əsas təsir edən amil hər həftənin çərşənbə günü Amerikanın Enerji Administrasiyasının açıqladığı hesabatlardır. Dünəndən bu günə neftin qiyməti 3 faiz bahalaşıb. Bu sıçrayışlı artımın səbəbi isə Amerikadakı neft ehtiyatlarının 5 milyon barelə yaxın azalmasıdır. Halbuki gözləntilər bu rəqəmin 1,8 milyon barel olması idi. Bunun nəticəsində də neftin qiymətində bu cür sıçrayışla artım baş verdi. Ancaq bir həftə sonra biz bunun əksini müşahidə edə bilərik, neft ucuzlaşa bilər. Bundan heç kim sığortalanmayıb. Bu isə o deməkdir ki., neftin qiyməti bir anda 48 dollara da düşə bilər.



Yəni bazarda stabillik yoxdur, qiymətlər daim dəyişir".

**Belə olan şəraitdə bizim vəziyyətimiz necə olacaq?**

**İ.Şaban qeyd etdi ki, hazırda 4 ayın nəticələrinə görə, Dövlət Neft Fondunun gəlir mənbəyinin 90 faizindən çoxu "Azəri-Çıraq-Günəşli" yatağının hesabına formalaşır:** "Çünki ötən ilin may ayından "Şahdəniz 1"dən gələn gəlirlər "Şahdəniz 2" layihəsi üçün xərclənir. O baxımdan əsas güc "Azəri-Çıraq-Günəşli" layihəsinin üzərinə düşüb. Nəticədə 4 ay ərzində 2 milyard dollar vəsait qazanmışıq. Bu 4 ayın nəticəsini ötən ilin müvafiq dövrü ilə müqayisə etsək, biz 400 milyon dollar daha çox vəsait qazanmışıq. Bu yaxşı nəticədir. Hasilatın azalmasını neftin qiymətlərinin ötən ilin müvafiq dövrü ilə müqayisədə kəskin artması kompensasiya edib, hətta əlavə gəlir əldə etməyə şərait yaradıb. 4 ay ərzində neftdən 2 milyard dollar gəlir əldə etmişik. Riyazi hesablama aparsaq, ilin sonuna qədər 6 milyard dollar qazanmalıyıq. Təbii ki, bundan sonra AÇG-də də hasilatda azalma olacaq. Nəzərə almaq lazımdır ki, bu ilin birinci rübündə qiymətlər yüksək olub, orta qiymət 55 dollar olub. Növbəti dövrdə bu cür qiymətlərin olmasını heç kəs proqnoz etmir. Qiymətlərin aşağı düşməsini də nəzərə alsaq, ola bilər ki, bu layihə üzrə gəlirlərimiz 5,5 milyard dollara qədər azala bilər. Ən pis variantda isə ötənilki səviyyədə, yəni 5,1 -5,2 milyard dollar səviyyəsində qala bilər".

**Ekspertin sözlərinə görə, qarşıdakı bir neçə ildə AÇG-dən daxil olan illik gəlirlər 6 milyard dolları ötməyəcək:** "İkinci bir tərəfdən, Neft Fondunun idarəetməsindən biz ötən il 500 milyon dollara yaxın vəsait əldə etmişik. Bu il ondan da artıq miqdarda vəsait əldə edə bilərik. Bu il Neft Fondu təqribən 6 milyard dollara yaxın vəsait əldə edə bilər. Bu o deməkdir ki, hasilatımız azalsa da gəlirimiz azalmır. Bundan sonra isə neftin qiymətləri artsa belə, gəlirlərimiz artmır. Çünki hasilatımız azalır. Bizim hasilatımızın stabilləşməsi 2019-cu ildən sonra olacaq. Ona görə ki, "Şahdəniz 2"dən hasil edilən neft hesabına hasilatın azalmasının qarşısı alınacaq. O dövrə qədər hasilat nə qədər azalsa da, neftin qiymətinin artması onu kompensasiya edəcək. Bizdə gəlir 6 milyard ətrafında olacaq. Ancaq 2015-ci ildə neftdən 7,6 milyard dollar qazanmışdıq. 2014-cü ildə isə 16,2 milyard dollar olmuşdu. Söhbət ondan gedir ki, biz artıq əvvəlki gəlirlərimizi əldə edə bilməyəcəyik. Ona görə də hökumətin bütün proqramı, gələcək fəaliyyəti əlavə qazancların axtarılması üzərində qurulmalıdır. 2018-ci ildə ARDNŞ-in 3 zavodu birdən işə düşəcək. Ancaq bu zavodlardan 6-7 il ərzində gələn gəlir onların tikintisi üçün çəkilmiş xərclərin ödənməsinə yönələcək. O baxımdan, həmin zavodların real gəlirləri 2025-ci ildən sonra hiss olunacaq. Və ya bizim qaz layihələrimizin işə düşməsi... Onların gətirəcəyi gəlirlər də gələn onilliyin ortalarına təsadüf edəcək. Çünki əvvəlcə həmin layihələrin tikilməsi üçün çəkilən xərclər qaytarılmalıdır".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 100 (6714) 12 may 2017

# "Milli Təhlükəsizlik Konsepsiyamızda düzəlişlər edilməlidir"

**Hərbi ekspert:** "Rusiya bilməlidir ki, Azərbaycanın maraqlarına toxunan addımlar atılırsa, Azərbaycan oturub gözləməyəcək"

**Ötən həftəsonu Ermənistan-Rusiya birgə qoşun qruplaşmasının komandanı, general Andranik Makaryan özündənrazı şəkildə bəzi açıqlamalar verdi. Erməni generalın iddiasına görə, onun rəhbərlik etdiyi hərbi birləşmə Dağlıq Qarabağdakı əməliyyatlara da qoşula bilər və hətta bunu Putinin göstərişi olmadan belə həyata keçirmək iqtidarındadır. Bunun ardınca isə Rusiyanın Ermənistandakı səfiri bəyan etdi ki, Ermənistandakı 102-ci Rusiya hərbi bazası genişləndirilə bilər.**

Baş verənlər Azərbaycan ərazisində, əsasən də Naxçıvanda Türkiyənin hərbi bazasının yerləşdirilməsi məsələsini yenidən aktuallaşdırıb. Maraqlıdır ki, bu mövzuda tanınmış rusiyalı hərbi ekspert, Moskvadakı Siyasi və Hərbi Tədqiqatlar Mərkəzinin direktor müavini Aleksandr Xramçixin də danışarkən bildirib ki, Türkiyənin Naxçıvanda hərbi baza qurmaq planı ilə bağlı yayılan məlumatlar yəqin ki, ciddidir.

Belə bir bazanın yaradılması söhbəti çoxdan gedir. Türkiyə NATO üzvü olsa da ən azından Qars müqaviləsi ona belə bir haqq tanıyır. Həmin müqaviləyə görə qardaş dövlət Naxçıvanın Azərbaycanın tərkibində mövcudluğunun qarantlarından biridir.

Ekspertlər hesab edir ki, belə bir bazanın önəmi Azərbaycandan ötrü ən əvvəl ondan ibarətdir ki, Qarabağda müharibə variantında Ermənistan ordumuzun diqqətini Dağlıq Qarabağdan yayındırmaq, silahlı qüvvələrimizi iki cəbhəyə parçalamaq üçün Naxçıvana hücum etməyə cürətlənməz. Türkiyənin bazası çəkindirici rol oynayar. Ekspertlər onu da bildirir ki, Naxçıvanda Türkiyə hərbi bazasının yaradılmasını ən azından, Gümrüdəki Rusiya hərbi bazasının mövcudluğu və artırılacağı ehtimalı da zəruri edir.


Üzeyir Cəfərov

**Bu barədə danışan hərbi ekspert Üzeyir Cəfərov bildirdi ki, hazırkı ölkə qanunvericiliyinə, Hərbi Doktrinaya və Milli Təhlükəsizlik Konsepsiyasına əsasən, Azərbaycan ərazisində hər hansı başqa xarici dövlətin hərbi bazası, yaxud əsgəri qüvvəsi yerləşdirilə bilməz. Lakin artıq zaman və bölgədə, ətrafımızda gedən geosiyasi, hərbi proseslər, Ermənistan-Rusiya hərbi ittifaqının getdikcə təhlükəyə çevrilməsi Azərbaycanın da bir sıra zəruri addımlar atmasını diktə edir:** "Azərbaycanda qardaş Türkiyənin hərbi qüvvələrinin yerləşdirilməsi üçün Milli Təhlükəsizlik Konsepsiyamızdakı, Hərbi Doktrinadakı və digər qanunlarımızdakı qadağalara bəzi əlavələr və ya düzəlişlər edilməlidir. Ona görə də lazım olarsa Milli Məclis Azərbaycanın maraqları naminə müdafiə və təhlükəsizliyimizi gücləndirmək üçün Milli Təhlükəsizlik Konsepsiyasında müəyyən dəyişikliklər edilməlidir. Yəqin ki, ediləcək. Açıq-aşkar görünür ki, türk dünyasını istəməyən qüvvələr aktivləşiblər. Üzdə guya Türkiyəni və Azərbaycanı dəstəkləsələr də, əslində əməldə Azərbaycan və Türkiyə əleyhinə proseslər üzərində iş aparırlar. Rusiyanın Ermənistandakı səfirinin 102-ci hərbi bazanın genişləndirilə biləcəyi barədə açıqlaması bir çox planlardan xəbər verir. Biz Milli Təhlükəsizlik Konsepsiyamızda və Hərbi Doktrinamızda dəyişiklik etməyə məcburuq. Azərbaycanın özünə müttəfiq saydığı dövlətin hərbi qulluqçularını müvəqqəti əsaslarla öz ərazimizdə yerləşdirilməsinə razılıq verən bəndi həmin sənədlərə daxil edə bilərik. Hesab edirəm ki, hadisələrin inkişafı buna aparır. Mən Naxçıvana görə o qədər narahat deyiləm. Çünki Qars müqaviləsinə əsasən Türkiyənin Naxçıvanın təhlükəsizliyi üçün bir cavabdehlik hüququ var. Azərbaycanın digər ərazilərinin təhlükəsizliyinin də qarantiya altına alınması vacibdir".

**Azərbaycan qeyd olunan addımı atacağı halda Rusiyanın reaksiyasının necə olacağına gəlincə, hərbi ekspert vurğuladı ki, Azərbaycan müstəqil dövlətdir və Rusiyanın onun daxili işinə müdaxilə etməyə ixtiyarı yoxdur:** "İkincisi, Rusiya amili Azərbaycanda xeyli şişirdilir, Rusiya narazı qalacaq deyə biz öz təhlükəsizliyimizi gücləndirməməliyik?! Rusiya bilməlidir ki, Azərbaycanın maraqlarına toxunan addımlar atılırsa, Azərbaycan oturub gözləməyəcək, təhlükəsizliyini təmin etmək istiqamətində qanuni addımlar atacaq".

❑ **Etibar SEYİDAĞA**

# Məmur-sahibkarlar - karlı obyektlərin sahibləri



**Xalid KAZIMLI**

**Srağagün gecə saatlarında Bakı şəhərində "Niaqara" restoranının yandığı barədə xəbər yayılmışdı. Sonra məlum oldu ki, ciddi bir şey deyil, restoranın bir hissəsində yağ qalıqlarına od düşüb, tüstülənmə olub və yanğın şoddətlənmədən lokallaşdırılıb.**

"Niaqara"dakı yanğın xəbəri ilə yanaşı, "Ambassador" otelinin də yanması barədə xəbər yayıldı. Bu xəbər hardan və niyə çıxmışdı, bəlli olmadı.

Bir azdan otel və restoranı birləşdirən "dəyər"in adı da çəkildi: Yavər Camalov.

68 yaşlı Yavər Camalov Azərbaycan Respublikasının müdafiə sənayesi naziridir və 2006-cı ili martından, bu nazirlik təsis ediləndən həmin postda işləyir.

Ancaq onun adı yüksək mənsəbli dövlət vəzifəsi tutmaqla yanaşı, həm də xidmət və iaşə sektorunda fəaliyyət göstərən biznesmen kimi çəkilir.

Ola bilər, müəyyən istehsal sahələrində də ona məxsus müəssisələr var, sadəcə, otel-restoranlar göz önündə olduğuna görə o biri müəssisə və obyektlər çox da gözə görünmür.

Söz yox, bütün bu obyektlər, müəssisələr və biznes strukturlarının sənədləşməsində nazirin adı keçmir, hamısında ailə üzlərinin, qohum-əqrəbanın, sınanmış dostların adı yazılıb. Bu isə onları müəssisələrin sahibi etmir.

Hər kəs hansısa otelin, restoranın əsl sahibinin km olduunu bilir. Bunu bilmək elə də çətin deyil. Həmin otelə, restorana işiniz düşdüyündə oraya bələdiyi olan adamlardan "bu obyekt kimindir" deyə soruşsanız, sizə otelin və restoranın sənədləşməsində adı keçən şəxsin (məsələn, Məmməd Məmmədov) adını çəkməyəcəklər, deyirlər, bura Yavər Camalovundur. Özünüzü tanmazlığa qoysanız, əlavə izahat da verirlər: "Nazirdir".

Bəs bu informasiyalar dəqiqdirmi? Yüzdəyüz. Kim bilməsə də vergi, audit və sair orqanlar hansı obyektin hansı nazirə məxsus olduğunu çox gözəl bilirlər. Çünki həmin obyektlərlə bağlı hər hansı bir problem olanda xəbərdarlıq zəngi məhz nazirdən, yaxud onun adından danışan yaxın adamlardan gəlir: "Orayla işiniz olmasın, bizim obyektdir".

Beləliklə, əsl sahib haqqında söz-söhbətlər daha böyük arealda yayılır və hər kəsin dilinə düşür.

Əslində, nazirlər, rəislər, prokurorlar, digər yüksək vəzifə adamları bu cür məlumatları ciddi-cəhdlə gizlətmirlər də. Çünki buna ehtiyac yoxdur.

Bu ölkədə hər hansı bir bahalı obyektin, real dəyəri milyonlarla ölçülən otel, şadlıq sarayı, supermarket kimi biznes strukturlarının hansısa yüksək vəzifəli şəxsə məxsus olması qəbahət sayılmır, əksinə, norma sayılır.

Bu üzdəndir ki, ali və orta ranqa daxil olan möhürlü məmurların çoxunun (kiçik istisnalar ola bilər) biznes şəbəkələri var.

Burada təkcə ad çəksək, yazıda yer qalmaz, yalnız nazirlərin obyektlərini saysaq, qəzetin 10 səhifəsi yetməz. Məsələn, 10 il öncə bir qalmaqallı məhkəmədə dövlət ittihamçısı bir nazirin və qardaşlarının sərəncamında olan obyektlərin adlarını sadalamışdı, qəzetlərin iki qoşa səhifəsi dolmuş, ardı üçüncü səhifədə verilmişdi.

Qanunvericiliyə görə, dövlət qulluqçuları biznes fəaliyyəti ilə məşğul ola bilməzlər və ilk baxışdan, sənədlərə görə, onlar bununla məşğul deyillər. Fəqət onlar həm də gerçək sahibkarlar və dövlət vəzifəsi ilə yanaşı, biznes şəbəkəsini real sahibi postunu paralel tuturlar.

Bu cür ikili status onların biznesinin çiçəklənməsinə rəvac verir, onlar dövlət vəzifəsinin verdiyi üstünlüklərdən istifadə edərək öz bizneslərini genişləndirə bilirlər. Eləri var ki, dövlətin sifarişləri üzrə elan edilmiş tenderi formal şəkildə udur, iki ayın içində əlavə milyonlar qazanırlar.

Bəs bu qədər bahalı, dəyərli biznes strukturlarının ilkin kapitalının qaynağı nədir? Təbii ki, rüşvətxorluq və korrupsiya ilə toplanmış pullardır. Sonradan isə o pulların yatırıldığı müəssisələrin gətirdiyi gəlirlər artıq o milyonların leqallaşması, "yuyulması" ilə nəticələnir.

Bu baxımdan hansısa otel, restoran, alış-veriş mərkəzində yanğın, qəza olanda dərhal onun əsl sahibinin adının çəkilməsi və hallandırılması anlaşılandır və bu heç kəsi təəccübləndirmir.

Hətta sabah-birigün həmin obyektlər artıq vəzifədən qovulmuş nazirin (rəisin, prokurorun) əlindən alınanda da hər kəs mediada çıxan "... əl dəyişdirdi" xəbərini anlayışla qarşılayır. Hər kəs bilir ki, artıq filan nazirin qara çuxası yatıb, demək, biznes şəbəkəsi də pay-püşt ediləcək.

39-42-ci paralellərdə yerləşən ölkəmizdə durum budur, hörmətli oxucular.

# Mossadı Azərbaycana bağlayan nədir?

## Dünyanın ən güclü kəşfiyyat orqanlarının ilk "beşliyinə" daxil olan təşkilat ölkəmizdə fəaliyyət göstərib, amma...

**Azərbaycanda bir qrup şəxsin vətənə xəyanətdə ittiham olunaraq həbs olunması bəzi şayiələrin gündəmə gəlməsinə səbəb olub. Yayılan şayiələrdən biri də sözügedən əməliyyatın keçirilməsində İsrailin kəşfiyyat xidməti Mossadın iştirak etməsi ilə bağlıdır. Hətta şayiələr o qədər geniş yayıldı ki, sonunda Müdafiə Nazirliyi məsələyə münasibət bildirdi. Nazirliyin mətbuat xidmətinin yaydığı rəsmi açıqlamada əməliyyatda heç bir xarici kəşfiyyat orqanının iştirak etmədiyi bildirildi.**

**Sitat:** "Düşmənlə məxfi əməkdaşlığa cəlb olunmuş bir qrup hərbi qulluqçu və mülki şəxslərin aşkar edilməsi və ifşa olunması Müdafiə Nazirliyinin müvafiq qurumları tərəfindən edilib. Toplanılan materiallar müvafiq qaydada Respublika Baş Prokurorluğuna təqdim olunub".

Məsələ ondadır ki, bu, Azərbaycanda Mossadın fəaliyyəti ilə bağlı ilk iddia deyil. Daha əvvəl də fərqli mənbələrdən dünyanın ən güclü kəşfiyyat orqanlarının Azərbaycanda fəaliyyəti ilə bağlı beynəlxalq mediada yazılar dərc olunub. İlk dəfə 2000-ci illərin sonlarında Amerika mediasında Mossadın Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq etməsi ilə bağlı yazılar dərc olunub. Bir neçə il əvvəl isə Azərbaycan Milli Məclisinin yəhudi əsilli deputatı Yevda Abramov bu faktı təsdiqləyən açıqlama vermişdi. Abramov bildirmişdi ki, İsrail bu gün mütəfiq və dost olduğu ölkələrə özünün təhlükəsizlik xidmətlərini təklif edir. Onun sözlərinə görə, bu gün Mossad Azərbaycanın xüsusi xidmət orqanları ilə çox yüksək səviyyədə əməkdaşlıq edir. **Sitat:** "2012-ci ildə Bakıda "Eurovision" mahnı yarışması keçirilən zaman "Baku Kristal Hall"a yaxın yerdə, Xəzərdə suyun altında Mossadın akvalanqçı əməkdaşları İrandan Azərbaycana gələn terrorçuları tutdu. Avropa Oyunlarında da Bakının təhlükəsizliyini, oyun keçirilən əsas strateji obyektləri, məntəqələri Mossad qorudu".




Bundan başqa, keçmiş Mossad agentinin Bakıda keçirdiyi əməliyyatlarla bağlı xatirələri də bir müddət əvvəl mediada yayılmışdı. Azərbaycan və İsrail arasında dostluq əlaqələrinin olması, ölkəmizin yerləşdiyi coğrafi ərazinin strateji əhəmiyyəti dünyanın digər ölkələri kimi İsrailin də diqqətini çəkir.

Qeyd edək ki, dünyanın ən öndə gələn kəşfiyyat qurumlarından biri də İsrailin Mossad kəşfiyyat xidmətidir. Yeri gəlmişkən, İsrailin hərbi kəşfiyyat xidməti (AMAN) və Şin Bet (Şabak adı ilə də tanınır) daxili təhlükəsizlik xidməti də mövcuddur.

Kəşfiyyat və Xüsusi Əməliyyatlar İnstitutu və ya qısa adla Mossad (Mossad sözü ibrani dilində institut mənasını verir - K.R) 1949-cu il dekabrın 13-də yaradılıb. Mərkəzi ofisi paytaxt Təl-Əvivdə yerləşir. Rəsmi olaraq 1200 nəfər əməkdaşının olduğu elan edilsə də, sahə mütəxəssislərinin rəyinə görə, "sleeper" (yatmış) agentləri ilə birlikdə Mossadın 30 minə yaxın əməkdaşı var.

Mossad mülki qurumdur, baxmayaraq ki, əməkdaşlarının böyük əksəriyyəti hərbi xidmətdə olmuş şəxslərdir. Təşkilatın əsas fəaliyyəti kəşfiyyat məlumatlarının toplanması, İsrailə qarşı gizli planların ifşa olunması və nəhayət, xaricdə əməliyyatların keçirilməsidir. Mossad dünyada məhz xarici ölkələrdə keçirdiyi əməliyyatları ilə məşhurdur. 1972-ci il Münhen Olimpiadası zamanı İsrail idmançılarına qarşı terror həyata keçirən FAT üzvlərinin xarici ölkələrdə məhv edilməsi, 2010-cu ildə Dubayda Həmasın hərbi qanadının liderlərindən olan Mahmud əl-Məbhuhun oteldəki nömrəsində qətlə yetirilməsi Mossad agentləri tərəfindən həyata keçirilib.

Azərbaycan İsraillə yaxından əməkdaşlıq edən, tərəfdaş ölkələrdən biridir. Bu mənada Azərbaycanın digər dövlət orqanları kimi kəşfiyyat xidmətlərinin qurulması, müasir kəşfiyyat fəaliyyətləri sahəsində təcrübə əldə etməsi üçün Mossaddan yardım alması mümkündür. Bunu bu günə qədər yayılan məlumatlar da təsdiqləyir.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 100 (6714) 12 may 2017

# Müxalifət iqtidarın vurduğu adamlara niyə qucaq açır...

## Bəxtiyar Sadıqov: "Bu yolla qazanc əldə edirlər"



Bəxtiyar Sadıqov

**Ölkə müxalifətinin vaxtilə iqtidarda təmsil olunmuş, sonradan vəzifəsini itirmiş, həbs edilmiş iri ranqlı məmurlara "qarmaq atdığının" zaman-zaman şahidi olmaqdayıq. Xüsusilə bu hal son 10 ildə daha da güclənib.**

2005-ci ilin məlum proseslərində həbs edilən o zamankı nazirlər Əli İnsanov, Fərhad Əliyev və digər məmurların hər birini öz tərəflərinə çəkmək üçün siyasi partiyaların bir-biri ilə mübarizə apardıqları da müşahidə olunmuşdu.

Son günlərdə isə bu məsələ yenidən gündəmə gəlib; bu dəfə Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin nümunəsində bunun şahidi olmaqdayıq. Demokratik düşərgənin sabiq bankiri öz tərəfinə çəkməyin yollarını necə aradığını açıq şəkildə görürük. Hətta siyasi partiya funksionerləri, üzvləri səviyyəsində onun sosial şəbəkələr və mətbuatda müdafiə edildiyinin, bununla sabiq bankirə ötürülən mesajların şahidi oluruq.

Müxalifətin "iri ranqlı sabiq dövlət məmurları sevgisi" nədən qaynaqlanır?

Bununla bağlı bəzi fikirlər var. Əsas düşüncə odur ki, bu şəxslər vəzifədən getsələr də, həbs olunsalar da, zəngin maliyyə mənbələrinə sahibdirlər. Çoxları düşünür ki, bu imkanlardan yararlanmaq üçün müxalifət bu cür siyasət aparır, yəni hakimiyyətdə olanda tənqid etdiklərinə onlar vəzifələrini itirəndən sonra qucaq açırlar.

**"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov bu barədə kifayət qədər sərt danışdı:** "Azərbaycan demokratik cəmiyyətdir və belə cəmiyyətdə müxalifətin olması normaldır. Sərbəst şəkildə fəaliyyət göstərən siyasi partiyalar çoxdur. Cənab İlham Əliyevin prezidentliyi dövründə konstruktiv müxalifətin yaranması prosesi başladı. Əslində müxalifət belə olmalıdır. İqtidara qarşı müxalif olmalıdırlar, dövlətə qarşı yox. Bir qrup müxalifət var ki, onlardan bəziləri Milli Məclisdə də təmsil olunur. Onlar çox dəyərli təkliflər verir, nöqsanları tənqid edirlər. Nəyi, necə görmək istəyirlərsə, müstəqil şəkildə bunu deyirlər. Amma təəssüf ki, ölkəmizdə dağıdıcı, radikal müxalifət də var, 90-cı illərdən siyasətə gəliblər. Vaxtilə bu müxalifətin silahlandığının belə şahidi olmuşuq. Keçən illər ərzində ölkə iqtidarı xalqın rəğbətini kifayət qədər qazanıb. Müxalifətin sosial bazası darmadağın olub. Onlar düzgün yolla getmirlər, nəticədə xalq da onlardan uzaq durur. Onları müdafiə edən bəzi QHT-lər, "beşinci kalon"un üzvləri var. Beynəlxalq qurumların tapşırıqlarını icra edirlər. Siyasi məhbus məsələsini alver predmeti edib, bundan beynəlxalq aləmdə ölkəmizin əleyhinə istifadə edirlər. Siyahıları Azərbaycan əleyhinə olan qurumlara göndərirlər, bunun əvəzində yüksək qrantlar alırlar. Özlərinə yaxşı gəlir yeri düzəldiblər. Artıq mətbuata sızıb ki, o siyahılar boşuna təşkil olunmur. O insanlar həbs olunana qədər iqtidarda yüksək mövqelər tutublar, məmur olublar, sonradan onlar korrupsiyaya qurşanıblar, vəzifələrindən sui-istifadə ediblər. Mətbuatda gedən yazılardan məhkəmə barədə geniş məlumat əldə edirik. Həmin şəxslərin yaxınları, ailələri ilə əlaqələr qurulur və öz məqsədləri naminə o şəxslərin adını siyahılara salırlar. Həm qrant alırlar, həm də bu yolla qazanc əldə edirlər. Çox çirkinliklər görürük. Ölkəmiz əleyhinə fəaliyyətləri sübut olunan çox hüquq müdafiəçiləri görmüşük. Doğru qrant alsaydılar, onu heç zaman gizlətməzdilər. Vaxtilə bunlar Fərhad Əliyev nazir olanda onu çox tənqid edirdilər, Əli İnsanovu da həmçinin. Cahangir Hacıyevi də az tənqid etməyiblər. Elə ki, bu insanlar həbs olunur, o saat münasibət müxalifət daxilində onlara qarşı dəyişir. Siyahılarında bu şəxslərin adlarını görməyə başlayırıq".

**İqtidar deputatı sabiq dövlət məmurlarının adlarının siyahılara necə salındığı barədə bunları dedi:** "Onların adlarını siyahılarına daxil etmələrinə isə müxtəlif don geyindirirlər. Məhkəmə vaxtı onların hüquqlarının pozulduğunu, prosesin düzgün aparılmadığını deyirlər. Ən müxtəlif cildə girirlər. İndi elə zamandır ki, hər kəs hər şeyi görür. Bu cür bizneslər ancaq ikrah doğurur. Bir vaxtlar "söydüyün", fəaliyyətindən böyük narazılıq etdiyin insanları mələk cildində təqdim edirsənsə, bu, sizlərin mənəvi keyfiyyətlərə sahib olmadığınızın göstəricisidir. Ona görə də bu cür siyahıların hörməti olmur, bu siyahılara qol çəkənlər də dəyərsiz olurlar. Bu, düzgün yol deyil. Ölkəmizdə hər kəs bilir ki, kim kimdir. Belə şəxsləri bəzi qurumlar siyahılarına daxil edəndə qarşılarına kifayət qədər sübutedici sənədlər qoyulur və onlar ağızlarından vurulurlar. Ona görə bəri başdan bu yolu tutmağa ehtiyac yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Nazirin "odlu çıxışından" restoranına necə od "düşdü"...

## Yavər Camalovun ölkəmizin silah ixracatçısına çevrildiyini bəyan etməsindən 2 saat sonra Bakıdakı obyektində yanğın olması təsadüfdür, yoxsa?

**"Müdafiə Sənayesi Nazirliyi (MSN) "Yalquzaq" snayper tüfənginin ixracına başlayıb" xəbərinin ardından mayın 10-da nazir Yavər Camalovun mediada geniş müsahibəsi yayıldı. Y.Camalov müsahibəsində ölkəmizin getdikcə silah idxalatçısından silah ixracatçısına çevrildiyini bəyan etmişdi.**

Nazirin odlu-alovlu bəyanatından 2 saat sonra Bakının tanınan və Camalovlara, konkret olaraq nazir Yavər Camalovun biznes şəbəkəsinə daxil olan "Niaqara" restoranında yanğın oldu. Restoranın həyətindəki yanğın 1 saatdan sonra söndürüldü.

Qeyd edək ki, Y.Camalovun başçılıq etdiyi nümayəndə heyəti Türkiyənin İstanbul şəhərində keçirilən "İDEF-2017" XIII Beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edib. 4 gün davam edən sərgidə MSN-in müəssisələrində yaradılan və istehsal olunan 260 adda müdafiə təyinatlı silah və digər hərbi sənaye məhsulları nümayiş olunub. Sərgidə dünyanın 50 ölkəsindən 300-dək şirkət iştirak edib.

Səfər çərçivəsində Yavər Camalovun Türkiyənin dövlət və hökumət nümayəndələri, sərgiyə qatılan bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşləri də olub.

...Bakıda restoranlar tez-tez yanmır. Heç bahalı restoranların ətraflarında da yanğın olmur. "Niaqara" və digər iri və dəbdəbəli restoranların əksəriyyəti məmurlarındır. Onları idarə edən şəxslər belə "çp"lərdən yan keçməyin yollarını yaxşı bilirlər.



Nə baş verir? Yavər Camalovun açıqlamaları ilə onun restoranının yanması arasında əlaqə ola bilərmi? Məsələn, iddia etmək olarmı ki, nazirin "Azərbaycanın NATO kalibrində (7.62x51mm) ilk silahı olan "Yalquzaq" tam olaraq yerli mütəxəssislər tərəfindən yaradılıb" açıqlaması dünyaya silah satan, özünün standartları ilə dünyada tanınan qonşu dövlətlərin qıcığına səbəb ola bilər. Daha bir versiya üzərində də fikirləşməyə dəyər. Məsələn, Azərbaycanın silah istehsalı sahəsində İsrail silah düzəldən şirkətləri ilə əməkdaşlıq etməsi sirr deyil. Bu kimi məsələlər Y.Camalovun müdafiə sənayesi rəhbəri olaraq hədəfə gəlməsinə səbəb ola bilər.

Belə bir güman yaranır ki, sanki kimlərsə hörmətli nazirin qəsdinə durub. Onun rəhbərlik etdiyi nazirliyin müəssisəsində partlayışı yada salaq. 2015-in 7 iyulunda MSN-ə məxsus olan "Telemexanika" zavodunda partlayış və yanğın baş verdi, ölən və yaralananlar oldu. Üstündən 11 ay keçəndən sonra 2016-cı ilin iyun ayında Şirvanda yerləşən "Araz" zavodunda da partlayış oldu. İndi isə Bakı şəhərində nazirin restoranında yanğın baş verib. Silah istehsal edən böyük bir kompleksin başında dayanan nazirin tez-tez partlayış və yanğınlarla gündəmə gəlməsi təsadüfdürmü? Suallar çox, cavab isə hələ ki yox...

❑ **E.MƏMMƏDƏLİYEV**

# Fərhad Əliyev müxalifətə keçsəydi...

## Əli Əliyev: "Kapitalla ölkəyə qayıdışı ciddi siqnaldır"
## Sərdar Cəlaloğlu: "Müxalifətçilik edib, xalqı düşünəcəyinə ümid etmək sadəlövhlükdür"

**Günlər öncə ölkəyə qayıtdığı barədə xəbərlər yayılan sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev ətrafında müzakirələr səngimək bilmir. Sabiq nazirin müxalifətlə yenidən təmasa keçib-keçməyəcəyi ilə bağlı fikirlər gündəmdə özünə yer tutub. Siyasi şərhçilərə görə, F.Əliyev müxalifətlə yaxınlaşarsa, iqtidara ciddi problem yarada bilər.**

Düzdür, onun yenidən bu qədər siyasi risk alacağı inandırıcı görünmür. Çünki keçmiş komandası tərəfindən "bağışlanan" sabiq dövlət məmuruna biznes qurmaq üçün şərait yaradılıb. Belə bir şəraitdə ciddi böhran yaşayan ölkə müxalifətinə Əliyevin yaxınlaşma ehtimalı sıfıra bərabər görünür.

Yada salaq ki, vaxtilə F.Əliyevin Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Cəmil Həsənli olub. İndinin özündə də sabiq nazirin hələ Milli Şura rəhbəri ilə əlaqələrinin qaldığı deyilir...

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev sabiq nazirin müxalifətlə təmaslarını mümkün sayır:** "Fərhad Əliyevin Azərbaycanın iqtisadi mühitinə dönüşü sıradan olan hadisə deyil. Məhz indiki iqtidarın idarəçiliyinə asilik etmiş birisi, mülkiyyətinin əsas hissəsi əlindən alınmış cavan və ambisioz şəxsdir. Eyni zamanda Əliyev qardaşları aldıqları zərbədə günahkar bildikləri, bu illər ərzində xeyli möhkəmlənmiş fövqəlgücə malik siyasi isteblişmentin nümayəndələri ilə də gərgin keçmiş və indinin içindədirlər. İnanmıram ki, bu şəxslər siyasi xacədirlər. Onlar kapitalın siyasi hakimiyyətlə hansı sürətlə toplanma yolunu unuda bilməz, dadında isə yadırğamaları mümkünsüzdür. Bu baxımdan, onların kapitalla ölkəyə qayıdışı ciddi siqnaldır. Ola da bilər ki, prezident Əliyev onlara icazəni də elə hakimiyyətdaxili qruplara mesaj ötürmək üçün verib. Oliqarxların şəffaf siyasi fəaliyyətə transferinə gəldikdə isə bu hadisə bizim kimi ölkələrdə normal praktikadır. Fikrimcə, 2005-ci ildə bunun üçün beynəlxalq zəmin də mövcud idi. Yeri gəlmişkən, həmin ildə Fərhad Əliyevin ABŞ səfirinin evində qəbul zamanı xanım Olbraytın və Ağ Evin seçki emissarı Dobryanskaya ilə münasibətlərinin hərarətinin canlı şahidi olmuşam. Əlbəttə ki, həmin dövrdə, yəni 2005-ci ilin yayında həm Fərhad Əliyev, həm də Əli İnsanov istefa verib, müxalifətə keçdiklərini rəsmən bəyan edib, siyasi müqavimətə başlasa idilər, proseslərin fərqli yön alacağını düşünmək olardı. O



Fərhad Əliyev

dövrdə gözlənilməzlik amili rol oynaya bilərdi. Məsələlərin ölgün və iradəsiz gedişatında Moskvanın qətiyyətli Ruşaylo əməliyyatının və bugünkü reallığın şahidi olduq. Qəti qərarlar siyasi uğurun rəhnidir. Təəssüf ki, o günlərdə 2 nazir bunu etmədi. Gələcəkdə də siyasi dəyişikliyin yollarından biri, bəlkə də birincisi Azərbaycan oliqarxiyasının proseslərə fəal qatılmasından keçir. Müxalifətin bu taktikasında qeyri-adi nə isə axtarmaq yanlışdır. Oliqarxiyanın da belə qərarı olacaqsa, bu, kapitalın "yuyulmasının" ən düzgün yoludur. Əgər yaxın gələcəkdə, yaxud nə vaxtsa, belə transferlər olacaqsa, bunu yalnız alqışlamaq olar. Belə ittifaq, yeni müxalifət və oliqarxiya tandemi ölkəni xilas etmək gücündədir. Etiraf edim ki, vəziyyətdən çıxmağın fərqli yolları da var".

**ADP sədri Sərdar Cəlaloğlu F.Əliyevin müxalifətə gəlişinin mümkünsüz olduğunu düşünür:** "Onu mən heç vaxt müdafiə etməmişəm. Sadəcə, hüquqlarını müdafiə etmişik. Onun kimi şəxslərin xalqa və dövlətə xeyir verəcəyinə heç zaman inanmamışam. Çünki bu tipli şəxslərin əldə etdikləri yüksək gəlirlər öz qabiliyyətlərinin nəticəsində olmayıb. Bundan əvvəlki Fərhad Əliyev və ailəsinin hansı vəziyyətdə olduğunu hamımız bilirik. Əgər indiki iqtidar onu bu vəzifəyə gətirməsəydi, nəinki biznes, kəndlərində belə 2 hektarlıq ərazi əkib-becərmək qabiliyyətinə malik deyildi. Onun qabiliyyəti hakimiyyətdə təmsil olunması ilə bağlıdır. Sonradan yüksək gəlir əldə etdi və bu da onda hakimiyyət hərisliyi yaratdı. Bunu hakimiyyətə gətirən şəxslərin onun nökəri olmalarını daha çox istədi. Nəticədə məlum həbs baş verdi. Onun xalqa vurduğu zərbə hamıya məlumdur. Həbsdən çıxandan sonra onu müdafiə edənlərlə əlaqə qurmaması, hakimiyyət barədə bir fikir belə bildirməməsi onu göstərir ki, belə şəxslər xalqa xeyir verə bilməzlər. İndi hökumət qarşısında yanlışlığını görür və çalışır ki, itirdiklərinin bir hissəsini geri qaytarsın. Xalqı düşünən olsaydı, nazir olmaq təklifini qəbul etməzdi. 1993-cü ildə bizə belə təkliflər oldu və imtina etdik. Çünki bu iqtidarla xalqa xidmət etməyin mümkünsüz olduğunu gördük. Ona görə də vaxtilə hakimiyyətdə yüksək post tutmuş şəxslərin sonradan müxalifətçilik edib, xalqı düşünəcəyinə ümid etmək sadəlövhlükdən başqa bir şey deyil".

❑ **Cavanşir ABBASLI**

**Qondarma "Dağlıq Qarabağ Respublikası"nın "paytaxtı"nı Şuşaya köçürmək niyyətindədirlər. Rusiyanın erməniyönümlü saytları bildirib ki, Dağlıq Qarabağın separatçı hakimiyyəti "DQR" parlamentinin Şuşaya köçürülməsi layihəsini müzakirə edib. Bildirilir ki, son nəticədə Xankəndi ilə birləşmə yolu ilə "DQR"in "paytaxtı" Şuşaya köçürülə bilər.**



# Ermənilərin Şuşanı "paytaxt" etmək niyyətinə Bakıdan sərt reaksiyalar

## "Dərhal həmsədrlər Bakıya çağırılmalı və onlar..."

Bu məsələ Azərbaycan ictimaiyyətində geniş müzakirəyə səbəb olub. **Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov** virtualaz.org saytına bildirib ki, Şuşa şəhərinin statusunun istənilən dəyişikliyi Azərbaycan Konstitusiyasının və beynəlxalq hüququn birbaşa pozulmasıdır. Azərbaycan bu qanunsuzluğu tamamilə dayandırmaq hüququna malikdir: "İnzibati ərazi bölgüsünün və Azərbaycanda şəhərlərin statusunun hər hansı dəyişikliyi yalnız prezident İlham Əliyevin səlahiyyətinə daxildir. Ona görə də qoy ermənilər təxribatla məşğul olmağı qurtarsınlar və vəziyyəti daha da ağırlaşdırmasınlar".

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan deputat Fərəc Quliyev bildirib ki, artıq fərqli qərarlar verməyin zamanıdır:** "Ermənilərin hansı davranışlarından asılı olmayaraq, biz artıq fərqli və qəti qərarlar qəbul etməliyik. Beynəlxalq təşkilatlara kifayət qədər imkan verildi ki, dinc yolla məsələni həll etsinlər. BMT də özünün 4 qətnaməsini həyata keçirmək üçün nizamnaməsinin 7-ci bəndinin 45-47-ci paraqraflarına əməl etmədi. Bundan başqa isə 2016-cı ilin aprel savaşından sonra da beynəlxalq güclər məsələni həll etmək üçün vaxt istədilər, ancaq bu da nəticəsiz qaldı. Həmçinin Azərbaycan Xarici İşlər Nazirliyi də rəsmən bəyan edir ki, ermənilər danışıqlardan qaçırlar. Bütün bu kimi faktların ardınca növbəti addımların atılması, Rusiyanın artıq açıq şəkildə ermənilərə dəstək verməsi göz önündədir. Bu dəstək istər mətbuat, istərsə Xarici İşlər Nazirliyinin rəsmiləri, istərsə də hərbi-sənaye kompleksinin verdiyi silahlar səviyyəsində özünü göstərir. Hadisələr onu deməyə əsas verir ki, biz tamam fərqli taktika seçməliyik. Hesab edirəm ki, çəkinməyə ehtiyac yoxdur. Həm də artıq siyasi oriyentasiyamızda da redaktələr etməyin zamanı çatıb. Görürük ki, Gürcüstan qərbyönümlü siyasət yürütdü və ABŞ, Gürcüstanın işğal olunmuş əraziləri ilə əlaqə saxlayan dövlətlərə sanksiyalar tətbiq etməklə bağlı sərəncam verdi. Eyni zamanda biz artıq müharibənin sona çatdırılması ilə bağlı hərbi yolun tətbiq olunması üçün tədbirlər görməliyik. Ola bilər ki, bu savaş uzunmüddətli və üzücü olsun, hərçənd belə olacağını düşünmürəm. Həmçinin mif olan Rusiya gücündən də qorxmağa ehtiyac yoxdur. Hesab edirəm ki, biz bu qədər görünən mövqe tutduqca, ermənilərin utopik planları, çağırışları ilə rastlaşacağıq. Nəhayət ki, məsələni həll etməliyik".

**F.Quliyev qeyd edib ki, işğal olunmuş ərazimiz varsa, bu, suverenliyimizin 20 faizinin itirilməsi deməkdir:** "Biz ərazimizə nəzarət edə bilmirik. Həm ora talanıb, həm yandırılmış torpağa çevrilib, həm də orada yaşayan insanların əmlak hüquqları tapdalanıb. Ümumiyyətlə, insanlarımızın hər bir hüququ alt-üst olub. Onlar oradan qovulublar. İndi isə ermənilər həmin ərazilərimizdə hüquqi baxımdan müəyyən addımlar atmağa cəhd edirlər. Bu, istər saxta referendum olsun, istər də saxta paytaxt məsələsi. İşğal altında olan ərazilərin azad olunması ilə məsələlərə birdəfəlik son qoyulmalıdır. Yoxsa detallara münasibət bildirməklə bir şeyi dəyişməyəcək".

**Müxalifət nümayəndələri də hesab edirlər ki, belə bir məqamda atacağımız addım torpaqlarımızı işğaldan azad etməkdir. Belə ki, Ümid Partiyasının sədri İqbal Ağazadə qəzetimizə bildirdi ki, bu məqamda rəsmi Bakının üzərinə düşən iş Şuşanı işğaldan azad etməkdir. VHP sədri Sabir Rüstəmxanlı da oxşar fikirlər səsləndirdi.** "Həmin ərazilər onların əllərindədir. İşğal edib, oturublar orada. Ona görə də ağıllarına nə gəlsə, edə bilərlər və bizim də təsir gücümüz, mexanizmimiz yoxdur. Bu baxımdan, bu cür hadisələrin yalnız bir cavabı var, o da Qarabağı işğaldan azad etmək", deyə S. Rüstəmxanlı bildirib.

**Politoloq Elxan Şahinoğlu isə sosial şəbəkədə məsələ ilə bağlı bildirib ki, rəsmi Bakı prosesin qarşısını ala bilər:** "Separatçıların "paytaxtı" Şuşaya köçürməsinə, Kəlbəcərdə məktəb, uşaq bağçası, xəstəxana və su elektrik stansiyasının tikintisinə necə mane olmaq mümkündür? Rəsmi Bakı separatçıların Xankəndində təmir etdiyi hava limanının istifadəsinə necə əngəl oldusa və separatçılar qorxularından bu hava limanından istifadə edə bilmirlərsə, təyyarələr enib-qalxmırsa, eyni taktikadan Şuşa və Kəlbəcərlə bağlı da istifadə etmək lazımdır. Necə oldu ki, separatçılar 20 ildə işğal altındakı torpaqlarda heç bir fəaliyyət göstərmədilər və qəfil həmin torpaqlarda tikinti işlərinə başladılar? Kim onlara bu təxribatlarına görə təhlükəsizlik zəmanəti verdi? Dərhal Minsk Qrupu həmsədrləri Bakıya çağırılmalı və onlar baş verənlərin hansı nəticələrə gətirəcəyindən xəbərdar edilməlidirlər. Ümumiyyətlə, elan edilməlidir ki, işğal altındakı torpaqlarda infrastruktur işləri və köçürülmə müharibəyə səbəb olacaq".

❑ **Əli RAİS**

# "Atəşkəs məğlubiyyət deyildi, məcburiyyət idi"

## "Bişkek protokolu"nun imzalanmasından 23 il ötür; **Elçin Mirzəbəyli:** "Torpaqları işğal altında olan bir ölkə üçün atəşkəs uğur sayıla bilməz"

**Bu gün Azərbaycanla Ermənistan arasında Bişkek protokolunun imzalanmasından 23 il ötür. Atəşkəsin əldə olunduğu bu illər ərzində 12 mayla bağlı fikirlər hər zaman bir-birindən kəskin şəkildə fərqlənir.**



Bəziləri düşünür ki, Bişkek protokolu imzalanmasaydı, Azərbaycan Dağlıq Qarabağı itirməzdi və 1994-cü ilə qədər işğal edilmiş ərazilərini də geri qaytarardı. Atəşkəs əldə olunduğu vaxt müharibədə üstünlüyün Azərbaycan tərəfə keçdiyini və belə şəraitdə ermənilərin can-başla Rusiyanın ölkəmizə təzyiqi ilə bu razılaşmaya getdikləri vurğulanır. Bunun əksini düşünüb, Rusiyanın həmin vaxt Ermənistana dəstəyini artırdığı və belə bir şəraitdə daha ağır vəziyyətə düşməmək üçün Azərbaycanın atəşkəsə razılıq verdiyi qeyd olunur. Ölkəmizin vaxt qazanmaq baxımından başqa bir seçiminin olmadığına görə bu anlaşmaya getməyə məcbur olduğu da səslənən mövqelər sırasındadır.

**Politoloq Elçin Mirzəbəyli hesab edir ki, 23 il öncə Azərbaycanın başqa seçimi qalmamışdı:** "Həmin dövrdə atəşkəs sazişinin imzalanmasından başqa bir seçim yox idi. Azərbaycanın iqtisadi və hərbi imkanları, eləcə də regiondakı vəziyyət, qüvvələr nisbəti müharibənin davam etdirilməsinə imkan vermirdi. Ərazi baxımından itirdiyimiz nə vardısa atəşkəsədək itirmişdik. Atəşkəsdən sonra isə Azərbaycan "Əsrin müqaviləsi"nin imzalanmasına, ölkənin iqtisadi potensialının həmin dövrlə müqayisədə fantastik dərəcədə genişlənməsinə səbəb olan Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum və digər layihələrin həyata keçirilməsinə zəmin yaratdı. Azərbaycan beynəlxalq enerji və nəqliyyat dəhlizlərinin qovşağına çevrildi və ölkənin geosiyasi əhəmiyyəti artdı. 23 il ərzində qazandığımız iqtisadi və hərbi güc, itirdiyimiz isə vaxt oldu. Siyasətdə və müharibədə romantika yalnız real mübarizə və döyüş öncəsi olur. Mən zərrə qədər də şübhə etmirəm ki, əgər həmin dövrdə torpaqlarımızı işğaldan azad etmək mümkün olsaydı, siyasi hakimiyyət bunu mütləq edərdi. Heydər Əliyevin xarakteri və təcrübəsi imkan verməzdi ki, o, mümkün olanı etməsin. Həmin dövrdə müharibənin davam etdirilməsinin mümkünsüzlüyünü sübuta yetirmək üçün 1994-cü ilin dövlət büdcəsinə nəzər salmaq kifayətdir. Həmin dövrdə ölkənin büdcəsi təxminən 395.347 milyon (denaminasiyadan sonra 79 milyon) manat təşkil edirdi. Bu büdcə ilə nə ordu qurmaq, nə silah almaq mümkün deyildi".

**Politoloq atəşkəsi bütün hallarda uğur kimi qələmə verməyin tam əleyhinədir:** "Bütün hallarda atəşkəs imzalanacaqdır. Çünki bu, təkcə bizim iradəmizdən asılı deyildi. Müharibənin içində olan bir ölkəyə kim investisiya yatırardı, hansı neft şirkəti Azərbaycanla müqavilə imzalayardı? Digər tərəfdən, Ermənistan tərəfindən Azərbaycanla müharibədə peşəkar rus hərbçiləri iştirak edirdilər. Həmin dövrdə hətta qardaş Türkiyə belə Azərbaycana hər hansı formada dəstək verə bilmirdi. Gəlişigözəl bəyanatlar səsləndirilirdi, amma bir qrup fədakar qardaşlarımızın köməyi istisna olmaqla, dövlət səviyyəsində real dəstək yox idi. Regionun digər dövləti - İran isə ermənilərin yanında yer almışdı... Bütün bunlar gözümüzün qarşısında baş verib və unutmamalıyıq. Vaxt isə çox uzandı. Təbii ki, bunun da obyektiv və subyektiv səbəbləri var. Hər kəsin bildiyi həqiqətləri yenidən təkrarlamaq istəmirəm. Bu vaxt ərzində bütün digər sahələrin inkişafına zəmin yarada biləcək daha yaxşı iqtisadi nəticələr əldə edə bilərdikmi? Şübhəsiz ki, edə bilərdik. Hər zaman daha yaxşısını əldə etmək üçün imkanlar olur. Amma dövrün reallığı, bir millət olaraq potensialımız nəyə imkan verirdisə, onu da etmişik. Torpaqları işğal altında olan bir ölkə üçün atəşkəs uğur sayıla bilməz. Atəşkəs məğlubiyyət deyildi, məcburiyyət idi. Biz iki pisdən ən yaxşısını seçmək məcburiyyətində qalmışdıq".

❑ **Cavanşir ABBASLI**

# Türkan və dəniz



Zamin HACI
zaminhaci@gmail.com

## (Allah sənə rəhmət eləsin, Heminquey!)

**Bir el məsəli var idi, deyəsən, artıq qüvvədən düşmək üzrədir: "Həkimi el dolandırar". Çünki son çağlar cinayət xronikalarında həkimlərə qarşı bəd əməllərin artdığını görürük. Xüsusilə həkimlər soyğunçuluq və oğurluq cinayətlərinin qurbanı olmağa başlamışdır.**

Mənfi hal kimi qiymətləndiririk. Görünür, uca millətimiz krizis üzündən artıq soymağa başqa adam, başqa peşə yiyələri tapmır, həkimlərin cibinə və evinə girir. Buna son qoyulmalıdır. Yaxşı olar həkim dostlarımız etiraz əlaməti kimi millətin sağ ayağını sol qulağının dibinə, ağzını isə buduna tiksin. Bəlkə bu zaman millət ağıllanar. Bəsdirin! İndi nə edək sizin əlinizdən, gedək İsveçrədən təzə millət gətirək?

Hərçənd qorxuram ordan gətirməklə də bu iş düzəlməsin, çünki o tərəfdən gələnlər sarıdan yarımadıq. Məsələn, Amerika səfirliyi bizdə artezian qazmaqla, yaponlar tualet remontu, fransızlar isə ağlınıza gəlməz... yoqa dərsləri ilə məşğul olurlar! Amerikalı heç, bunu anladıq, adamların işi zatən "mızdonalds" alveri və qazlı şirinçay *(adını da təmtəraqlı olsun deyə "Coca Cola" kimi basırlar)* satmaqdır. Yaponu qınaya bilmərik, adama karate ilə təpik vurub deyərlər gedin öz YAP-ınızın dərdini çəkin. Ancaq fransızların söhbəti adamı yandırır-yaxır. Təsəvvür elə, sən fransızdan inqilab, maarifçilik, nə bilim, Volter-Hüqo-filan söhbətləri umursan, o isə Bakıya gəlib yoqa dərsi açır: "Sağ ayağı sol çiyin üzərinə qaldır, dərindən nəfəs al, sonra təpəsi üstdə dayan, nəfəsini ver"... Məntiqlə yoqa dərsini öyrətməli Hindistan səfirliyi isə ölü camışların dönərçilik sənayemiz üçün ixracı kimi qlobal vəzifənin həyata keçirilməsi ilə məşğuldur. Elə bil ərazidə nəsə sehirli qüvvə var, kim düşsə başı pozulur.

Xalqı danlamaqla başlamışıq, elə o temadan tutub ucuzluğa gedək. Dünən xəbər lentində, "Yeni Müsavat" qəzetinin saytında Bakının Türkan kəndi camaatının birinci vitse-prezidentə şikayətini oxudum. Deyirlər, daha Xəzər dənizinə getməyə yolumuz qalmayıb, hər yanı hasarlayıblar. Şikayətə videoicmal da qoşublar, doğrudan da baxırsan ki, o boyda tarixi Abşeron kəndinin indi dənizə çıxmağa sözün əsl mənasında cəmi 3 metr yeri qalıbdır. Bütün Türkan o 3 metrdə dənizdə çimməli, qumda uzanmalı, balıq tutmalı, canım sənə desin, dənizin qırağında çənəsinə dirsəklənib axmaq-axmaq gəzişib şeir qayırmalıdır. *(Sonuncu məcburi akt deyil, ancaq şair işləyən kənd sakinlərinə aiddir. Bildiyiniz kimi bizdə şairin tarixi obrazları üçün bir neçə təbiət sahəsi, obrazlı desək örüş nəzərdə tutulubdur. Şair ya dənizin, ya meşənin, ya da çayın qırağında fikirli dolaşıb göyə baxmalı, hərdən ah çəkməlidir. Ta şair Dərnəgül bazarından qoyun içalatı alıb tozun içində evə tərəf getsin, belə şey obraza qəti girmir. Nəsə, bu uzun söhbətdir, filoloji araşdırmalarımıza aiddir, ya qismət, fürsət olar dərin izah edərik).*

Türkanlıları bu asi davranışa görə qətiyyətlə qınayıram. Dəniz yoxdur, evdə hamamda çimin, nə məcburdur? Odur, ermənilərin ümumiyyətlə dənizi yoxdur. Ancaq biz heç olmazsa hasar üzərindən dənizə tamaşa edirik, buna görə dövlət rəhbərliyinə dərin minnətdarlığımızı izhar edirik. İstəsələr lap dənizi bütöv satardılar, guya nə edərdik? Özü də bunun mexanizmi var, Qabriel Qarsia Markesin "Patriarxın payızı" romanında oxumuşam. Orda diktator dənizi amerikalılara satırdı, amerikalılar isə şlüzlər çəkib dənizi parçalayır, suyunu gəmilərə doldurub öz ölkələrinə aparırdılar. Camaat isə bir səhər oyanıb görürdü dəniz yoxdur. Hesab elə bir gün səhər qancıq tayadan düşməmiş gedirsən bulvara, guya dəniz qırağında idman eləməyə, baxırsan dənizin izi-tozu, iyi-kanalizasiyası qalmayıbdır. "Dəniz gördün? Qığını da görmədim!" - təxminən belə.

Bizdə isə maşallah, bulvarda dəniz yerində qalır, keçən ay özüm görmüşəm. Şükür eləyin, gedin orda dənizə baxın. Məcburdur Türkandan da dənizi görəsiniz?

İndi söz əlaqədar türkanlılarındır.

# Cənubdan "dindaş və qardaş" zərbəsi

**Cənub qonşumuz İran növbəti prezident seçkilərinə hazırlaşır. Ancaq indiki prezident Həsən Ruhani də daxil, 6 iddiaçıdan qələbə şansının kimdə ən çox olmasına rəğmən, bir şeyi əminliklə söyləmək olar: bu seçkidən sonra da rəsmi Tehranın Güney Azərbaycana, Güney məsələsinə və güneyli soydaşlarımızın problemlərinə yanaşması dəyişməyəcək.**




## İrandan anti-Azərbaycan planı - ilginc ssenari de-şifrə olundu

O taylı-bu taylı Azərbaycan əleyhinə hazırlanan sənəd Türkiyəni də qarışdırmağı özündə ehtiva edir, güneyli fəalları gözdən salmağa yönəlik xüsusi KİV və saytların yaradılması nəzərdə tutulur; iki qardaş ölkədə etnik qarşıdurma yaratmaq istəklərinin də yer aldığı məkrli planın pərdəarxasında daha nələr var?..

Səbəb barədə zaman-zaman yazmışıq. İran əfsus ki, hələ də Şimali Azərbaycanın müstəqil dövlət kimi varlığını həzm edə bilməyib. Təsadüfi deyil ki, Tehran Azərbaycan Respublikasının müstəqilliyini 8-ci sırada - hətta Rumıniyadan sonra tanıyıb. İran son ana kimi ümidli idi ki, dünyanın siyasi xəritəsində Azərbaycan adında dövlət peyda olmayacaq. Ancaq oldu. Belə bir dövlət quruldu və bununla da İranın tərkibindəki Güney Azərbaycan amil, ikiyə bölünmüş Azərbaycan problemi Tehran üçün daha çəkindirici bir status qazanmış oldu.

O vaxtdan Tehran rəsmiləri şimaldakı Azərbaycanın müstəqilliyini sözdə, formal qəbul eləsələr də, bizə "dindaş, qardaş" desələr də, altdan-altdan Azərbaycan Respublikasının müstəqilliyinin təməlini qazımağı unutmadılar, din pərdəsi altında ölkəmiz əleyhinə müxtəlif səpkili ssenarilər və təxribatlar cızıb həyata keçirməyə çalışdılar. Əvvəllər bunu kifayət qədər açıq şəkildə, sonra isə mövcud şərtləri ciddiyə alıb da, planları məxfi şəkildə həyata keçirməyə səylər elədilər.

Şiə İranın bu gün də Azərbaycanın ərazi bütövlüyünə qəsb eləmiş, bir milyondan çox azərbaycanlı şiəni öz yurdundan didərgin salmış, müsəlman torpaqlarında etnik təmizləmə aparmış işğalçı Ermənistanın yanında yer almasının, Türkiyə və Pakistan kimi təcavüzkara sanksiyalar tətbiq etmək əvəzinə, daima təcavüzkara nəfəs verib onun iqtisadi cəhətcə ayaqda qalmasına yardımçı olmasının tək səbəbi də budur - müstəqil Azərbaycan dövlətinin varlığı.

*****

Ancaq aydındır ki, İranla Azərbaycan qonşu dövlətlər olaraq, normal əlaqələr içində olmaq zorunda idi. O üzdən vaxtaşırı iki ölkə arasında ikitərəfli münasibətlərdə müəyyən problemlər müşahidə olunsa da, onların həlli istiqamətində lazımi addımlar da atılıb və atılır. O da sirr deyil ki, xüsusilə iki ölkə rəhbərlərinin qarşılıqlı səfərləri bəzi daxili və xarici dairələrin Tehran və Bakı arasında münasibətlərini gərginləşdirmək cəhdlərinin qarşısını ala bilib.

İranla Azərbaycan arasında hazırda elə ciddi problemlər müşahidə olunmasa da, belə görünür, qonşu ölkədə müəyyən qüvvələr Azərbaycanı hədəfə götürmək cəhdlərindən heç cür əl çəkmək niyyətində deyil. Belə ki, bugünlərdə İran hakimiyyətinin əleyhinə fəaliyyət göstərən və xaricdə yerləşən bir sıra media orqanları İranın mühafizəkar dairələri tərəfindən yerli hakimiyyət orqanlarına ünvanlanmış sənədi açıqlayaraq, ölkənin azərbaycanlı əhalisinə və Azərbaycan Respublikasına qarşı yeni təxribatların həyata keçirilməsi planlarını faş ediblər. Söhbət nədən gedir?

Məlumata görə, İranın mühafizəkar çevrələri və SEPAH təşkilatı ölkənin şimal-qərbində "separatizm" meyllərinin gücləndiyi iddiası ilə azərbaycanlı fəalları izləyir və onları neytrallaşdırmaq üçün bütün mümkün vasitələrdən istifadə etməyə çalışırlar. Azərbaycanlıların yaşadıqları əyalətlərə, xüsusilə Azərbaycanla həmsərhəd bölgələrə diqqət artırılır, ciddi təbliğat vasitəsilə fəalların gözdən salınması istiqamətində işlər təşkil olunur.

Zəruri sayılan tədbirlər sırasında "Azərbaycan Dil və Mədəniyyət Fondu"nun yaradılmasının sürətləndirilməsi və onun radikal islamçıların nəzarətinə verilməsi, habelə azərbaycanlılarda türk dilinə və ədəbiyyatına maraq olmadığına dair təşviqat aparılması nəzərdə tutulur. Hətta "Traktor" futbol klubunun fanatları azərbaycanlı fəallara qarşı istiqamətləndirilir. Bundan əlavə, hesab edilir ki, azərbaycanlı fəalları gözdən salmaq üçün xüsusi KİV və saytlar yaradılmalıdır.

*****

Maraqlıdır ki, plan qardaş Türkiyəyə qarşı da yönəlib. Belə ki, Azərbaycan və Türkiyədə kəşfiyyat və psixoloji əməliyyatların həyata keçirilməsi nəzərdə tutulur. Hədəf dairəsi kimi isə hər iki ölkədə milli azlıqların və etnik qrupların imkanlarından istifadə olunması, yəni separatçılığı qızışdırmaq məqbul hesab edilir.

Görünür, indiyədək İranın mühafizəkar dairələri tərəfindən bu ölkənin azərbaycanlı əhalisi və Azərbaycan Respublikasına qarşı sanksiyalaşdırılan tədbirlər bir elə effektli olmayıb. Çünki İran rejimi tərəfindən maliyyələşdirilən və Azərbaycan əleyhinə fəaliyyət göstərən çoxsaylı saytlar, Azərbaycanda İranın maraqlarını ifadə edən siyasi partiyalar və QHT-lərin olmasına, İran missionerlərinin Azərbaycanda ciddi dini və təxribatçı təbliğat aparmasına, həmçinin İrandakı azərbaycanlı əhalinin tam itaətdə saxlanması üçün çoxsaylı tədbirlər həyata keçirilməsinə və digər məsələlərə baxmayaraq, fars rejimi yeni və daha ağlasığmaz tədbirlər reallaşdırmaq məcburiyyətində qalıb.

*****

Bütün bunlar bir daha ona şəhadət verir ki, rəsmi Tehranın Azərbaycanla dostluq və qardaşlıq əlaqələrini inkişaf etdirmək haqda bəyanatlarına rəğmən, bu ölkənin güclü, nüfuzlu və məkrli dairələri tam əks istiqamət üzrə Azərbaycana və İranın azərbaycanlı əhalisinə qarşı təxribatçı fəaliyyətini getdikcə genişləndirmək yolunu tutub.

Halbuki bu arada İran rejimi ölkənin azsaylı erməni əhalisi üçün daha məqbul imkanların yaradılması və işğalçı Ermənistanla əlaqələrinin gücləndirilməsi yönündə addımlarını intensiv şəkildə davam etdirir. Hələ harasıdır, İran ermənilərinin azərbaycanlı əhaliyə və Azərbaycana qarşı təxribatları dəstəklənir, Ermənistanla siyasi, iqtisadi-ticarət və humanitar əlaqələr inkişaf etdirilir. İran şirkətləri nəinki Ermənistanda, hətta işğal altındakı Azərbaycan torpaqlarında sərbəst şəkildə iş, biznes qururlar.

O sırada Tehran Dağlıq Qarabağ və işğal altında olan digər Azərbaycan ərazilərində məscidləri bərpa edərək Ermənistan hakimiyyətini beynəlxalq qınaqdan xilas edir və Azərbaycana qarşı iddialar irəli sürmək üçün ona əlavə imkanlar yaradır. Az öncə İran şirkətləri tərəfindən Azərbaycan dövlətinin razılığı olmadan Şuşadakı məscidin bərpa olunması da məhz eyni məkrli məqsədə xidmət edir.

*****

Son fakt və gəlişmələr bir daha cənub qonşumuzun Azərbaycan dövlətinə, Güney Azərbaycandakı əhaliyə, hətta qardaş Türkiyəyə münasibətdə dinə-İslama, dostluq-qonşuluğa sığmayan bir siyasət içində olduğuna şübhə yeri saxlamır. Təbii ki, Azərbaycan dövləti 26 il öncəki kimi zəif deyil ki, asanca belə siyasətin girovuna çevrilsin. Üstəlik, Türkiyə ilə əlaqələrimiz heç vaxt olmadığı qədər yüksək səviyyədədir ki, bu da İranın anti-Azərbaycan planların qarşı daha bir etibarlı sipər sayıla bilər.

❑ **Siyasət şöbəsi**

**ABŞ prezidenti Donald Tramp Dövlət Departamentinin xətti ilə bir sıra inkişaf etməkdə olan ölkələrə maliyyə yardımını azaltmaq və ya tamamilə ləğv etmək barədə seçkiqabağı vədinin icrasına başlayıb. ABŞ Dövlət Departamentinin 15 səhifəlik büdcə sənədinə artıq bu barədə xüsusi bənd salınıb. Trampın ABŞ prezidenti seçilməsindən sonra tərtib edilən plan özündə inkişaf etməkdə olan ölkələrə yardımın üç dəfə azalmasını nəzərdə tutur. Sənəd layihəsinə görə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Belarus kimi ölkələrə Dövlət Departamenti xətti ilə maliyyə yardımı ləğv ediləcək.**

# ABŞ layihəsi olan USAİD-in bağlanmasından Azərbaycan nə itirəcək?

## Tanınmış ekspert: "QHT-lər artıq USAİD-dən əllərini üzüblər"

Ermənistana maliyyə yardımı 77,3%, Moldovaya 47,4%, Ukraynaya 68,8% azalacaq. Azalma həmçinin Gürcüstana da şamil olunacaq. Sənəddə bu kimi layihələrin əsas icraçısı olan ABŞ Beynəlxalq İnkişaf Agentliyinin(USAİD) büdcəsinin 12 milyard dollar (31 faiz) kəsilməsi nəzərdə tutulub. USAİD-in hətta ABŞ Dövlət Departamenti ilə birləşdirilməsi planı da var.

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) - ABŞ hökumətinin xarici yardım üzrə agentliyidir. 1961-ci ilin 3 noyabrında prezident Con Kennedi USAİD-in təsisi haqqında sənəd imzalayıb.

Rusiyanın rosbalt.ru portalı Amerika diplomatik dairələrinə istinadən xəbər verir ki, USAİD Azərbaycanda fəaliyyətini dayandırır. O cümlədən Belarus, Tacikistan və Qırğızıstanda da təşkilatın bağlanacağı gözlənilir. Portal iddia edir ki, Azərbaycan və digər keçmiş sovet respublikalarının hakimiyyətləri "xarici agentura" hesab etdikləri bu kimi şəbəkələrin fəaliyyətlərini ölkə siyasətinə müdaxilə hesab edib və USAİD-in fəaliyyətinin dayandırılmasından heç nə itirməyəcəklər.

Konqresin Trampın seçkiqabağı vədinin icra etmək istəyinə nə deyəcəyi hələ məlum deyil, amma ABŞ-ın xarici siyasətində sapmalarla bağlı artıq sərt tənqidlər başlayıb.

Bəs ABŞ-ın Azərbaycan, Qazaxıstan, Türkmənistan, Belarus kimi ölkələrə Dövlət Departamenti xətti ilə maliyyə yardımını ləğv etməsindən, USAİD-in bağlanmasından bu ölkələr, o cümlədən Azərbaycan itirəcəkmi? USAİD-lə daha çox hökumət qurumları, yoxsa QHT-lər əməkdaşlıq edirdi?

**Humanitar Tədqiqatlar Cəmiyyətinin sədri Əvəz Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, USAİD-in Azərbaycanda fəaliyyətinin tam olaraq dayandırılması tezliklə baş verməyəcək:** "Onlar indiyə kimi mövcud olan 9 proqramları çərçivəsində Azərbaycanda fəaliyyət göstərirdilər. Həmin proqramların arasında təhsil, səhiyyə, fiziki qüsurları olan insanlar, yoxsulluğun aradan qaldırılması, gender bərabərliyi, ekologiya, su təminatı və kiçik sahibkarlığın inkişafı kimi proqramları uğurla işləyirdi".

**Ə.Həsənovun sözlərinə görə, USAİD demokratiya, insan hüquqları və yaxşı idarəetmə proqramı ilə yanaşı, konflikt zonalarında iş proqramını Azərbaycanda inkişaf etdirmək sahəsində də çətinliklə üzləşmişdi. Ona görə də proqramın bağlanmasının demokratik proseslərə elə bir isti-soyuğu olmayacaq:** "Onsuz da bu proqram işləmirdi. USAİD ilə QHT-lər artıq 2014-cü ildən işləyə bilmirlər. Səbəb qanunvericilikdə edilən bir sıra dəyişikliklərdir. Ona görə də QHT-lər artıq USAİD-dən əllərini üzüblər. Hökumətin özünün marağında olan sosial layihələrin maliyyələşməsində isə USAİD az rol oynamırdı, indi o da əldən çıxacaq".

Eksperti vurğuladı ki, USAİD ABŞ-ın ən böyük maliyyə yardımı proqramı olmaqla yanaşı, onun hər hansı ölkədə fəaliyyəti həmin ölkə üçün siyasi baxımdan prestijli əməkdaşlıq sayılır. Bu baxımdan, USAİD-in bağlanmasından təbii ki, ölkənin imici daha çox zərər görür, eyni zamanda ölkə bu əməkdaşlıqdan əldə ediləcək maliyyə vəsaitlərindən məhrum olur.

**Qeyd edək ki, USAİD-in dünyanın bir çox ölkələrində, həmçinin Azərbaycanda öz proqramlarını, maliyyəni azaltması prosesi bir neçə ildir müşahidə edilməyə başlamışdı. Bunu bir müddət öncə "3-cü sektor facebook qrupu"nda sosial şəbəkə iştirakçıları və ekspertlərin suallarını cavablandıran USAİD-in Azərbaycandakı Missiya direktoru Maykl Qrin də bildirib:** "Bizim azalan büdcəmizə gəlincə isə bəli, bu bir həqiqətdir ki, bir çox başqa donorlar kimi ABŞ hökuməti də öz dövlət büdcəsini balansa gətirmək üçün son illərdə bir sıra ağır kəsrlər etmişdir. Nəticədə USAİD dünyanın bir çox ölkələrində öz proqramlarını azaltmaq məcburiyyətində qalmışdır. Təəssüflər olsun ki, USAİD-Azərbaycan həmin tələb olunan kəsrlərdən qaça bilməmişdir".

### Maykl Qrin: "Təəssüflər olsun ki, USAİD-Azərbaycan tələb olunan kəsrlərdən qaça bilməyib"

**M.Qrin qeyd edib ki, USAİD-in missiyası QHT-lərlə işləmək və onlara müstəqil və dayanıqlı təşkilatlar olmağa kömək etməkdir ki, onlar milli inkişafa öz töhfələrini verə bilsinlər:** "Hər bir ölkədə hər bir vətəndaş qanun və beynəlxalq müqavilələrə uyğun olaraq mülki və siyasi hüquqlardan istifadə etmək hüququna malik olmalıdır. USAİD-in yardım mexanizmlərinin geniş çeşidinə texniki yardım, təlimlər, logistika dəstəyi və sub-qrantların verilməsi daxildir. Yüksək ixtisaslı Azərbaycan QHT-lərinin birbaşa maliyyələşdirilməsi həm də müəyyən vətəndaş cəmiyyəti təşkilatlarına vətəndaş cəmiyyəti sektorunun digər iştirakçıları üçün resurs olmağa imkan verə bilər. Biz birbaşa Azərbaycan QHT-ləri ilə işləməyə üstünlük vermişik. Bəzi yerli təşkilatlar artıq yüksək səviyyəli inzibati, idarəetmə və texniki bacarıqlar əldə ediblər və bu, onlara əməkdaşlıq müqavilələri və ya birbaşa qrant mexanizmləri vasitəsilə USAİD-dən maliyyə almağa imkan verir.

USAİD gənclərlə və gənclər təşkilatları ilə işləyən ilk agentliklərdən biri olmuşdur və bu fəaliyyətlər 2010-cu ildə "Counterpart International" təşkilatının icra etdiyi Vətəndaş Cəmiyyəti Layihəsi vasitəsilə aparılırdı. Azərbaycanda yerli gənclər təşkilatlarının sayının artmasını nəzərə alaraq, USAİD-in Azərbaycan Missiyası onlara güclənməkdə kömək etmək və bu vəsaitlər vasitəsilə onların iştirakçılığını artırmaq məqsədini hədəf götürmüşdü. Bu fəaliyyət 7 koalisiyada birləşmiş 22 təşkilatı səfərbər edə bildi. Bu koalisiyalar ölkə rayonlarına səfərlər edir və gənclərlə sosial şəbəkələşmə, bloq fəaliyyəti, ictimai vəkillik, hökumətlə dialoq və digər məsələlər üzrə iş aparırdı. Bu koalisiyalar Azərbaycanın 32 rayonunda öz fəaliyyətlərini başlamağa müvəffəq oldular. Onlar əyalətlərdə 3500 gənclə və qadınla, eləcə də 180 QHT ilə əlaqə qurdular. Təlim paketlərinin 500-dən çox nüsxəsi çap edilərək kənd yerlərində yaşayan və təlimlərdə iştirak edən gənclərə paylanıldı. Koalisiyalar bloq saytlarını necə yaratmaq və saxlamaqla bağlı texniki yardım göstərdilər. Bu layihə çərçivəsində təlimləndirildikdən sonra əyalətlərdən olan gənclər tərəfindən təqribən 40 yeni bloq və internet saytı yaradıldı. Layihə yeni baş qaldıran lider gənclər və qruplara stimul verdi və onlara öz bacarıqlarını yeni nəslə ötürməyə imkan yaratdı. Daha bir layihə Bakıda və ölkənin müxtəlif bölgələrində yeni gənc liderlərə bilik və bacarıqlar verilməsini hədəfləyirdi. Təqribən 150 gənc fəal təlimləndirilmiş və icmalarında liderə çevrilmələri üçün lazımi bacarıqlarla təmin edilmişdir".

❑ **Etibar SEYİDAĞA**

# Atəşkəs "yastığı"



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Bu gün atəşkəs haqda bədnam Bişkek protokolunun imzalanmasından 23 il ötür. Düz 23 ildir ki, Azərbaycan xalqının başı altına yaxşı bir atəşkəs "yastığı" qoyulub. İlləri illərə calayıb boş vədlər verməkdən usanmayan vasitəçilər bir cavanın ömrünə bərabər müddətdə "Qarabağ yükü"nü yerindən tərpədib bircə sm belə qabağa apara bilməyiblər.**

Nədəni çoxdan bəlli: çünki həmsədrlər işğalçı ilə işğala məruz qalan tərəfi öz adı ilə çağırmağa özlərində nə cürət, nə həvəs, nə də ən önəmlisi vicdan hissi tapa bilirlər.

Bu arada - atəşkəsin 23-cü ildönümündə bəlli olub ki, ermənilər Azərbaycana qarşı daha bir həyasız təxribata hazırlaşırlar. İddialara görə, indi də düşmən işğal altındakı qədim şəhərimiz Şuşanı separatçı rejimin "paytaxtı" elan etmək fikrindədir. Məlumatlara inansaq, qondarma qurumun "parlamenti"ni Xankəndindən Şuşaya köçürməklə bağlı müzakirələr başlayıb.

Nə deyəsən? Oğru, qəsbkar müvəqqəti zəbt elədiyi hansısa məkanda, evdə həmin bu evin halal yiyəsi gələnədək nələr edə bilərsə, hansı hoqqalardan çıxa bilərsə, işğalçılar də illərdir qanuni torpaqlarımızda belə nadürüst, iyrənc işlə məşğuldular. Necə deyərlər, bu da onların "haqqıdır".

Ev yiyəsinin gəlişi isə uzanır. Allah bizə səbir verməsin, yaman uzandı bu işğal. O qədər ki, separatçı-işğalçı qüvvələr Dağlıq Qarabağın adını dəyişib "Artsax" qoymaq üçün saxta referendum keçirməyə də macal tapdılar bu ilin fevralında. Ona qədər isə neçə-neçə saxta parlament və prezident seçkiləri tamaşası düzənləyib dünyaya "DQR" adında bic "dövlət"i sırımağa çalışdılar.

Deyirlər, Allah səbirliləri sevər. Doğru. Amma səbir də zülmlə, işğalla barışmağa gətirməməlidir. Qırmızı xətt məsələsi yeni. İrz-namus, torpaq-qeyrət məsələsində isə səbirdən ümumiyyətlə, söhbət gedə bilməz. Bu məsələdə əksinə, Allah yalnız səbirsizləri sevər!..

***

Qəvi düşmənin bir məkrli hədəfi də əlbəttə ki, etnik təmizlənmə aparılmış Dağlıq Qarabağda Azərbaycan izlərini itirməkdir. Qarabağın halal adını dəyişmək, işğal altındakı rayonların adlarını erməniləşdirmək, indi də Şuşanı ikinci qondarma erməni "dövləti"nin inzibati paytaxtı elan eləmək kimi hoqqalar müstəsna olaraq bir məqsədə xidmət edir: guya Qarabağın Azərbaycana, azərbaycanlılara heç bir aidiyyətinin olmadığı haqda dünyada yanlış təsəvvür yaratmaq.

Ancaq bihudə məşğuliyyətdir. Ən azı ona görə ki, dünya, vasitəçi dövlətlər bölgəni bu gün də məhz Dağlıq Qarabağ kimi, öz türk adında tanıyır - erməni öz yanbızı ilə göyə dırmaşsa da. Ona görə boş məşğuliyyətdir ki, dünya birliyi bu gün də Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edir.

Demək, Şuşa da, Xankəndi də Azərbaycana məxsusdur - müvəqqəti düşmən tapdağı altında olsa belə. Elədisə bölgənin inzibati mərkəzinin Şuşa və ya Xankəndi olmasının xüsusi önəmi qalmır əslində. Hər ikisi Azərbaycan şəhəridir.

Düşmən bu absurdla yalnız dünyanı özünə güldürə bilərlər. Hərçənd gülməkdən də keçib. Ən gülməlisi və absurdu isə odur ki, heç Ermənistanın özü qondarma "DQR"i dövlət kimi tanımadığı halda, dünyaya onu artıq "baş tutmuş dövlət" kimi sırımağa səy edir. Guya belə bir üzdəniraq dövlət var və o yaşayır, seçkilər, referendumlar keçirir, hətta "paytaxtını" dəyişmək barədə müzakirələr aparır.

Halbuki ələhəzrət məntiq deyir ki, əgər Ermənistanın özü "DQR" adında dövləti tanımırsa, deməli, Dağlıq Şuşa və Xankəndi də daxil, Dağlıq Qarabağın Azərbaycana məxsusluğunu de-fakto qəbul edir. Qalır indi bunu de-yure də ona etiraf etdirmək üçün İrəvana kömək eləmək: yəni işğal rejiminə son qoymaq, çağırılmamış qonaqları sink tabutlarda öz evlərinə yola salmaq. Müxtəsəri, Azərbaycanın son və qəti döyüşü!

***

Son döyüş və... Azərbaycan xalqı da, erməni xalqı da, dünya da 30 ildir sürən bu üzücü qeyri-müəyyənlikdən, zillətdən qurtulacaq! Ya Allah, bismillah.

YENİ MÜSAVAT
N 100 (6714) 12 may 2017

**... Ötən yazıda qeyd etdik ki, Səmərqəndin mərkəzi meydanı olan Registanda üç ecazkar mədrəsə üz-üzə durur. Onların üçü də bir-birindən əzəmətli, bir-birindən fərqli və bir-birinə bənzərdir.**

# İmam və Qəssabbaşı

## Şərqin nəhəng alimləri, hakimləri, sərkərdələri yetişən ali məktəbin özəllikləri...

**III yazı**

Əmir Teymurun nəvəsi, alim- hökmdar Uluqbəyin mədrəsəsi bu üç mədrəsənin ən qədimidir. Uluqbəy bu mədrəsəni 3 ilə tikdirmiş və ömrünün sonuna qədər orada dərs demişdir.

Təsəvvür edirsinizmi... Hökmdar - Müəllim! Hökmdar - elmə dünya çapında töhfə vermiş alim! Analoqu olmayan olay budur.

Bənzərsiz Uluqbəy haqda ayrıca söhbət açacağam, amma indi mədrəsələrə dönək. Uluqbəydən 200 il sonra, 17-ci əsrdə Səmərqənd hakimi olmuş Yalangtuş Bahadur Uluqbəy mədrəsəsi ilə üz-üzə, Şir-Dor mədrəsəsini tikdirir. Sonra tən ortada duran Tillo Karı mədərsəsini inşa etdirib ərazini üç tərəfdən dövrəyə aldırır.

Babil və Roma şəhərləri ilə yaşıd olan Səmərqəndin Registan meydanında əvvəl gündən müqəddəs mədəblər, qutsal movzoleylər olmuşdur. Registan, demək olar ki, bütün gəlib keçmiş dinlərin oylağı olmuş, burada zamanın və ya istilaçıların hökmü ilə əski tikililər yıxılmış, yenə həmin yerdə dəfələrlə ən şahanə binalar ucaldılmış, şəhərin gəlmiş, keçmiş bütün hakimləri bu qutsal yerə töhfə verməyi özlərinə mənəvi borc saymışlar.

Əmir Teymur zamanında Şir-Dor mədrəsəsinin yerində Şəqrin ən böyük günbəzli mavzoleyi olmuşdur. Deyilənə görə, Əmir bu məqbərəni 6-cı imam Cəfər Sadiqin məzarı üzərində tikdirmişdir.

Şir Dor mədrəsəsində iki maraqlı məzara rast gəldim. Onlardan birinin, qeyd etdiyim kimi, İmam Cəfər Sadiqə aid olduğunu dedilər. Təəccübləndim. Çünki məzarın üstündə burada İmamın oğlunun yatdığı yazılmışdı. Həmsöhbətim deyirdi, əslində burada imamın özü yatır. 2 il öncə Azərbaycandan bura iki alim gəlibmiş. Məşhəddə onlara İmam Cəfər Sadiqin məzarı Səmərqənddədir, deyiblər. Alimlər həmin soraqla gəlmişdilər və bu qənaətdə idilər ki, həzrətin müqəddəs nəşi elə bu məzardadır. Keçmişlərdə belə məzarları diqqətdən yayındırmaq üçün, eləcə də nişanə itməsin deyə müqəddəslərin məzarını vaxtsız dünyasını dəyişmiş övladlarının adları ilə adlandırırmışlar.

6-cı imam Cəfər Sadiq kimdir, sualının ictimai şüurdakı cavabı qeyri müəyyən və yetərsizdir. Təəssüf ki, qurulan ağlaşmalar, savadsız mollaların şaxsey-vaxseyləri, mərsiyəxanların uydurduqları nöhə nağılları bu suala doğru-düzgün cavab verməyə və bu böyük adamı olduğu kimi tanıtmağa imkan vermir.

İmam Cəfər Sadiq dövrünün mütərəqqi alimi, müəllimi, dini cəhalətə və dinin siyasətə alət edilməsinə qarşı vuruşan bir insan, "insanların ən elmlisi və fiqh məsələlərində ixtilafları bilən şəxsdir". Onun tələbələri arasından fəlsəfə və kimya elminə böyük töhfələr vermiş ünlü alimlər çıxmışdır. Zamanın ən nüfuzlu alimləri uzaq ölkələrdən onu dinləməyə gələrmişlər.

İmam Cəfər Sadiq hakimlərin və ruhani təbəqənin təbliğ etdiyi İslama müxalif olmuşdur. Həqiqi İslamın onların təqdim etdiyi və faydalandığı dindən uzaq olduğunu demiş, xalqı öz haqlarını tələb etməyə təşviq etmişdir. Müasir dillə desək, İmam Cəfər Sadiq ədalət uğrunda mübarizə aparan müxalif lider olmuşdur. Hakimiyyətdə iştirak təklifindən iki dəfə imtina etmiş, din pərdəsi altında siyasi oyunlara bulaşmamışdır. Xalq arasında böyük nüfuz sahibi olduğundan dəfələrlə uzaq diyarlara sürgün edilmişdir.

Bəzi mənbələr onun sürgünlərdən sonra Məkkəyə qayıdıb gizli adla yaşadığını və orada dəfn edildiyini yazır. Bəziləri isə ömrünün son illərini Səmərqənddə yaşadığını, zəhərlənərək öldürüldüyünü, Şir Dor mədrəsəsindəki tənha qəbrin onun öz məzarı-şərifi olduğunu bildirir.

İmam Cəfər Sadiq böyük alim olduğu qədər mahir natiq və təbliğatçı olmuşdur. Onun cazibəsi və nüfuzu hakimlərin taxtını sarsıtdığından müsəlman hökmdarlar bu peyğəmbər övladını öz ölkələrində arzulamır, "Xalq ona heyrandır" - deyən paxıl üləmalar Rəsulun bu mötəbər övladını öz həndəvərlərində görmək istəmirdilər.

Təəssüf ki, İmam Cəfər Sadiqə bir ömür əzablar yaşadan, sürgünlərə göndərən, zəhərləyib öldürən cəhalət bu gün də onun yaxasından əl çəkməməkdə, ondan öz riyakar siyasətləri üçün faydalanmaqdadır.

... Şir Dor'da başqa bir tənha məzar da diqqətimi çəkdi. Peyğəmbər övladı ilə bir məkanda... Bu hansı imamdır, deyə maraq etdim. Cavab aldım ki, bu adam Yalangtuş Bahadırın hakimiyyəti dövründə Səmərqənddə qəssabbaşı olmuşdur.

Qəssabbaşımı? İmamlarla bir məkanda?!

Bəli. Onun adı Xoca Məhəmməd Katanqu idi.









Katanqu nə edib ki, burada dəfn edilib?

... Demək, hal-qəziyyə budur:

Günlərin bir günü Registanda "duyduq-duymadıq deməyin" deyə car çəkilir; Uca Hakim Yalangtuş Bahadur fərman verib! Uçulub dağılmış yaşıl günbəzin yerində yeni inşa başlayacaq! Uluqbəy mədrəsəsi ilə üz-üzə, elə onun şərafətində bir mədrəsə tikiləcək! O mədrəsədə dünyanın hər yerindən gəlmiş ustad alimlər dərs verəcək, ölkəmiz üçün böyük alimlər, əməlisaleh hakimlər, ürəkli sərkərdələr yetişdirəcək!

Beləcə, durmadan işə başlanır. Dünyanın hər yerindən memarlar, ustalar, işçilər gətirilir. Çünki bu yeni mədrəsə Uluq bəyin misilsiz mədrəsəsi ilə üz-üzə durmağa layiq olmalı idi. Şir Dor mədrəsəsinin inşası dünyanın ən ünlü memarlarına həvalə edilir, şöhrətli Təbriz nəqqaşları mədrəsənin baş tağlarının naxışlarını, ön divarlarını işləyirlər.

O tağlara diqqətlə baxın, bizim rəmzlərimizi görəcəksiniz; arxasından günəş doğan aslan - günəş tale, aslan hakimdir, yəni bəxti yar olmuş hökmdar. Bu, Şah İsmayılın, Səfəvilər dövlətinin bayrağında olan nişanələrdir. Sonradan bu rəmzləri Nadir şah da, Qacarlar da öz bayraqlarına gətirdilər. Qarabağ, Gəncə, Şəki xanlarının bayraqlarında və sancaqlarında da bu cizgilər əksini tapıb. Bu, davamiyyətə və varisliyə işarə idi.

Təbriz rəssamları Şir Dor (şir elə şir, dor qapı deməkdir) abidəsində bizi layiqincə təmsil etmişdilər. Ustadlara salam olsun!

Beləliklə, qəssabbaşı, şəhərin hörmətli sakini, zəngin Katanqu carçıların yaydığı xəbəri eşidir. Durub Yalangtuşun hüzuruna gəlir. Deyir, bu işdə sənə kömək edəcəm, istəyirəm bu qazanda mənim də duzum olsun. Yalangtuş gülür, deyir, qəssabbaşı, sən bu ağır işə necə kömək edə bilərsən axı? Katanqu cavab verir; bu inşada çalışanlar üçün bişən yeməyin ətini verərəm.

Yalangtuş heyrət edir. Katanqu əlini ağır daşın altına qoymuşdu.

Beləcə, iş başlayır. Qəssabbaşı kamil bir nizamla hər səhər inşaata ət göndərir.

Bu arada işlər də yaxşı getmir, inşaat düz 17 il uzanır. Zəngin qəssabbaşı bu yolda müflis olur. Elə müflis ki, bütün mülkiyyətini hərraca çıxarmalı olur. Günlük qazancı yalnız evinə bir öynə yemək üçün ət aparmağa yetir. Qəssabbaşı o əti evinə deyil, hər gün Şir Dor inşaatçılarına aparır.

Hər kəs kənardan ona sitəm edir, əl çək bu işdən, deyir, böyük külfətin ət üzünə həsrət, səbzə-filanla baş girləyirsən... Qəssabbaşı deyir: söz verməşəm... Deyirlər, söz verəndə varidat sahibi idin, indi Allah şahiddir ki, yoxsulsan, sözündən geri çəkilərsənsə kimsə səni qınamaz. Yalangtuş belə sənə tənə edə bilməz. Deyir, bilirəm, amma verdiyim sözə əməl etməsəm özüm özümü qınayaram.

Vaxt keçir... yaşlanmış qəssabbaşı Katanqu dünyasını dəyişir, Şir Dor'un inşasının başa çatmasını görmür.

Səmərqənd hakimi Yalangtuş Bahadurun əmri ilə əhdə vəfalı Katanqu Şir Dor mədrəsinin həyətində, İmam Cəfər Sadiqlə bir məkanda dəfn edilir.

O hadisədən 400 il keçir. Qəssabbaşı o qiymətli yatağında rahatca uyumaqdadır. Dünyaya bir insanlıq hekayəti, əhdə vəfa risaləsi bəxş edib getmiş adam... xoş halına. Sənə də Allahın salamı olsun.

Dünyanın hər yerindən Registana axışan turistlər bu əhvalatı dinlədikcə gözlərdə işıq, üzlərdə təbəssüm oynaşır. Qəssabbaşının bərəkəti davam edir... bu gün də gəlib-gedəni belə bir nemətlə qidalandırır.

Beləcə, Səmərqəndin bu ünlü Registanından bir neçə məqamı qələmə aldıq. Amma bu məkanın, bu mədrəsələrin hər hücrəsində, hər çilləxanasında nə sirlər yatır. Öyrənilməli, öyrədilməli nələr var...

Mədrəsələrin həyətlərini bir-bir gəzirəm... həqiqətən yuxu kimidir, nəyi nədən sonra gördüyünü xatırlamırsan. İndicə gördüyünü bir an öncə görmüş ola bilərsən, yaxud nəyisə heç görməyib, heç bilməyə bilərsən. Yaddaşına nəyin düşüb düşməyəcəyi, nəyin qalıb, nəyin silinəcəyi bəlli deyil...

... Açıq olan hər qapını açıram, hücrələrə - 2-4 nəfərin yaşadığı yataqxana odalarına, sinif otaqlarına bir-bir baxıram, bizdə gördüklərimdən fərqlidir; hər hücrənin iç qatları, zirzəmisi, anbarı, ocağı, isidici kalafa, hətta kitab rəfi belə vardır.

Bu mədrəsələrdə tələbələrə azuqə, ayaqqabı, paltar, çanta, qış vaxtı odun, kiçik cibxərcliyi, eləcə də dəftər, qələm, mürəkkəb, kitab, kitabaltlığı və s. verilərmiş. Təhsil pulsuz imiş.

Yetər ki, OXU!

Lütfən, diqqət edin; tələbəyə zəruri hər şey verilir! Təhsil pulsuzdur!

Müəllimlər yaxından, uzaqdan gətirilmiş mötəbər alimlərdir! Onlara böyük maaşlar verilir!

Və bütün bu ehtiyaclar hökmdarın - dövlətin xəzinəsindən ödənir!

Tək Səmərqənddə 30-dan çox mədrəsə vardı. Hər mədrəsədə ilboyu 50-100 arası tələbə təhsil alırdı. Ən yaxşı tələbələr mədrəsəni bitirdikdən sonra ali dərəcəli təhsilə keçirdilər. Həmin ali məktəblər "Maxutayi Mulloyon" adlanırdı. Bu ali məktəblərdən Şərqin nəhəng alimləri, hakimləri, sərkərdələri çıxırdı.

Maraqlıdır ki, dövrün zəngin insanları öz şöhrətlərini artırmaq üçün daha çox mədrəsə tikdirirdilər. Ona görə də Səmərqənddə mədrəsə məsciddən çoxdur. Mədrəsə tağları məscid günbəzlərindən hündürdür. Minarələr mədrəsələrə bitişikdir, sanki məscidlər mədrəsələrin nəzdində fəaliyyət göstərirmiş... elm daha üstün imiş...

Əlbəttə, desək ki, dövr cənnət imiş, yalan olar. Lakin doğru olan odur ki, dövr təhsil üçün, elm üçün cənnət idi. Məhz Türküstanın ortaçağ intibahı da, türk dövlətlərinin yüksəlişi də bu təhsil, bu elm üzərində dayanırdı.

**Registana heyran olub ayrılıram. Heyranların ayrılığı yaman olur... amma yolumuz bu elm cənnətini yaradan Böyük Əmirə - Əmir Teymura sarıdır... nəhayət, Əmirin ziyarətinə səmtlənirəm...**

**Mehriban VƏZİR**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 100 (6714) 12 may 2017

**Bu gün Qarabağ cəbhəsində müharibənin dayandırılması barədə razılaşmanı özündə ehtiva edən Bişkek protokolunun hüquqi qüvvəyə minməsinin 23-cü ildönümü tamam olur. 1994-cü ilin 8 mayında Azərbaycan, Ermənistan rəhbərliyi, həmçinin Qarabağın hər iki icmasının nümayəndələri tərəfindən imzalanan bu sənədə əsasən, tərəflər tezliklə beynəlxalq vasitəçilik sayəsində "Böyük sülh sazişi" imzalamalı idi, lakin artıq üçüncü onillikdir ki, Ermənistanın təcavüzkar siyasəti sülh razılaşmasına gəlməyə imkan vermir.**



# Bişkek protokolundan keçən 23 il, həmsədrlərin ikili oyunu, düşmənin kəsilməyən təxribatları

## Ermənistanın sülh danışıqlarından imtina etdiyi bir mərhələdə Qərbin separatçılarla bağlı fərqli mövqe sərgiləməsi işğalçını daha da həvəsləndirir; **politoloq:** "İndi olmasa da, yaxın zamanda bu silahlar yenə hərəkətə gətiriləcək..."

Düzdür, Bişkek protokolu imzalanan gündən cəbhə xəttində aktiv hərbi əməliyyatlar müvəqqəti olaraq dayandırılıb. Ancaq düşmənin vaxtaşırı atəşkəs rejimini pozması nəticəsində hər iki tərəf çoxsaylı itkilər verib. Bununla belə, cinayətkar Ermənistan hakimiyyəti məsuliyyətini dərk edib konstruktiv mövqe ortaya qoymaq istəmir. Ötən ilin aprelində baş verən dördgünlük döyüşlər bir daha təsdiq etdi ki, Bişkek razılaşması əslində çoxdan öz qüvvəsini itirib və bölgədə dağıdıcı müharibənin başlanması an məsələsidir. Ancaq çox təəssüf ki, status-kvonun təhlükəli olduğunu anlayan beynəlxalq güclər məsələnin köklü həllində maraqlı olmadıqlarını öz davranışları ilə sübuta yetirirlər. Fransanın keçmiş prezidentinin Qarabağ ermənilərinin "öz müqəddəratını təyinetmə hüququna" sahib olması zərurətindən danışmasını unutmamışıq. Rusiya XİN rəhbərliyinin Ermənistanı və Qarabağdakı separatçıları məmnun edən davranışları da göz önündədir. Sonuncu halda Moskvadakı aksiyaya Qarabağın separatçı rejiminin bayraqları ilə çıxanlara etiraz sərgiləyən azərbaycanlılara Rusiya polisinin hücum etməsi də çox şey deyir.

Təəssüf ki, daha çox ədalətinə inanmaq istədiyimiz ABŞ-dan da Azərbaycanın ərazi bütövlüyü ilə bağlı birmənalı prinsipial mövqe görmürük. Qarabağ separatçılarına vaxtaşırı müxtəlif adlarla dəstək verən ABŞ hökuməti separatçıların bu ölkədə "nümayəndəlik" yaratmasına, qatil Bako Saakyanın okeanın o tayında telemarafon keçirib Azərbaycana qarşı savaşı davam etdirmək üçün pullar yığmasına imkanlar tanıyır. Bugünlərdə isə ABŞ Senatının 2017-ci il üçün federal büdcə ilə bağlı qəbul etdiyi qanunda ilk dəfə olaraq Gürcüstanın ərazi bütövlüyünün müdafiəsi ilə bağlı maddələr yer alıb, işğala görə Rusiyaya yeni sanksiyalar nəzərdə tutulur. Həmin maddələrə əsasən, Gürcüstanın işğal edilmiş Abxaziya və Cənubi Osetiya regionlarının müstəqilliyini tanıyan istənilən ölkəyə hər hansı kömək birbaşa və qəti şəkildə qadağan edilir. Ancaq Azərbaycanın işğal altındakı torpaqlarına münasibətdə bu mövqe yoxdur. Hansı ki, söhbət həmsədr ölkələrdən gedir. Belə olan təqdirdə Bişkek protokolunun nə vaxtsa əbədi sülh gətirəcəyinə inanmaq mümkün deyil. Çünki işğalçı qarşısında güc görərsə, o halda ənənəvi mövqeyindən əl çəkə bilər. Əks təqdirdə, Rusiyadan "İsgəndər" raketləri, ABŞ-dan gecəgörmə cihazlarını hədiyyə alan işğalçı mövqeyini niyə dəyişsin ki?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyir ki, atəşkəs bölgəyə sülh və əmin-amanlıq gətirməyib:** "Bişkekdə atəşkəs sazişi imzalananda deyilmişdi ki, məqsəd yaxın zamanda sülh müqaviləsini imzalamaqdır. Ancaq 23 ildə bu mümkün olmadı. Çünki qarşı tərəf işğalı rəsmiləşdirməyə çalışır. Bizim üçün atəşkəsin mənası odur ki, Ermənistan işğal altındakı torpaqları boşaltmalı və məcburi köçkünlər yurdlarına qayıtmalıdırlar. Ermənistan hakimiyyəti isə tam tərsinə, atəşkəsdən status-kvonun uzanması məqsədilə istifadə edir".

**Ekspert hesab edir ki, belə şəraitdə atəşkəs Azərbaycanın maraqlarına cavab verə bilməz:** "Aprel döyüşləri Azərbaycanın status-kvo ilə əbədiyyətə qədər barışmayacağı anlamına gəlirdi. Təəssüf ki, erməni separatçıları bunu anlamırlar. Düşünürlər ki, status-kvoya şərait yaradan atəşkəsi uzun müddət uzatmaq mümkündür. Azərbaycan ordusu modern silah və hərbi texnika ilə ona görə silahlanmır ki, atəşkəsə xidmət etsinlər. Bu silah və hərbi texnika torpaqların işğaldan azad edilməsi üçün alınır. İndi olmasa da, yaxın zamanda bu silahlar yenə hərəkətə gətiriləcək. Çünki bizim başqa alternativimiz yoxdur".

**Politoloq Arzu Nağıyevə görə, ümumiyyətlə, ABŞ və Avropanın əsas məqsədi məhz bu proseslərdən istifadə edərək Rusiyaya qarşı sanksiyaların artırılması və bununla da onu həm siyasi, həm də iqtisadi blokadaya salmaqdır:** "İstər Ukraynada, istərsə də Gürcüstanda bunun şahidi olduq. Təsəvvür edin ki, Ukrayna və Gürcüstanla viza rejimini ləğv edən Avropa ikinci addım kimi Donbas və Abxaziyada, Cənubi Osetiyada yaşayan vətəndaşlara da müvafiq olaraq Gürcüstan və Ukrayna pasportları paylatdıracaq və onların da Avropaya vizasız gediş-gəlişini təmin edəcək. Məhz buna görə də Rusiya həmin vətəndaşlara artıq özünün tanıdığı sənədləri təqdim etməyə başlayıb. Düşünürəm ki, bu, eyni zamanda Krıma da tətbiq ediləcək. Bu regionlar Rusiyanın birbaşa ilhaq etdiyi ərazilərdir".

**Dağlıq Qarabağa gəldikdə isə A.Nağıyev bildirdi ki, burada proseslər SSRİ dövründən başladığı üçün Rusiya bir varis kimi cavabdehlik daşımalıdır:** "Bu gün Dağlıq Qarabağla bağlı belə addımlar atılarsa, ermənilərə qarşı sanksiyalar kimi qəbul ediləcək. Gələcəkdə yəqin ki, davam kimi biz Dnestryanı, sonra da Qarabağla bağlı belə sanksiyaların şahidi ola biləcəyik. Çünki əvvəllər hətta Avropada belə hər bir millətin öz müqəddəratını təyinetmə hüququ ön plana çəkilirdisə, artıq separatizm meylləri artaraq Avropanı, elə ABŞ-ın özünü də parçalaya bilər. Məhz buna görə də separatmeyllilərə sanksiyalar tətbiq ediləcəyi gözləniləndir".




Çox qəribədir ki, həmsədrlər Serj Sərkisyanın qanunsuz olaraq Azərbaycan ərazilərinə gəlişinə, Şuşanın işğalının 25-ci ildönümü ilə bağlı işğalçıların keçirdiyi tədbirlərdə iştirakına, Azərbaycana qarşı erməni-rus hərbi birləşməsinin komandirinin təhdidlərinə də reaksiya vermir. Odur ki, düşmən Azərbaycanı günahlandırmaq üçün çeşidli şoular quraşdırır. Ancaq Qərbin sükutu, həmçinin separatçılarla fərqli davranmasının səbəbləri məlum deyil. Azərbaycanı narahat edən məsələyə heç olmasa səfirlik səviyyəsində reaksiya verilmir.

**Politoloq Elçin Mirzəbəyli hesab edir ki, bu, Qərbin Azərbaycanın ərazi bütövlüyünə münasibətdə ənənəvi siyasətidir:** "Postsovet məkanındakı digər münaqişələrə münasibətdə Qərb Azərbaycanın ərazi bütövlüyü ilə bağlı manipulyativ mövqe sərgiləyir, ikili standartlardan çıxış edir. Təbii ki, bunun səbəbləri var. Ermənistan indi Rusiya ilə birgə olmaq, Rusiyanın ayaqları altına yıxılmaq məcburiyyətindədir. Rusiya ilə Ermənistanı bir arada tutan heç bir ideoloji, yaxud dini bağ yoxdur. Rusiya xristian dövləti olsa da, din bu ölkədə heç vaxt aparıcı faktor olmayıb və olması da mümkün deyil. Unutmaq lazım deyil ki, Ermənistan Rusiyanın forpostu olmaqla yanaşı, eyni zamanda Qərbin missioner dövlətidir. Bu missionerlik tarixi ənənələrə söykənir. Ermənilər Osmanlı Türkiyəsində də eyni missiyanı yerinə yetirirdilər".

**Rusiyada separatçılara meydan verilməsinin səbəbi barədə danışan E.Mirzəbəyli qeyd etdi ki, bu, Moskvanın son dövrlərdə daha qabarıq nəzərə çarpan siyasəti ilə bağlıdır:** "Moskva təkcə öz ərazisində deyil, həm də Azərbaycanın maraqlarının kəsişdiyi digər bölgələrdə də bizə ziyan verməyə çalışır. İtaliyada TAP-ın inşasına qarşı həyata keçirilən aksiyalar da Rusiyadan idarə olunur və maliyyələşdirilir. Moskva "Türk axını" layihəsini qabartmaqla Ankaranın Azərbaycanla bağlı iqtisadi maraqlarını da neytrallaşdırmağa, bizi maksimum dərəcədə "təkləməyə" çalışır. Rusiya Azərbaycanı KTMT-yə və Avrasiya İttifaqına qatmaq, əvəzində isə heç nə vermək istəmir. Real vəziyyət budur".

**Belə olan halda ənənəvi sual ortaya çıxır: rəsmi Bakı nə etməlidir? Politoloq hesab edir ki, indiki şəraitdə ölkənin bütün istiqamətlərdə müqavimət gücünün artırılmasından başqa yol görünmür:** "Zənnimcə, bizi təxminən 1 illik ziddiyyətli bir zaman gözləyir. Bu müddət ərzində Avropa İttifaqının da, ABŞ-ın da xarici siyasətində aktivliyin artacağını, bu aktivliyin Cənubi Qafqaza da təsir göstərəcəyini düşünürəm".

Son bir neçə həftə ərzində Azərbaycanı Tavuş vilayətindəki mülki əhalini atəşə tutmaqda ittiham edən, savaşı iki dövlət sərhədinə çəkməkdən ötrü çeşidli təxribatlara əl atan Ermənistan indi də növbəti şouya başlayıb. Mayın 11-də erməni mətbuatı iddia edib ki, Azərbaycan tərəfdən açılan atəş nəticəsində "Şant" telekompaniyasının operatoru David Atoyan yaralanıb və İrəvana aparılıb. Amma şüşələri qırılmış avtomobildə nədənsə qan izləri müşahidə olunmur. Üstəlik, avtomobil kənardan baxanda hərbi maşına daha çox bənzəyir, nəinki mülki maşına. Bölgəyə gələn "jurnalist"i hərbi maşından seçilməyən avtomobillə daşımağın özü sırf təxribatdan xəbər verir. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti isə bildirdi ki, Ermənistan hərbi texnikasının kamuflyaj rənginə uyğun maskalanmış, üzərində media və ya hər hansı mülki təşkilata aid heç bir fərqləndirici nişanı olmayan, "Şant" televiziyasına məxsus olduğu iddia edilən nəqliyyat vasitəsindən mövqelərimiz istiqamətində açılan atəşə qarşı bölmələrimiz tərəfindən müvafiq cavab tədbirləri görülüb. "Eyni zamanda onu da bildiririk ki, Silahlı Qüvvələrimiz düşmənin yalnız hərbi güc, vasitə və digər hərbi təyinatlı obyektlərinə qarşı cavab tədbirləri görür".

Lakin virtualaz.org-un araşdırmaları erməni yalanını üzə çıxarıb. Məlumata görə, düşmən bu kampaniyanı başlamazdan əvvəl ciddi səhvə yol verib. "Novosti Armenia" agentliyi "Şant" telekanalının həmin insidentdən bəhs edən videosüjetini yayıb və kadrlardan məlum olur ki, erməni jurnalistlərinin çəkiliş qrupu hərbi kamuflyaj şəklində rənglənmiş "Shevrolet Niva" avtomobilində hərəkət ediblər. Üstəlik, avtomobilin salonunda "Kalaşnikov" avtomatı var. "Hərbi kamuflyaj daşıyan və salonunda hərbi geyimli, "Kalaşnikov"la silahlanmış adamların olduğu istənilən avtomobil istənilən münaqişə zonasında qarşıduran tərəf üçün qanuni hədəfdir" - sözügedən araşdırma materialında deyilir. Həqiqətən də hərbi kamuflyaj şəklində rənglənmiş maşında olan jurnalist kamera əvəzinə, avtomat daşıyırsa, onun Azərbaycan tərəfə atəş açmadığına kimsə zəmanət verə bilməz. Azərbaycan əsgəri heç vaxt düşmənin qisasını mülki şəxslərdən və ya jurnalistlərdən almayıb, Qarabağ döyüşlərində həlak olan azərbaycanlı jurnalistlərlə bağlı acı həqiqətlər də çox şey deyir. Göründüyü kimi, "atəşkəs" haqqında sazişdən keçən 23 ildə düşmən nəinki islah olunmayıb, hətta daha da ağzınlaşıb və təxribatlarından əl çəkməyib. Ermənistanın sülh danışıqlarından imtina etdiyi bir mərhələdə Qərbin separatçılarla bağlı fərqli mövqe sərgiləməsi isə işğalçını daha da həvəsləndirir. Kəsəsi, düşmən və onun himayəçiləri Azərbaycanı savaşa çəkir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 100 (6714) 12 may 2017



# Ana və uşaq ölümü: valideyn, yoxsa həkim səhlənkarlığı?

## Həkim: "Dünyaya sağlam körpə gətirmək üçün cütlük hamiləlikdən əvvəl həkimə müraciət etməlidir"

**Bir neçə gün öncə Sumqayıt şəhər 1 saylı Doğum Evində ana və körpəsi doğuş zamanı ölüb. 1979-cu il təvəllüdlü Gülnarə Təyyar qızı Əkbərova doğum zamanı dünyaya gətirdiyi körpə ilə yanaşı, özü də dünyasını dəyişib. Əkbərovlar ailəsi həkim səhlənkarlığı iddiası ilə aidiyyəti qurumlara şikayət ediblər.**

Şikayət əsasında ana və körpənin meyiti Səhiyyə Nazirliyi Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Mərkəzi şöbəsinə təhvil verilib. Faktla bağlı araşdırma aparılır. Doğuşa Yardım Komissiyasının sədri Sevinc Məmmədova Sumqayıtda baş verən ana və körpə ölümünün dəqiq səbəbinin 10 gündən sonra məlum olacağını bildirib.

Ümumiyyətlə, doğuş zamanı ana və uşaq ölümlərinə tez-tez rast gəlinir. Bir sıra ekspertlər bu cür faciəvi hadisələrdə həkimi günahlandırsalar da, valideynlərdə də günah olduğunu deyənlər var. Bəzən elə olur ki, hamilə qadın həkim nəzarətində olması lazım olduğu halda bunu gecikdirir. Bəzən isə elə hallar olur ki, ailə kasıb olduğu üçün həkim müayinəsindən keçə bilmir və həkimə yalnız 9 ayının tamamında gedir.

Təəssüflə qeyd edək ki, hətta bir sıra kəndlərdə hamilə qadınlar körpələrini ev şəraitində, professional olmayan bir həkimin və ya heç bu sənətin sahibi olmayan şəxsin köməkliyi ilə dünyaya gətirir ki, bu da əksər hallarda ana və ya uşağın ölümü ilə nəticələnir. Gec həkim qəbuluna düşmək və özbaşına hamiləlik dönəmi təəssüf ki, bu cür faciəli halların sayını artıran səbəblərdəndir.

Maraqlıdır, bəs qadın hamiləliyinin neçənci ayından həkim nəzarətində olmalıdır? Ümumiyyətlə, dövlət imkansız analar üçün hansısa tədbir görməlidirmi ki, onlar həkim nəzarətində təmənnasız ola bilsin?

**Uzman cərrah-ginekoloq Nərmin Qəribova bildirdi ki, müəyyən önləyici tədbirlər görülsə, ana ölümlərinin təxminən 48 faizinin qarşısı alına bilər:** "Son illər ana və uşaq sağlamlığının qorunması istiqamətində görülən işlər nəticəsində ölüm faktları azalıb. Hamilə qadının vaxtı-vaxtında qadın məsləhətxanasına getməməsi, lazımi müayinələrdən keçməməsi, dinamik müşahidədə olmaması, doğuş üçün müvafiq doğum evini seçməməsi, doğum evlərinə çox gec və ağır vəziyyətdə daxil olmasını baş verən əksər ana və uşaq ölüm hallarının əsas səbəbi kimi göstərmək olar. Ancaq istər normal, istərsə də qeysəriyyə əməliyyatı olsun, əsasən ana ölümlərinin başlıca səbəbi bütün dünyada olduğu kimi, təxminən 30-40 faiz hallarda qanaxmalardan irəli gəlir. İkinci səbəb isə əməliyyat sonrası problemlərlə əlaqədardır. Ürək problemləri, tromboemboliyalar ola bilər. Üçüncü yerdə isə əməliyyatsonrası dövrdə olan infeksiyalar durur. Ancaq dünya praktikasında belə nəticəyə gəliblər ki, ümumiyyətlə, bütün dünyada - istər ABŞ, Kanada, Avropanın inkişaf etmiş ölkələri olsun, istərsə də digər ölkələr, ana-uşaq ölümlərinin əvvəlcədən səbəbləri bilinsə, müəyyən önləyici tədbirlər görülsə, ana ölümlərinin təxminən 48 faizinin qarşısı alına bilər".

**Həkimin sözlərinə görə, ana və uşaq ölümlərinin əsas səbəbi ağırlaşmış, normal gedişli olmayan hamiləlikdir:** "Çox vaxt belə ağır xəstənin klinikaya son anda müraciət etməsi bəzi mənfi halları qaçılmaz edir. Qadın hamilə olduğunu öyrəndiyi andan etibarən ilk 3 ay ərzində mütləq həkim nəzarətindən keçməli, lazımi analizləri verməlidir. Vəziyyətə uyğun olaraq hamiləliyin bəlli həftələrində təkrar həkim nəzarətindən keçməlidir. Təəssüf ki, bu, həmişə mümkün olmur. Yaşayış şəraiti, maddi problemlər bəzən sağlamlığın önünə keçə bilir. Bunun üçün qadın məsləhətxanaları fəaliyyət göstərməkdədir. Ancaq bununla yanaşı, xarici dövlətlərdə olduğu kimi, dövlət proqramı və ya sağlıq sığortası ilə bu problemlər aradan qaldırıla bilər. Dünyaya sağlam körpə gətirmək üçün ailə cütlüyü hamiləlikdən əvvəl həkimə müraciət etməlidir. Qan qrupu və rezus-faktor müəyyən olunmalıdır, həkimin hamiləlik öncəsi məsləhətlərini almalıdırlar. "Bir narahatlığım yoxdur" deyib laqeyd yanaşmamalıdırlar. Qadın hamiləliyin əvvəlindən doğuşa qədər həkim nəzarətində olmalı, sağlamlığında hər hansı narahatlığı hiss etdikdə dərhal etibar etdiyi həkiminə müraciət etməlidir".

❑ **Günel MANAFLI**

# Oliqarx oğlunun "Porsche" ilə vurub öldürdüyü qadının uşaqlarına kompensasiya kəsiləcəkmi...

## Əsabəli Mustafayev: "Qanuna görə, uşaqların böyüməsi və inkişafı üçün onlara kompensasiya ödənilə bilər"

## Mehriban Zeynalova: "Uşaqlar böyüyənə qədər də bu maddi yardımla təmin olunmalıdırlar"

**İş adamı Füzuli Fərəcovun 16 yaşlı oğlunun 200 min dəyərində olan "Porsche" ilə 2 uşaq anası Xəyalə Məmmədovanı vuraraq öldürməsindən bir həftədən çox vaxt keçib. Rəsmi qurumların açıqlamalarına görə, artıq hadisəni törədən Ağəli Fərəcov barəsində cinayət işi açılıb və iş araşdırılır. Mövzu ilə bağlı ekspertlər bildirirlər ki, istintaqın gəldiyi nəticədən asılı olaraq, Ağəli Fərəcov həm qapalı tərbiyə müəssisəsinə salına, həm də azad edilə bilər. İstintaqın isə nə zaman yekunlaşacağı məlum deyil.**

Hadisə barəsində mətbuatda daha çox Füzuli Fərəcov və oğlunun aqibəti barəsində yazılar dərc olunsa da, dünyasını dəyişən Xəyalə Məmmədova və onun azyaşlı övladlarının hüquqları demək olar ki, unudulub. Bəs müvafiq təşkilatlar X. Məmmədovanın ailəsi ilə maraqlanırlarmı?

**"Yeni Müsavat"a danışan "Təmiz Dünya" İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova bildirib ki, onlar qadının ailəsi ilə maraqlanıblar:** "Uşaqlarla maraqlandıq və öyrəndik ki, onları ata böyüdür, o da heç bir pul davası etmir. Ancaq hesab edirəm ki, bu cinayət hadisəsində uşaqlar nəzərə alınmalı, onların adlarına pul köçürülməlidir. Uşaqlar böyüyənə qədər də bu maddi yardımla təmin olunmalıdırlar. Belə özbaşınalıq olmaz ki, vurub qadını öldür, uşaqlara yardım etmə. Bu məsələdə 16 yaşlı oğlanın belə özbaşınalığı və sükan arxasında oturub, avtomobili sürətlə sürməsi də söz mövzusudur. Burada yenə də ailə tərbiyəsi özünü göstərir və hesab edirəm ki, məsələdə valideynin kifayət qədər günahı var. Mətbuatda məsələ ilə bağlı






bir neçə versiya yazıldı ki, ailə şikayətçi deyil, qadının ailəsi isə guya pul istəyib və sairə. Lakin bu da sonradan inkar edildi. Hadisə kifayət qədər diqqətdə saxlanılır, ona görə də biz daha çox uşaqlarla maraqlandıq. Qəza hər kəsin başına gələr və eyni zamanda hər adam da qəza zamanı dünyasını dəyişə bilər. Ancaq burada müzakirə predmeti odur ki, sükan arxasındakı uşağın 16 yaşı var və onun yaşam tərzi ilə bağlı da kifayət qədər də şəkillər ortaya çıxdı. Məlum oldu ki, ata uşağın bu cür həyat tərzi keçirməsi üçün münbit şərait yaradıb. Bu hadisə qəsdən olmaya da bilər, ehtiyatsızlıqdan da mümkündür, içkinin təsirindən də. Yəni yaş məsələsi olmasaydı, bunu adi qəza hesab etmək olardı. Burada qərəz və ya başqa bu kimi hal olmayıb. Əgər kompensasiya varsa, bu, uşaqların adına verilməli, onların böyüməsi, təhsil almasına sərf olunmalıdır. Məsələyə yanaşmam budur. Ümumiyyətlə, hesab edirəm ki, ölü üzərindən alver edilməz".

**Hüquqşünas Əsabəli Mustafayev isə "Yeni Müsavat"a belə bir vəziyyətdə qanunvericiliyin tələbləri barəsində danışıb:** "Bu barədə əslində məhkəmə təcrübəsi də mövcuddur. Yaxınlarda belə bir məsələ qaldırılmışdı ki, avtoqəza nəticəsində dünyasını dəyişənin övladlarına kompensasiya verilsin. Bildiyim qədər, son qərara görə ödənişin məbləği 100 min manat idi. Bunun bir hissəsi dərhal, nağd formasında ödənilirdi, digər hissəsi isə uşaqların 23 yaşına qədər onlara hər ay olmaqla verilirdi. Bu təcrübə hüquqi praktikadır və digər məhkəmələr də bundan istifadə edə bilərlər. İnsan ölürsə, onun yaxınlarına həm mənəvi, həm də maddi baxımdan zərər dəyir. Həmçinin uşaq varsa, onun da himayədarı ölür. Ona görə də məhkəmə, uşaqların böyüməsi və inkişafı üçün lazım olan məbləği müəyyənləşdirib, kompensasiya təyin etməlidir. Qanunda nəzərdə tutulub ki, zərərçəkmişə dəymiş zərərin aradan götürülməsi üçün yardım göstərmək cəzanı yüngülləşdirən bir haldır. Nə qədər yüngülləşdirdiyini isə məhkəmə müəyyənləşdirə bilər. Adətən avtoqəza ilə bağlı araşdırma 3, ya da 4 ay davam edir. Əgər şəxsin 16 yaşı varsa, o, tam məsuliyyət daşıyır. Cinayəti törədən şəxs cəzasını 18 yaşına qədər xüsusi qapalı müəssisədə, qalanını isə ümumi rejimli kolonda çəkir".

❑ **Əli RAİS**

# "İş adamı məsuliyyətdən yayınmaq üçün özünü xəstəliyə vurub"

## Aslan İsmayılov: "Mürvət Həsənli ağır diaqnozla Respublika Diaqnostika Mərkəzində gizlənir"

**Məşhur hüquqşünas Aslan İsmayılov "Xəmsə" şadlıq sarayı və bir sıra başqa biznes obyektlərinin sahibi, türk iş adamını aldatdığı, ona olan 1 milyon manatdan çox borcunu vermədiyi üçün məsuliyyətə cəlb olunan Mürvət Həsənlinin özünü xəstəliyə vurması haqda status yazıb.**

A.İsmayılov özünün facebook profilində qeyd edib ki, M.Həsənli məsuliyyətdən yaxa qurtarmaq üçün ən ağır diaqnoz almaq niyyəti ilə xəstəxanaya düşüb.

Statusun bir hissəsini təqdim edirik: "Bugünlərdə Türkiyə vətəndaşlarına qarşı etdikləri dələduzluqlara, şantaja, hədə-qorxulara görə məsuliyyətə çağırılan "Xəmsə" restoranının sahibi, "mafiya babası" Mürvət Həsənli də ifşa olunacağını görən kimi məsuliyyətdən yayınmaq üçün ən ağır diaqnozla Respublika Diaqnostika Mərkəzində gizlənir. Guya ən ağır ürək xəstəliyindən əzab çəkən, təcili cərrahi əməliyyata ehtiyacı olan M.Həsənli elə həmin tibb müəssisəsində ola-ola sağa-sola müsahibələr verir, guya iş başında olduğunu, mənim yalan məlumatı paylaşdığımı deyir, məni təhqir etməyə davam edir... Bir daha onlara deyirəm, mənim qorxacaq yerim yoxdur, sizin kimi çirkabın içində deyiləm və səbrim də tükənməz deyil. Daha yaxşı olar ki, siz yumurta, cücə biznesi ilə deyil, öz vəzifənizi icra edin, bərbad vəziyyətdə olan səhiyyə və ondan geri qalmayan ədliyyə ilə məşğul olun".

Qeyd edək ki, A.İsmayılov M.Həsənlinin vaxtilə şəriki olan "Emre Piliç" şirkətinin sahiblərindən biri Ömür Oralın nümayəndəsidir. "Emre Piliç" şirkəti M.Həsənlinin vasitəçiliyi ilə "Siyəzən Broyler" ASC-yə damazlıq yumurta satıb, həmin yumurtaların pulları isə "Siyəzən Broyler" ASC tərəfindən uzun illər



Ömür Oralın Azərbaycandakı nümayəndəsi olan "Xəmsə-M" MMC-nin rəhbəri Mürvət Həsənliyə verilib. "Siyəzən Broyler" ASC tərəfindən 3,8 milyon ABŞ dolları M.Həsənliyə verilsə də, sonuncu "Emre Piliç" şirkətinə bu puldan cəmi 2,1 milyon ABŞ dollarını ödəyib, yerdə qalan 1,7 milyon dollarını isə verməyib. Ö.Orala bildirib ki, "Siyəzən Broyler" ASC bu pulları ödəməkdən imtina edir. "Emre Piliç" şirkətinin rəhbəri Ömür Oral bu pulları tələb etmək üçün Azərbaycana gələcəyini və lazımi instansiyalara şikayət edəcəyini bildirdikdə, M. Həsənli cavabında bildirib ki, "Siyəzən Broyler" ASC yüksək hakimiyyət dairələrinə məxsus olduğundan, bu şirkətə qarşı hər hansı addım atıla bilməz. Ö.Oral belə səhv etsə, dərhal həbs ediləcək. Beləliklə də M.Həsənli Ö.Oralın Azərbaycana gəlişinin qarşısını almağa çalışıb. Ö.Oral deyib ki, bu yolla M.Həsənli "Emre Piliç" şirkətinə çatası təxminən 1,7 milyon ABŞ dollarını qanunsuz şəkildə ələ keçirib. O, Azərbaycana gələndən sonra isə onun özünü təhdid etməyə, oğlunu öldürtdürəcəyi ilə hədələməyə başlayıb. Bir neçə gün əvvəl hədələnmə ilə bağlı M.Həsənli Daxili İşlər Nazirliyi (DİN) Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən saxlanılıb, dindirilərək sərbəst buraxılmışdı. Bundan sonra iş adamının xəstəxanaya müraciət etməsi suallar doğurub.

❑ **E.MƏMMƏDƏLİYEV**




**Cümə söhbətləri**

# O gələcək. Biz hazırıqmı?

**Dinimizin əlamətdar günlərə xüsusi münasibəti var. Bu günlər vasitəsilə insanlar dinimizin həqiqətlərini daha yaxşı dərk edir, mübarək İslamın bərəkətlərinə vara bilirlər. Bu gün çox əlamətdar bir tarixi yaşayırıq. Bu, Zəmanə Sahibi Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f) mövludu günüdür. Bu, bir tarixdir ki, ruhən, zehnən ona hazırlaşmaq lazımdır. İnsan gərək öz daxili aləminin mövludda olan bütün keyfiyyətlərlə həmahəng olmasına diqqət yetirsin. Uca Allah o durumdan saxlasın insanı ki, Peyğəmbər (s) və Əhli-Beytinin (ə) mövludları günü sadəcə bir tarix olsun insan üçün, insan bu fəzilətlər çeşməsindən bəhrələnməmiş bir durumda olsun.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Zəmanə Sahibinin (ə.f) mövludu

Həzrət Mehdinin (ə.f) mövludu günü bizə bir mühüm mövzunu xatırladır. Və bu xatırlatma, Zəmanə Sahibinin (ə.f) hazırda qeybdə olması ilə xüsusi səciyyə kəsb edir. Həzrət Mehdinin (ə.f) bizə xatırlatdığı və zəmanəmizin, günümüzün ən mühüm bir məsələsi var: Həzrət Mehdinin (ə.f) qeybdə olduğu zaman, bir insan o Həzrəti (ə.f) nə dərəcədə xatırlayır? Nə dərəcədə gerçəkdə bu qeybi dərk edir və zühura hazırlaşır? Zəmanə Sahibinin (ə.f) qeybdə olduğunu zamanda öz İlahi təklifini, öz insani vəzifəsini yerinə yetirirmi? Fərəcin intizarında həqiqətdə ola bilirmi? Yoxsa təqvimdə gözə dəyəndən-dəyənə, mövluddan-mövluda onun yadına düşür İmam (ə.f)? Quran ayələrində onun gəlişinə işarələri eşidəndə, hədislərdə Mövlanın (ə.f) mübarək adına rast gələndəmi mömin xatılayır onu, yoxsa gündəlik həyatını intizara uyğun qurur?

Həqiqət budur ki, hər bir inanclının Həzrət Mehdinin (ə.f) qeybi dövründə həqiqi müntəzir olma vəzifəsi var. Və intizarda olmağın necəliyini, keyfiyyətini o amil müəyyən edir ki, insan bu vəzifənin dərinliyini nə dərəcədə dərk edir.

İnsan həyatı boyu gözləmələrdədir. Xoş və narahatedici gözləntiləri olur hər bir insanın. Ailə qurmaq gözləntisi, uşağın dünyaya gəlməsi, böyüməsi, məktəbə getməsi gözləntisi və s. Bir başqası təhsil alır. Onun gözləntisi odur ki, təhsilimi başa vurum, filan işə gedim və s. Hər bir konkret halın və hadisənin gözləntisi, bu gözlənti obyektinin məramından asılı olmayaraq, insanın davranışında bir ümumi cəhəti müəyyən edir. Bu ümumi cəhət - insanın öz davranışını az və ya çox miqdarda gözləmə obyektinə uyğun tarazlamasıdır. Yəni gözləntinin mühümlüyündən asılı olaraq, bu, gözləyənin fikirlərində, rəftarlarında, davranışında, hətta ruhi-mənəvi durumunda, emosional-psixoloji vəziyyətində öz səthi və ya dərin əksini buraxır.

Bu baxımdan, ən simvolik vəziyyət - imtahan gözləntisində olan tələbənin misalıdır. Əgər tələbə məsuliyyətlidirsə, imtahan vermək onun üçün əhəmiyyət kəsb edirsə, onun gündəlik hər bir işində bu gözlənti seziləcəkdir. Yox, əgər o, təsadüfi, mövsümi bir tələbədirsə, adının haradasa getməsi, ona tələbə deyilməsi xatirinə ali məktəbə gedib-gəlirsə, onda vəziyyət tam başqa cür olacaq. Beləsinin gözləntisi də statusuna uyğun olacaq.

İnsan öz həyatı boyu nəyisə gözləyir. Kiçik və böyük şeyləri. Birisi metroda qatar gözləyir - bu da gözləntidir. Digəri bu zaman uşağının dünyaya gəlməsini gözləyir - bu da gözləntidir. Üçüncüsü isə verdiyi imtahanın nəticəsini gözləyir. Bir başqası isə onillər boyu çəkdiyi elmi zəhmətlərin, eksperiment və sınaqların yekununu gözləyir. Bunlar da bir gözləntidir.

Yaxud həcc mərasimini yerinə yetirməyin gözləntisində olan insan. O, axtarış aparır ki, hansı karvanla getsə, münasib şərtlərlə öz ziyarətini keyfiyyətli yerinə yetirə bilər. Yol yoldaşı axtarır özünə, səfər azuqəsini hazırlayır. Nigarançılığı var, düzmü edib seçimini, nəyisə daha yaxşı etmək olmazdımı və s.

Ticarətçi hansısa iş qurur. Qurduğu işin bəhrəsini gözləyir. Buna uyğun da gözləntiləri var. Müəllim öz hazırladığı şagirdlərin ali məktəbə daxil olmasını, əməyinin bəhrə verməsini gözləyir.

İnsan həyatı boyu nəyinsə intizarını çəkir. Hər kəs üçün bu, yaxın bir hissdir. Dünyada baş verənlərə də baxsaq, görərik ki, millətlər, ölkələr də nəyisə gözləyir. Tərəqqi gözləyir, islahat gözləyir, dəyişiklik gözləyir, firavanlıq gözləyir insanlar. Siyasətçilər, iqtisadçılar, təhlilçilər də bu gözləntiyə uyğun prqnozlar edir, proqramlar tərtib edir, vədlər verirlər.

İnsanın daxilinə aid bir hissdir bu. Hər bir insan bu gözlənti hissinə uyğun özünü həmahəng edir.

## Yaxın 30 ildə dinə maraq fövqəl dərəcədə artacaq

Mübarək bir mövludu yaşayırıq. Və bu mövluddan apara biləcəyimiz ən böyük bəhrə - intizar mövzusudur. Bir yoxlamalıdır özünü insan, sınaqdan keçirməlidir. Bu mövlud sahibinin ki, hər bir inanclı onun ardıcılı olmaq iddiasındadır, nə dərəcədə gəlişinin intizarındadır? İnsanın həyatı nə dərəcədə bu intizara uyğunlaşdırılmışdır? Həyatın müxtəlif vəziyyət və hallarında özünü göstərirmi bu gözlənti, bu intizar? Haləti, durumu, vəziyyəti, əməli uyğundurmu onun intizarına? Yoxsa, Allah eləməmiş, onun bu intizar iddiası nəsə bir növbətçi məsələyə çevrilmişdir?

Mümkün deyil ki, insan müntəzir olsun, intizarçı olsun, amma bu hal onun həyatında öz əksini tapmasın. Nə qədər onun başı qarışıq olsa da, güzaran üçün nə qədər ora-bura qaçsa da, özü ilə bağlı mövzuları diqqətdən yayındırmamalıdır insan.

Müasir dünyamızda, bəşərin çatdığı müəyyən tərəqqiyə rəğmən, müəyyən uğura rəğmən bir məsələ var ki, insanlar özləri ilə bağlı suallara cavab tapa bilmir. Axır dövrlərdə isə elm və texnikanın inkişafı o həddə çatıb ki, insan amili əsaslı surətdə azalmağa doğru gedir. Bu məsələ ilə bağlı bir neçə rəqəmə nəzər salaq.

Elmi-futuroloji tədqiqatlar onu göstərir ki, əgər dünyanın tərəqqisi bu kimi davam etsə, artıq yaxın 15-20 ildə informasiya sistemləri və elektron konstruksiyalar o qədər inkişaf edəcək ki, insanlar səsli texnologiyalar vasitəsilə maşın və avadanlıqları idarə edə biləcəklər və bu, artıq kütləvi hal əldə edəcək. Nəticədə menecmentdən, idarəetmədən tutmuş, həyatın bir çox digər sahələrinədək başdan-ayağa dəyişikliklər baş verəcək. Belə proqnoz edirlər ki, insanların həyatı ümumilikdə elə dəyişəcək ki, texnoloji imkanlar artıq hər kəsin birbaşa istifadəsinə qədər gəlib çıxacaq.

Amma bütün bu zahiri tərəqqiyə rəğmən, insanlar arasındakı konfliktlərin dərinləşəcəyi də proqnozlaşdırılır. 2030-40-cı illərdə anlaşılmazlıqların və konflikt vəziyyətlərin zirvə həddə çatması proqnozlaşdırılır. İnsanların münasibətlərində çox ciddi böhranların yaşanacağı gözlənilir. Bunun nəticəsində insanlarda vəziyyətin yenidən dəyərləndirilməsi baş verəcək. İnsanlar mənəvi və psixoloji böhranlardan qurtulmaq üçün inanc mövzusuna fövqəl diqqət edəcəklər. Bu baxımdan, inancın rolu və yeri tamamilə yeni bir vəziyyətə gələcək. İnanc bəşərin həyatında yenidən əsas və mərkəzi yerlərdə olacaq.

Bu, bir tədqiqatlardır ki, onları hansısa dini təəssübü olan insanlar aparmayıb. Sırf texniki və texnoloji yanaşmalar nəticəsində meydana çıxan proqnozlardır bu. Məlum olur ki, elmin, texnikanın və texnologiyanın möhtəşəm surətdə inkişafına, bugünkü vəziyyətə nisbətən böyük keyfiyyət sıçrayışı etməsi ilə bərabər, insanın mənəvi-psixoloji rahatlığı təmin olunmayacaq, eqzistensial sualları cavablandırılmayacaq. İnsan itəcək bu tərəqqinin içində. Bir də ayılacaq ki, bu texniki inkişaf prosesinin xırda bir dişciyi qədər rolu yoxdur onun bu həyatda. Belə vəziyyət düşünən insanın öz axtarışlarını daha dərindən, daha səylə aparmasına gətirib çıxaracaq. Nəticə etibarilə, bu axtarışlar bəşərin inanc mövzularına həddən ziyadə diqqətli olmasına səbəb olacaq.

Belə vəziyyət inanc əhlinin üzərinə xüsusi məsuliyyət qoyur. Əməldə inancını yaşatmaqla bağlı. Bəşərin mənəvi axtarışlarını cavablandırmasına yardım etməklə bağlı. Həqiqətdə müntəzir olmaqla bağlı. Sözdə intizarçı yox, şüarda intizarçı yox, həyatın hər bir sahəsində intizar çəkən, İmamı (ə.f) gözləyən olmaqla bağlı bir şərəfli vəzifə gəlir hər bir müsəlmanın üzərinə.

Bu, bir əməli mövzudur. Bu, ya var, ya yoxdur. Mövluddan-mövluda öz missiyasını xatırlamaq gərəkimez müntəzirə. Müntəzir odur ki, hər tarixlə, hər mövludla bağlı həqiqətləri özündə daşısın, mövlud yiyəsinin idealları, baxışları ilə öz daxili aləmini həmahəng etsin. Özünü daima yoxlasın ki, nə qədər uzlaşır, nə qədər uyğunlaşır onun durumu müntəzirlik məfhumu ilə? Müntəzirliyə iddialı olan insanın belə bir vəzifəsi var: Mövlanın (ə.f) gəlişini həqiqətdə gözləmək və bu gözləntiyə uyğun həyat sürmək.

## Qeyb vaxtı çətin dindarlıq

Qeyd etdik ki, bəşər qarşısında duran ən böyük təhlükələrdən biri - insaniyyətin itirilmə təhlükəsidir. Tərəqqi çox yaxşı bir şeydir, amma bir şərtlə ki, insan özünü itirməsin. Zira, insan özünü itirdikdə, onda bu tərəqqi kimin üçündür? Tərəqqinin hədəfində insan durmursa, onda nəyə lazımdır o? Bu baxımdan aparılan tədqiqatların nəticəsində müəyyən edilməsi ki, bəşəriyyətin tərəqqisi onun inanca doğru üz tutması ilə nəticələnəcək - çox simvolik və əlamətdardır.

Amma inanclı insan gərək bu gün də öz missiyasını unutmasın. Həzrət Mehdinin (ə.f) qeybdə olduğu dövrdə, o, Həzrətin (ə.f) zühurunun gerçəkləşdirilməsi yolunda gərək bütün səylərini etsin. Doğru yaşasın, düzgün əməl etsin. İslam Peyğəmbəri (ə) Həzrət Mehdinin (ə.f) qeybdə olduğu dövrdə ona sadiqliyini saxlayanların həqiqətdə az olmasına işarə edərək, buyurmuşdur: **"Məni haqq olaraq Göndərənə and olsun ki, o, (İmam Mehdi (ə.f)) qeybdə olanda onun İmam olması əqidəsində möhkəm duranlar qırmızı kükürddən də az tapılarlar".**

Hər bir müsəlmana aid bir məsələdir bu. Bu dönəmdə Zəmanə Sahibinə (ə.f) möhkəm bağlı olmaq. Möhkəm etiqada malik olmaq. Gerçək mənada müntəzir olmaq. Vücudi böhranlardan müntəzir kimi çıxmaq.

Böyük İslam Peyğəmbəri (s) buyurur: **"Mənim ümmətimin ən üstün işi - fərəc (İmam Mehdinin (ə.f) zühuru) intizarında olmaq və Allahdan onun baş verməsini istəməkdir".**

Diqqət edək: buyurulur "ən üstün işi". Deyilmir "ən üstün işlərindən bir". Deyilmir "vacib vəzifələrindən biri", "ən fəzilətli mövzulardan biri". Deyilir ki, işlərin tacıdır bu. Bu, varsa, namaz da var, oruc da var, dinin digər məsələləri də var. Bunsuz digər dini vacibatlar mühüm bir tərkibdən, müəyyənedici mahiyyətdən məhrumdur.

## Fərəcin intizarı - ən böyük qurtuluşdur

İmam Səccaddan (ə) nəql edirlər: **"Fərəcin intizarını çəkməyin özü ən böyük qurtuluşdur".**

Gözləməyin özünün bir şirinliyi var. İnsan bir xoş şeyi gözlədikdə, bu gözləmə prosesinin özü ona müsbət emosiyalar verir, onu müsbət işlərə doğru yönəldir, rəftarlarında xeyirxah edir. Amma fərəcin intizarı bir başqa şirinlikdir. Bu, bir qurtuluşdur. İnsan fərəcin - Həzrət Mehdinin (ə.f) zühurunun həqiqi müntəziri olduqda, bu zühuru tezləşdirən işlər görür. Onun dünyagörüşü İlahi dünyagörüşü olur. Onun əməlləri zühuru tezləşdirmək səyi ilə yüklənir. Həqiqi müntəzirin durumu tam ibadətli bir durum olur. Və onun üçün bu intizar ibadətə çevrilir, bütün qəlbini, vücudunu kamilliyə yönəldən bir ibadətə. Bu durum insan üçün ən böyük bir vücudi qurtuluşa çevrilir...

Nədir həqiqi intizar? Yəqinlik! Necə bir insan sübhün intizarındadır ki, Rəbbi ilə sübh namazında münacat qurucaq və yəqinliklə, əminliklə bilir ki, sübh açılacaq, necə ki, bir kəs əminliklə bilir ki, günəş çıxacaq - buna uyğun da işlərini qurur, eləcə də həqiqi müntəzir İmamın (ə.f) gəlişinə əminlikdən də əmindir və işlərini bu əminliyə uyğun qurur. Davranışı bu müddəaya uyğundur onun.

İmam Museyi-Kazım (ə) buyurur: **"Fərəc intizarında olmağın özü açılışdır".**

Həzrət Mehdinin (ə.f) mübarək gəlişiylə düyünlər açılacaq, bəşəriyyət ağ günə çıxacaq. Zülmətlər işıqlanacaq, qaranlıqlar çəkiləcək. İntizarda olmağın özü insanın daxilini zülmətdən təmizləyir.

## Buludun arxasından nurlandıran Günəş...

İmam Cəfər Sadiqdən (ə) nəql edirlər: **"Kim bu iş sahibinin (İmamın zühurunun) intizarını çəkən halda ölsə, Qaimlə (Həzrət Mehdi (ə.f) ilə) birlikdə onun xeyməsində olmuş kimidir".** Sonra İmam Sadiq (ə) bir qədər də şiddətləndirərək, buyurur: **"Xeyr! Bəlkə hətta Allah Peyğəmbərinin (s) yanında qılınc çalan şəxs kimidir".**

Müntəzir bütün hərəkətlərilə, bütün rəftarlarıyla Peyğəmbərin (s) yanında olan insan kimidir, Peyğəmbərin (s) yanında qılınc çalan kimidir.

Həzrət Mehdinin (ə.f) özü intizarda olanlar barədə belə buyurur: **"Mən qeybdə olan zaman məndən bəhrələnən, Günəş buludun arxasında gözlərdən gizlin olanda ondan bəhrələnən kimidir. Ulduzlar göy əhlinin əmin-amanlığının amili olduğu kimi, mən də Yer əhlinin əmin-amanlıq amiliyəm".**

Günəş buludun arxasında olanda, insanlar məgər ondan bəhrələnmir? Əlbəttə ki, bəhrələnir. Günəşin özü görünməsə də, onun hərarəti, işığı, enerjisi təzahür olunur. Və Mövla (ə.f) gözlərdən gizli olduğu dövrdə onun nurundan bəhrələnənlərin misalı da belədir. İmam (ə.f) qeybdə olanda hər an öz nurunu bəşəriyyətə təqdim edir. Böyük ustadlardan biri buyurmuşdur: **"Ümumilikdə Zəmanə Sahibi (ə.f) insanla Rəbb arasında vücudi vasitədir".** Necə ki, Günəş vasitədir Yerə işıq verməkdə, enerji verməkdə, o cür də Həzrət Mehdi (ə.f) vasitədir hər bir insana ki, Rəbbinə bağlanmaq üçün bəhrələnmək istedadı, bəhrələnmək qabiliyyəti var. Əmin-amanlıq axtaran gərək Həzrət Mehdiyə (ə.f) bağlansın, onun nurundan bəhrə aparsın.

## İstedadların açılacağı gün

Bəşər övladı öz imkanlarının çox cüzi hissəsini açmışdır. Həzrət Mehdinin (ə.f) zühuru ilə insanların bütün istedadları açılacaqdır. İmam Cəfər Sadiq (ə) buyurur: **"Qaimimiz (Həzrət Mehdi (ə.f)) qiyam edən zaman Allah Təala ardıcıllarımızın görmək və eşitmək hiss qabiliyyətlərini o qədər genişləndirər ki, onlarla Qaim arasında bağlantı vasitəsinə ehtiyac qalmasın. Onlarla söhbət edər edər (Qaim)** və onlar onu eşidər və görərlər".

Digər hədisdə İmam Sadiqdən (ə) nəql edirlər: **"Elm 27 hissədir. Hər nə ki, peyğəmbərlər gətiriblər - 2 hissədir. Və bu günə qədər insanlar o 2 hissədən artığını bilmirlər. Qaimimiz qiyam edəndə o 25 hissəni də gətirər və insanlar arasında yayar. Və o 2 hissəni əlavə etdikdən sonra, yaydığı (elm) 27 hissə olar".**

**Allah Təala cəmi iman əhlinə əməllərin tacı olan həqiqi müntəzirlik durumunu, bəndəlik tofiqatını nəsib etsin! Amin!**

# Başqasının torpağını satdı, 7 il cəza aldı



**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Abgül Əliyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. "Report"un xəbərinə görə, hakim Samir Əliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Məhkəmənin hökmü ilə A.Əliyev 7 il müddətinə azadlıqdan məhrum edilib. O, məhkəmə zalında həbs edilib.

Qeyd edək ki, A.Əliyev 2015-ci ilin oktyabrında başqasının adına olan torpaq sahəsini tanışı Ramin Delikanova 14 min manata sataraq, ona qarşı dələduzluq edib.

Hüquq-mühafizə orqanları tərəfindən saxlanılan A.Əliyevin barəsində başqa yerə getməmə qətimkan tədbiri seçilib.

O, Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda törəldildikdə) maddəsi ilə ittiham olunub.

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Masallı sakinini elektrik cərəyanı vurub öldürdü

**Masallı rayon sakinini elektrik cərəyanı vurub. APA-nın cənub bürosunun verdiyi məlumata görə, hadisə rayonun Qəriblər kəndində qeydə alınıb. Kənd sakini, hələlik şəxsiyyəti məlum olmayan kişini cərəyan vurub.**

Həmin şəxs Masallı Mərkəzi Rayon Xəstəxanasına aparılarkən yolda ölüb.

Hadisəyə səbəb kimi elektrik naqilləri ilə ehtiyatsız davranma göstərilib.

Faktla bağlı araşdırma aparılır.

## İrandan Azərbaycana düz bağırsağında heroin keçirən adam tutuldu

**Biləsuvar Gömrük İdarəsinin əməkdaşları narkotik vasitənin ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilməsi cəhdinin qarşısını alıblar. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən "APA"-ya verilən məlumata görə, idarənin "Qoşa Təpə" gömrük postunda, daxil olan əməliyyat məlumatı əsasında, İrandan Azərbaycana piyada gələn Azərbaycan vətəndaşı saxlanılıb.**

Vətəndaşın üzərində şəxsi yoxlama zamanı onun daxili orqanında (düz bağırsağında) 13 ədəd bükümdə xalis çəkisi 218,508 qram olan heroin aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.

## Qeyri-sabit hava şəraiti mayın 13-dək davam edəcək

**Qeyri-sabit hava şəraitinin, güclü küləyin nə vaxta qədər davam edəcəyi açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor əvəzi Gülşad Məmmədova "Report"a açıqlamasında bildirib ki, may ayının 12-si gündüz saatlarından küləyin tədricən mülayimləşəcəyi gözlənilir: "Ölkə ərazisində qeyri-sabit hava şəraiti may ayının 13-ü səhər saatlarınadək davam edəcək".**

G.Məmmədova qeyd edib ki, bu gün və sabah gün ərzində havanın temperaturu 5-8 dərəcə aşağı düşəcək: "Temperaturun enməsi sabah müşahidə olunacaq. Havanın temperaturu tədricən düzələcək".



## Qubada 4 yaşlı uşağın meyiti tapıldı

**Quba rayonunda 4 yaşlı uşağın meyiti tapılıb. APA-nın şimal bürosunun verdiyi məlumata görə, hadisə rayonun Bərqov kəndində qeydə alınıb. Kənd sakini, 2013-cü il təvəllüdlü Mustafayev Fuad Həbib oğlunun meyiti evlərinin yaxınlığında aşkar edilib. Ailə üzvləri uşağın meyitini Xaçmaz Mərkəzi Rayon Xəstəxanasına aparıblar.**

Quba Rayon Prokurorluğundan verilən məlumata görə, uşağın ölüm səbəbini müəyyənləşdirmək üçün müvafiq tibbi ekspertiza təyin olunub.

Qubada 4 yaşlı uşağın meyitini tapan şəxs saxlanılıb.

Məlikov Xəyyam Yarəhməd oğlu uşağın meyitini tapıb ailəsinə verdikdən bir neçə saat sonra saxlanılıb. Faktı Çılğır kənd bələdiyyəsinin sədri Cahangir Məmmədov da təsdiqləyib.

Quba Rayon Prokurorluğu saxlanılan şəxslə bağlı açıqlama verməkdən imtina edib.

Faktla bağlı araşdırmalar davam etdirilir.

## Bakıda maşından 5 min manatlıq saqqız oğurlandı

**Bakıda məşhur saqqız firması olan "Dirol"un avtomobilindən oğurluq olub. "Report"un xəbərinə görə, hadisə Yasamal rayonunda qeydə alınıb. Belə ki, "Dirol" şirkətinin sürücüsü Eldar Əhmədovun idarə etdiyi "İsuzu" markalı maşından dəyəri 5 min manat olan saqqız oğurlanıb.**

Polis faktla bağlı araşdırma aparır.

## Gəncədə boşandığı qadını və özünü bıçaqlayan şəxs xəstəxanada ölüb

**Gəncədə keçmiş həyat yoldaşını bıçaqlayan, daha sonra özünə bıçaq xəsarətləri yetirən 29 yaşlı Ramin Qarayev xəstəxanada dünyasını dəyişib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, Gəncə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilən R. Qarayev dünən səhər saatlarında vəfat edib.**

Qeyd edək ki, hadisə mayın 9-da qeydə alınıb. Keçmiş həyat yoldaşı, 34 yaşlı Ülviyyə Alıyevanın boğaz nahiyəsinə bıçaq xəsarətləri yetirən R. Qarayev daha sonra özünün boğaz damarlarını kəsib.

R. Qarayevin Ü. Alıyevanı başqası ilə ailə qurub, hamilə qaldığına görə bıçaqladığı bildirilir.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda araşdırma aparılır.

## Bakı sakini qonşusunun "Wi-Fi"nə qoşulduğu üçün bıçaqlandı

**Bakının Xəzər rayonunda "Wi-Fi" simsiz internet şəbəkəsi üstündə düşən kütləvi dava nəticəsində 2 nəfər bıçaqlanıb. "Report" xəbər verir ki, hadisə Zirə qəsəbəsinin Naxçıvan küçəsində qeydə alınıb. Belə ki, Əliyev Emin Zabit oğlu və 1982-ci il təvəllüdlü Əliyev Ələkbər Əlhümmət oğlu yaşadıqları evin qonşuluğundakı fərdi yaşayış evinin qapısının yaxınlığında duraraq "Wi-Fi"dan istifadə edirlərmiş.**

Bu zaman 1997-ci il təvəllüdlü Əliyev Amid Qurbanəli oğlu və onun qardaşı (hələlik adı açıqlanmır) qapının yaxınlığında duraraq internetdən icazəsiz istifadə edən şəxslərə öz iradlarını bildiriblər. Bu zaman tərəflər arasında əlbəyaxa dava düşüb. Nəticədə A.Əliyev bıçaqla E.Əliyevə və Ə.Əliyevə xəsarətlər yetirib.

Xəsarət alan hər iki şəxs xəstəxanaya yerləşdirilib. Onların vəziyyəti orta-ağır kimi qiymətləndirilir. Faktla bağlı Xəzər Rayon Polis İdarəsində cinayət işi başlanıb. A.Əliyev və onun qardaşı saxlanılıb.

YENİ MÜSAVAT
N 100 (6714) 12 may 2017

**Azərbaycan şou-biznesində bir çox müğənnilər var ki, mətbuat onlarla rahat şəkildə işləyə bilir. Onların arasında xalq artistləri Flora Kərimova, Faiq Ağayev, əməkdar artistlər Baloğlan Əşrəfov, Elza Seyidcahan və başqalarını qeyd etmək olar. Onlar sənətdə öz sözlərini desələr də, əlçatmaz deyillər.**

# Sənətçilər media üçün əlçatmaz olmalıdır, yoxsa?..

Yeni jurnalist birbaşa həmin müğənnilərlə əlaqə saxlayıb, açıqlama və yaxud müsahibə ala bilir. Elə sənətçilərin özləri də jurnalistlərlə yaxşı münasibətdə olmağa, əksər hallarda bununla da gündəmdə qalıb, daha da populyarlaşmağa, ictimaiyyətin diqqət mərkəzində qalmağa çalışırlar.

Lakin artıq bir çox, xüsusən də son vaxtlarda populyarlaşmağa başlayan bəzi gənc müğənnilər əlçatmaz olmağa başlayıblar. Sənətə ilk qədəm qoyduqları zamanlarda özləri axtardıqları müxbirlərə indi yalnız prodüserləri vasitəsilə cavab verir, bəzi hallarda isə ümumiyyətlə, tapılmırlar. Bununla da bəziləri özlərinə "əlçatmaz müğənni" statusu qazanmağa çalışır.

Bəs sənətçi əlçatmaz olmalıdır, yoxsa?..

**Hər zaman mətbuata açıq olan əməkdar artist Baloğlan Əşrəfov mövzuya bu cür şərh bildirdi:** "Hər kəsin həyatda özünəməxsus davranışı, mədəniyyəti var. Kim həyatını necə qurursa, mən buna heç nə deyə bilmərəm. Ola bilər ki, bəziləri üçün belə daha maraqlıdır. Amma yenə də, ağac bar gətirəndə, başını aşağı əyər. Deyilənə görə, Azərbaycanda kifayət qədər populyar adamam. Amma heç bir zaman başqa vasitələrlə populyarlıq qazanmamışam. Kim nə vaxt müraciət edib, cavab vermişəm, kimə lazımdırsa, sözümü demişəm. Guya kimlərsə telefon zənglərinə cavab verməməklə "moda minəcəksə", səhv edir".

**Aparıcı, prodüser Tahirə Məmmədqızı da qeyd etdi ki, kimliyindən, statusundan, mövqeyindən asılı olmayaraq sənət, ümumiyyətlə, ictimai aləmdə olan istənilən insan mətbuata açıq olmağı bacarmalıdır:** "Yəni özünə güvəni varsa, - demirəm ki, dostluq eləsin, çünki onlar mətbuatla dostluğa inanmırlar, - amma hər halda, mətbuata açıq olmalıdırlar. Çünki gündəm olan, ictimai fəaliyyəti olan birmənalı şəkildə qəbul etməlidir ki, onun haqqında danışıb, yazacaqlar, müzakirə ediləcək, yaxşı və ya pis mənada hadisənin mərkəzində ola bilər. Ona görə də mətbuata açıq olmaqla, onlar mətbuata birbaşa fikirlərini deyə bilirlər və cəmiyyətdə onlara qarşı hörmətlə yanaşırlar ki, bu insan mətbuata açıqdır. Amma ümumi mənada götürəndə tanınmışları başa düşmək olur, guya ki, onlar özlərini əlçatmaz edə bilirlər. Bu, müəyyən mənada onların xeyirlərinə də ola bilir, onlar heç bir açıqlama vermir, danışmaq istəmir, düşünürlər ki, bununla da bir qədər qalmaqallardan uzaq ola bilər. Amma fikrimcə, bu, yanlış fikirdir. Çünki istənilən halda qalmaqallı insan haqda onsuz da mətbuatda yazılacaq. Ancaq yaxşı olardı ki, mətbuatla dürüst münasibət yaratsın. Məsələn, xalq artisti Faiq Ağayev istənilən zaman istənilən suala cavab verəcək təfəkkürə, dünyagörüşünə və savada malikdir. Ən çətin durumlarında belə mətbuata çox rahat şəkildə açıqlama verir. Bu da ona müsbət mənada öz təsirini göstərir. Lakin bir neçə müğənni var ki, onların bəlli bir çərçivəsi var və bir-iki jurnalistdən başqa digərləri ilə qətiyyən əlaqə saxlamağı sevmir. Sonra da problem yarananda dostluq münasibətində olduğu jurnalistlərdən başqa digərləri ona qarşı aqressiv olur. Amma bir daha qeyd edirəm, istəyir Milli Məclisdə əyləşən deputat olsun, istəyir sənət aləmində tanınmış müğənni, vəkil, həkim olsun, onlar mətbuatla rahat, normal ünsiyyət qurmağı bacarmalıdırlar. Bu, yalnız və yalnız onların xeyrinə ola bilər".



**Baloğlan Əşrəfov:** "Heç vaxt başqa vasitələrlə populyarlıq qazanmamışam"



**Tahirə Məmmədqızı:** "Mətbuatla normal ünsiyyət onların yalnız xeyrinə ola bilər".



**İntiqam Valehoğlu:** "Sənətçi tayfası elədir ki, ətrafında nə qədər çox jurnalist görürsə, özünü bir o qədər böyük adam hesab edir"

**Jurnalist İntiqam Valehoğlu isə mövzu ilə bağlı bunu bildirdi:** "Sənətçi əlçatan olmalı məqamda bunu bacarmalıdır. Məsələn, jurnalistdən, tamaşaçıdan qaçıb, "xaricdəyəm" deyib, gecəni 70 yaşlı sponsorla bağ evində keçirmək olmaz. Bu, həm sağlamlığa zərərlidir, həm də jurnalistləri incitməkdir. O ki qaldı təzəcə populyarlaşanlara, onlar bu populyarlığa görə iki şeyə borcludurlar: biri sosial şəbəkələr, biri də dediyim daydaylara. Yəni belələrinin tamaşaçı qarşısında heç bir öhdəçiliyi və məsuliyyəti yoxdur. Prodüserlərdən söz düşmüşkən, indiki halda əksər prodüserlərin gördüyü iş daha çox yengəliyi xatırladır. Əgər sənətçi tanındıqca prodüserlərinin sayı da artmalıdırsa, onda Alim Qasımovun həmin sənətçiciklərin sayı qədər prodüseri olmalıdır. Və bildiyiniz kimi, zənglərə o, şəxsən cavab verir".

**Jurnalist öz həmkarlarına da səslənib:** "Həmkarlarıma bir təklifim var. Gördüyünüz və bildiyiniz kimi, son zamanlar qala gecələrində, təqdimatlarda sizə qarşı hörmətsizlik edilir. Ona görə də həmin təqdimatlara jurnalist kimi getməyin. Filmə baxmaq istəyirsinizsə, gedin, 5 manatınızı verin, baxın. Çünki sənətçi tayfası elədir ki, ətrafında nə qədər çox jurnalist görürsə, özünü bir o qədər böyük adam hesab edir. Son dəfə "İki tüstü" filminin qala gecəsində olmuşam. Orda da təşkilatçılar çox mədəni davranmışdılar. Yəni bu kimi tədbirlərə ucdantutma getmək, hər "sənətçiyəm" deyənə diktofon, mikrofon uzatmaq olmaz. Əgər hətta iş gərəyi bunu edirsinizsə, elə adamlara ciddi suallar verib, şişirtməyin. Sonra əziyyətini biz çəkirik".

❑ **Xalidə GƏRAY**

# "Bakıda zəlzələ ilə bağlı qorxu yoxdur, amma..."



## **Qurban Yetirmişli:** "Bölgələrdə zəif təkanlar var, bu olmalıdır"

## **Telman Zeynalov:** "Zəlzələlərin miqdarı həddən artıq çoxdur"

**Mayın 11-də səhər saat 07:25 radələrində Azərbaycanın bir neçə rayonunda zəlzələ baş verib. AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi ölkə ərazisində baş verən zəlzələ ilə bağlı məlumat yayıb. Məlumatda yeraltı təkanların Saatlı rayonu ərazisində qeydə alındığı bildirilir. İlkin məlumatlara əsasən, yerli vaxtla saat 07:24-də Saatlı rayonu ərazisində zəlzələ qeydə alınıb. Zəlzələ episentrdə 4 bal, yaxın yaşayış məntəqələrində isə 3-4 bala qədər hiss olunub. Zəlzələnin ocağı 39 km dərinlikdə olub. Qeyd edək ki, zəlzələ Şirvan, Salyan, Lənkəran, Kürdəmir, Şamaxı, Ağsu, Hacıqabul, Sabirabad, Füzulidə də hiss olunub.**

Maraqlıdır, zəlzələ baş verən bölgələrdə dağıntı, tələfat varmı və bu zəlzələ yenidən ola bilərmi? Bu Bakıda da gözlənilirmi?

**Respublika Seysmoloji Mərkəzinin direktoru Qurban Yetirmişli** zəlzələ dərində olduğu üçün onun gücünün elə də hiss edilmədiyini dedi: "Zəlzələ güclü idi. Ancaq onun gücü o qədər hiss edilməyib, çünki o, dərində olub. Dərində nə qədər güclü zəlzələ belə olsa, onun titrətmə, yəni insanlar tərəfindən hiss olunma dairəsi çox böyükdür, böyük əraziləri silkələyir. Dağıntıları isə çox az olur. Bu zəlzələdə elə bir ciddi dağıntı olmayıb. Çünki episentrdə 5 bala yaxındır, amma orada yaşayış məntəqələri yoxdur. Bu zəlzələ Saatlıdan 24 kilometr cənub-şərq, Beyləqan istiqamətindədir. Saatlı, Beyləqan, Cəlilabadda və ətraf rayonlarda 3-4 bal gücündə hiss olunub. Bunlar da təsnifatına görə heç bir dağıdıcı gücə malik deyil. Sadəcə olaraq, insanlar tərəfindən hiss olunur. Ola bilsin ki, hansısa qeyri-standart tikinti materialından istifadə olunmuş tikilidə çatlar olsun və ya ayrılsın".

**Q.Yetirmişli bu zəlzələnin Bakı ilə heç bir əlaqəsi olmadığını bildirdi:** "Bakıda zəlzələ ilə bağlı hansısa qorxu yoxdur. Digər bölgələrdə isə zəif təkanlar var, bu olmalıdır. Çünki metosferdə gedən geodinamik proseslər nəticəsində bu zəlzələlər baş verir. Elə bir zona da yoxdur ki, deyəsən yaxın günlər üçün dağıdıcı gücə malik olan zəlzələ baş versin".

**Ekoloq Telman Zeynalov zəlzələnin baş verməsinin yer səthindəki boşluqlarla əlaqəli olduğunu dedi:** "Alimlər indiyə qədər zəlzələnin nə vaxt baş verəcəyi ilə bağlı məlumat əldə edə bilməyib. Çünki onu əldə edə bilmək üçün avadanlıqlar icad olunmayıb. Onu ancaq heyvanat aləmi yaxşı bilir. Torpaqda sürünənlər, ilan, gürzə, it, pişik zəlzələnin olma vaxtını yaxşı bilirlər. Ona görə də onları izləmək lazımdır ki, vəziyyətin necə olduğunu biləsən. Bizim alimimiz Kərim Kərimli öyrənmişdi ki, hansı gücdə yerin səthində nüvə silahı partlasa, dünyanın hansı yerində zəlzələ baş verə bilər. Bu da keçmiş SSRİ-nin əlində bir silah idi. İndi də o silah onların əlində var. O ki qaldı Azərbaycanda zəlzələnin nə vaxt olacağına, bunu öyrənmək qeyri-mümkündür. Son vaxtlar qlobal inkişafla əlaqədar elmə pul buraxmırlar. Saxta oyunbazlıqlar həyata keçirməklə milyardlarla pul qazanırlar, amma gerçək elmə pul buraxmırlar və deyirlər ki, elmə pul buraxmağa ehtiyac yoxdur, biz hamısını bilirik. Yalandan proqnoz verirlər ki, Azərbaycanda 25 ildən sonra su qıtlığı yaşanacaq. Tamamilə yanlış fikirdir. Biz yerüstü çaylarımızın miqdarını biliriksə, deməli, bir o qədər də yeraltı çaylarımız var. Ona görə də heç bir su qıtlığı ilə üzləşməyəcəyik. İndi havanı, suyu satırlar və bunun üstündə müharibə gedir ki, bütün təbii sərvətləri hansısa dövlət əlinə keçirsin. Buna görə də zəlzələni proqnoz etmək çətindir, əgər bu nə vaxtsa mümkün olsa belə, imkan verməyəcəklər və onu kəşf edən alimi aradan götürəcəklər. Çünki onların apardığı çirkin iqtisadi siyasətə maneçilik törətmiş olacaq. Zəlzələnin baş verməsi Yer səthindəki boşluqlarla əlaqəlidir. Oranın boşluğu ilə buranın boşluğu arasında məsafə varsa, gəlib çıxacaq. Xəzər dənizinin dibində ildə 1-2 bal gücündə 1000-2000 dəfə yeraltı təkanlar baş verir. Biz onu hiss etmirik. Ümumiyyətlə, Azərbaycan hələ gənc ərazi olduğuna görə tam formalaşmayıb. Ona görə də burada zəlzələlərin miqdarı həddən artıq çoxdur".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 100 (6714) 12 may 2017

# Amerikalı 78 yumurtalı piton tutub

Amerikanın Florida ştatının sakini 59 kiloqram ağırlığında piton yaxalayıb. Baş vermiş bu olayla bağlı videoyazı CBS News telekanalında nümayiş olunub. Ölmüş ilandan 748 yumurta çıxarılıb. Telekanalın informasiyasına görə, ovçu Dasti Kram orxideya yetişdirir, boş zamanlarında isə pitonların ovlanması ilə məşğul olur. 59 kiloluq piton onun həyatı boyunca yaxaladığı ən ağır ilan olub. Xəbərdə həmçinin qeyd olunur ki, su resursları yerli departamentindən bu ilana görə 375 dollar alıb. Təxminən eyni məbləği də ilanın dərisinin satışından əldə edib. Amma əsas məlumat ondan ibarətdir ki, Cənubi Floridada bu günə qədər yaxalanmış ən ağır ilan 5.5 metr uzunluğunda, 72 kilo ağırlığında olub.





## Uşaq evdə itdi, polis çağırıb tapdılar

Böyük Britaniyadakı Suinton şəhərində evdə yatıb qalan balaca oğlanın axtarışı üçün polis çağırılıb. Bu barədə "Daily Mail" qəzeti xəbər verir. Belə ki, bacı-qardaşı oynayan zaman 2 yaşlı Loqan Marklend qəflətən itib. Valideynləri Samanta və Ceyms bütün evi axtarsalar da, onu tapa bilməyiblər. Nəticədə qonşular axtarışa qoşulub. Bu da fayda verməyəndə polisə müraciət olunub. Uşağın tapılmasına 40 dəqiqə sərf olunub və o, qardaşlarından birinin yatağında tapılıb. Onu qonşularının uşağı aşkar edib. Onun gec tapılmasının səbəbi isə yataqda, üstündə oyuncaqlarla yatılı olması olub.



## İş masasında yemək öldürür

Alimlərin apardıqları tədqiqata əsasən, bütün dünyada onlarla insanın ölümünə az hərəkətli həyat tərzi səbəbdir. Fiziki fəallığın çatışmazlığı qan laxtalarının yaranmasına səbəb olur. Tədqiqatlar göstərir ki, gün ərzində 10 saat işləyən 21-30 yaşlarında insanların təxminən 75 faizi fasiləyə çıxmaqdan imtina edirlər ki, bu da dərin venalarda tromboz əmələ gəlməsi təhlükəsini əhəmiyyətli dərəcədə artırır. Mütəxəssislər qeyd edirlər ki, hazırda dünyada yaşı 40-dan az olan tromboz qurbanlarının sayı sürətlə artır. Eyni zamanda trombozla bağlı bir çox hallar diaqnozlaşdırılmayıb. Həkimlərin məsləhətlərinə görə, trombozdan müdafiə olunmağın ən səmərəli üsulu hərəkətli olmaqdan, siqaretdən imtina etməkdən, duz və yağdan istifadəni azaltmaqdan ibarətdir.

# Dünyanın ən ağır kişisi əməliyyatdan keçib və...

**Dünyanın ən ağır insanı olan Huan Pedro Frankonun çəkisi 595 kilodur. Onu uğurlu bir şəkildə Meksikada əməliyyat ediblər. Ona mədə şuntlanması əməliyyatı ediblər. Əməliyyat Frankonun çəkisini iki dəfə aşağı salmağa yardım edəcək. Qeyd olunur ki, kişi bundan sonra ən azı bir əməliyyat da keçirməli olacaq. Amma ondan əvvəl orqanizmin dəyişikliklərə reaksiya verməsi vacibdir. İkinci əməliyyat təxminən 2017-ci ilin noyabr ayı üçün nəzərdə tutulub. Onun mədəsini iki dəfə kiçildəcəklər.**

Franko uzun illər yataqdan qalxmayıb. "The Daily Mirror"un xəbərinə görə, əməliyyata razılıq almaq üçün o, 27 kiloqram arıqlamalı olub. Həkimlər əmin olmalı idilər ki, kişi gələcəkdə də çəki korreksiyasına hazırdır və əzmlidir. Bununla yanaşı, Franko şəkər və arterial təzyiqinə də xüsusi nəzarət etməli idi.

2016-cı ildə isə meksikalı dünyanın ən ağır insanı Manuel Uribe dünyasını dəyişib. O, bu statusa 2007-ci ildə sahib olub və həmin vaxt çəkisi 597 kiloqram olub. Dieta və həkimlərin köməyi ona 2008-ci ildə 360 kiloya qədər arıqlamağa imkan verib. Amma ölən gün onun çəkisi 394 kilo olub.





## Siçanlar da danışmağı öyrənəcək

Amerikalı mütəxəssislər müəyyənləşdirib ki, siçanlar da quşlar və insanlar kimi mahnı oxumağı öyrənə bilərlər. Araşdırmalara görə, birlikdə yaşayan erkək siçanlar bir müddət sonra səslərini bir-birinə uyğunlaşdırırlar. Bundan başqa, siçanların da beynində quşlarda və insanlarda olduğu kimi eşidilən səsləri öyrənmək üçün bir davranış mexanizmi var. Bununla bağlı daha öncə aparılan bir araşdırmada qeyd olunmuşdu ki, erkək siçanlar cütləşmə zamanı dişi siçanı tovlamaq üçün qəribə səslər çıxarır. Bu insanın eşidə bilməyəcəyi qədər zəif səs olsa da, incələmə zamanı onun ağlamsınaraq oxunan mahnıya bənzədiyi üzə çıxıb. Amma siçanların da beynində səslərin tənzimlənməsi üçün hissələr var və onlar beynin ön hissəsində yerləşir.




**QOÇ** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, xüsusən də baş nahiyənizə ciddi fikir verməlisiniz. Digər işləri təxirə salmaq da olar.

**BUĞA** - Ümumi əhvalınızda xoş məqamlar bol olacaq. Ələlxüsus da saat 15-dən sonra bəzi cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı sevgiyə həsr edin. Ulduzlar uzaq səfərə çıxmanızın əleyhinədir.

**ƏKİZLƏR** - Qarşınızda uğurlu bir gün durur. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Nahardan sonra uzaq yola çıxmaq olar.

**XƏRÇƏNG** - Xırda-para işlər başınızı qatsa da, şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin, ağır fiziki işlərdən yayınmağa çalışın.

**ŞİR** - İxtiyarınızda olan bu təqvimdə ətrafdakılarla mülayim olmağa üstünlük verin. Əgər ruhən sizə yaxın olan insanlara baş çəksəniz, böyük savab qazanmış olarsınız. Bütün hallarda bu gün bədbin düşüncələrdən azad olun.

**QIZ** - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Bu səbəbdən də yalnız özünüzə aid işlərlə məşğul olun.

**TƏRƏZİ** - Planetiniz Veneranın "hakimiyyətdə" olması sizi daha enerjili edəcək. Amma səhhətlə bağlı problemlərinizi həll etməlisiniz. Çünki bu amil vacib planlarınızı poza bilər. Görüşləri axşama salın.

**ƏQRƏB** - Saat 14-ə qədər neytrallıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir. Riskdən qorxmayın.

**OXATAN** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqlardan sevindirici xəbər də alasınız. Hər halda, gün ərzində ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə ehtiyatlı olmalısınız.

**OĞLAQ** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Əgər təşəbbüskarlığı əlinizdə saxlasanız, hədəfə mütləq çatacaqsınız.

**SUTÖKƏN** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Ruhi tarazlığınızı bərpa etmək üçün ziyarətgahlara baş çəkmək olar.

**BALIQLAR** - Bütün vacib işlərinizi günün birinci yarısında yekunlaşdırın. Çünki saat 14-dən sonra daxili süstlüyünüz yüksələ bilər. Axşama doğru maraqlı insanlarla rastlaşacaqsınız. Bu gün borc almayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Burnunu düzəltmək istədi, 3 aydır komadan çıxa bilmir



11 ay öncə evlənən 26 yaşındakı İbrahim Doğan rahat nəfəs ala bilmədiyi üçün üç ay əvvəl burnunu əməliyyat etdirməyə qərar verib. Amma əməliyyat zamanı gənc adam komaya girib və komadan çıxa bilmir. İ.Doğanın həyat yoldaşı prokurorluğa şikayət edib. 11 yanvarda əməliyyata girən gəncin burnundakı sümük alınarkən qəribə hadisə baş verib. Öncə gəncin ürəyi dayanıb, müdaxilədən sonra ürəyin fəaliyyəti bərpa olunub. Amma bu zaman da onun beyninə oksigen getməyib. Dərhal gənci Pamukkale Universiteti Xəstəxanasına göndəriblər. Bununla belə, 3 aydır ki, İ.Doğan reanimasiyadadır və ayılmır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100